QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 208 (8801) ÇƏRŞƏNBƏ, 29 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Böyük siyasətin möhtəşəm zəfəri



**Azərbaycan xalqına şanlı Zəfər bəxş etmiş İkinci Qarabağ müharibəsinin başlanmasının birinci ildönümü tamam olur. Bu möhtəşəm qələbə dövlət müstəqilliyimizin bərpası və müstəqil Azərbaycan dövlətinin qurulması ilə birlikdə son 30 illik tariximizin ən parlaq səhifəsinə, xalqımızın Vətən və torpaq sevgisinin yenilməzliyinin təntənəsinə çevrildi. Vətən müharibəsi və onun cahanşümul nəticəsi dövlətimizin qüdrətinin, xalqımızın mətanətinin, ordumuzun və əsgərimizin şücaətinin, Prezidentimizin uzaqgörənliyinin nümayişi olaraq tarixə yazıldı.**

## Qalib sərkərdə

**Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq ötən il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi tarixi ədalətin bərpası, dövlətimizin və xalqımızın qələbəsi ilə başa çatdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu zəfərlə vətənimizi bütün dünyaya həm də döyüş meydanında qalib dövlət kimi tanıtdı.**

Sentyabrın 27-də Azərbaycan xalqı bu qələbəni xalqımıza qazandıran şəhidlərimizin xatirəsini yad etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım günü ilə əlaqədar xalqa müraciəti, dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə keçirilən anım yürüşü, ölkə üzrə bir dəqiqəlik sükut elan edilməsi, Bakı şəhərinin ən gözəl yerlərindən birində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması xalqımızın şəhidlərimizə olan əbədi ehtiramını göstərdi.

*Ardı 7-ci səh.*

Qarabağın azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpası olmaqla yanaşı, tarixi ədalətin təntənəsi, xeyirin şər üzərində qələbəsi qədər ümumbəşəri məna və əhəmiyyət kəsb edir. Haqsızlıqdan, xəyanətdən, təcavüzdən əzab çəkən xalqlar Vətən müharibəsinin timsalında haqqın qələbəsinin şahidi oldular. Azərbaycan təcavüz qurbanlarının gözündə haqsızlığa qarşı mübarizənin simvoluna çevrildi.

### Qələbəyə aparan yol

Azərbaycanı möhtəşəm tarixi qələbəyə aparan yolun əsası əslində 1993-cü ilin iyun ayında, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə qoyulmuşdur. Əvvəlki hakimiyyətlərdən miras qalmış xaos və anarxiyanın aradan qaldırılması, müstəqil dövlətin qurulması, hərtərəfli iqtisadi və siyasi islahatların həyata keçirilməsi, nizami ordu quruculuğu, dövlətin iqtisadi qüdrətinin artırılması məqsədi güdən əsrin neft müqaviləsinin imzalanması mahiyyət etibarilə ölkəmizin erməni təcavüzü nəticəsində pozulmuş ərazi bütövlüyünün təmin edilməsi üçün imkanların yaradılması istiqamətində atılan addımlar idi.

Etiraf edilməlidir ki, Azərbaycan xalqını tariximizin şanlı səhifələrini təşkil edən qələbələrə aparan yolun digər əzəmətli mərhələsi 2003-cü ildən başlayır. Ölkəmizin vətəndaşları növbəti prezident seçkilərində İlham Əliyevə səs verməklə dövlətimizin taleyi ilə yanaşı, Qarabağın azadlığı uğrunda mübarizənin gələcəyini də ona etibar etmiş oldular. Bu seçimin doğruluğu çox qısa vaxtda təsdiqini tapdı. Şübhə yoxdur ki, xalqın seçiminə Ümummilli Lider Heydər Əliyevin siyasi varisi haqqında söylədiyi fikirlərin xüsusi təsiri olmuşdu. İnsanlarımız onun "Mən İlham Əliyevə özüm qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır" sözlərində Qarabağın azad edilməsi vəsiyyətinin ifadə edildiyini duymaya bilməzdi. Ona görə də düşünürəm ki, 2003-cü ilin seçkilərinin uğurla başa çatması ilə həm də bizi çoxdan gözlədiyimiz zəfərə doğru aparan yolun yeni mərhələsinin əsası qoyulmuş oldu.

*Ardı 6-cı səh.*

# "Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"

## Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin 30 illik iztirabından danışdı: "Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "Anadolu" agentliyinə müsahibə verib. Müsahibə sentyabrın 27-də agentliyin saytında yayımlanıb. AZƏRTAC müsahibənin tam mətnini təqdim edir.**

***- Hörmətli Prezident, "Anadolu" agentliyinə müsahibə vermək barədə təklifimizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Önəmli bir tarixdəyik - Azərbaycan Zəfərinin, 30 ilə yaxın işğal altında olan torpaqların azad edilməsinə başlandığı 27 sentyabr tarixinin birinci ildönümündəyik. O günə qayıtsaq, o günün şərtlərini zehnimizdə yeniləsək, Azərbaycan nə üçün əks-hücuma keçdi?***

- Bilirsiniz, son müddət ərzində Ermənistanın bizə qarşı təxribatları müntəzəm xarakter almışdı. Həm bizə qarşı yönəlmiş açıqlamalar, eyni zamanda, addımlar onu göstərirdi ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Mən bunun səbəblərini bu günə qədər də anlaya bilmirəm. Çünki 30 il ərzində digər dövlətin torpaqlarını işğal altında saxlayan bir dövlət yeni savaşa çıxmaq fikrində olursa, bu, çox ciddi araşdırılmalıdır ki, bunun səbəbi nədir. Sözümün təsdiqi olan addımlar da göz qabağındadır. Çünki iyul ayında Ermənistan Azərbaycan-Ermənistan sərhədində hərbi təxribat törətmişdir və bu təxribat nəticəsində 13 mülki şəxs və hərbçi həlak olmuşdur. Azərbaycan o zaman düşmənə layiqli cavab verdi. Ancaq biz dövlət sərhədini keçmədik. Yəni, sadəcə olaraq, onları girdikləri Azərbaycan ərazisindən çıxardıq və bir neçə gün davam edən toqquşma sona çatdı. Ondan sonra avqust ayında bir təxribat qrupu göndərildi, təmas xəttini keçdilər və orada bizim hərbçilərimiz onları tərk-silah etdilər. Bir il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının sessiyasında çıxış edərkən mən demişdim ki, Ermənistan yeni savaşa hazırlaşır.

*Ardı 2-ci səh.*

# "Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır"

## Prezident İlham Əliyev "France-24" televiziya kanalına müsahibə verib

**Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***- Salam, "France-24" kanalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə eksklüziv müsahibəyə xoş gəlmisiniz. O, bizə Bakıdan qoşulur. Cənab Prezident, "France-24" kanalında bizim qonağımız olduğunuz üçün çox sağ olun.***

- Fransız auditoriyası ilə danışmaq üçün mənə bu fürsəti verdiyinizə görə təşəkkür edirəm.

***- Ölkənizin 44 gün ərzində qalib gəldiyi Azərbaycan və Ermənistan arasında olan müharibənin başlanmasından düz bir il ötür. Keçən həftə BMT-də müharibə bitəndən bəri ilk dəfə hər iki ölkənin - Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri görüşdü. Bu, hər iki tərəf arasında dialoqun yenidən başlaması və sülhə ümidin olacağı deməkdirmi?***

- Ümid etmək istərdim ki, bu, belədir. Çünki Azərbaycan artıq neçə dəfə açıq şəkildə Ermənistanla dialoqa başlamağa hazır olduğunu bildirib. Söhbət təkcə dialoqun başlanılmasından getmir, eyni zamanda Azərbaycan və Ermənistan arasında gələcək sülh razılaşmasının üzərində aparılacaq işdən də gedir. Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq. Hər iki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir. Ümid edirəm ki, bu, təkcə bir görüş yox, yeni bir prosesin başlanğıcı, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin və Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni bir miqyas verəcək proses olacaq.

*Ardı 4-cü səh.*

# Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,4 milyon (altı milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 sentyabr 2021-ci il*

# Zəfər yolunun başlanğıcı

**27 sentyabr 2020-ci il düşmən üzərində şanlı Qələbəmizin başlanğıcı günü kimi tarixə çevrilmişdir. Bəlkə də çoxları - erməni faşistlərinə havadarlıq edənlər, ilk növbədə, Ermənistanın hərbi-siyasi hakimiyyəti qələbənin belə tez bir müddətdə - 44 gün ərzində qazanılacağını təsəvvür etmirdilər.**

Torpaqlarımızı 30 il işğal altında saxlayan, şəhər və kəndlərimizi xarabazarlığa çevirən, minlərlə soydaşlarımızı qətlə yetirən, şikəst edən, bir milyondan artıq sakini öz ata-baba torpaqlarından didərgin salan və yeni torpaqlar işğal etmək istəyi olan erməni təcavüzkarları zənn edirdilər ki, bu döyüşlər də 2018-ci ilin aprelində olduğu kimi, bir neçə gün çəkəcək, himayədarlarının köməyi, xahişi nəticəsində yenə də dayandırılacaqdır.

*Bax: səh. 8*

# Haqqın Zəfər yürüşü



**"...Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

Ötən ilin 27 sentyabrında Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev cəbhədə yaranmış vəziyyətlə bağlı xalqa ilk müraciətini məhz bu ifadələrlə bitirmişdi...

Və Azərbaycanın haqq yoluna qalxdığı və qalib gəldiyi savaşın başlandığı günün üzərindən düz bir il keçdikdən sonra, 27 sentyabr 2021-ci ildə, şəhidlərimizin Anım günündə Prezident İlham Əliyev xalqa müraciətini də məhz Qələbəmizin ayrılmaz hissəsi olan bu sözlərlə tamamladı: "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

### Hərb tariximizin parlaq 27 sentyabr səhifəsi

Bəli, ötən ilin 27 sentyabr günü Azərbaycanın 30 illik Qarabağ dağını üzərindən götürmək üçün haqq yolunda səfərə çıxdığı, haqq uğrunda ayağa qalxdığı gün kimi tarix salnaməmizə silinməz izlərlə həkk olundu.

O gün Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması, səbrimizi daşıran son damla oldu və müharibəni qaçılmaz etdi.

Hələ buna qədərki dövrdə də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdı. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdu. Həmin vaxt Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək sarsıdıcı zərbələrlə öz yerlərinə otuzdurmuşdu. Amma görünür, o zaman Ermənistan bu acı məğlubiyyətini düzgün dəyərləndirməmişdi ki, sentyabrın 27-də bir daha sərhədlərimizə təcavüz etmək qərarına gəlmişdi.

Lakin daha Ermənistanın illər ərzində nümayiş etdirdiyi işğalçılıq siyasətinə dözüm yox idi və həmin andan etibarən Azərbaycan Silahlı Qüvvələri Vətən uğrunda ölüm-dirim savaşına qalxdı.

*Ardı 10-cu səh.*



# “Budur Azərbaycan! Budur Azərbaycan xalqı!”

## Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin 30 illik iztirabından danışdı: “Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular”

Əvvəli 1-ci səh.

Üç gün sonra artıq yenidən bizim mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə tutulmuşdu, yenə də şəhidlər verdik və mənim əmrimlə genişmiqyaslı əks-hücum əməliyyatına başladıq və bildiyiniz kimi, bu əməliyyat böyük Zəfərlə nəticələndi.

Bir il əvvələ qayıdarkən, əlbəttə, bütün bu prosesləri, bütün bu hadisələri daha da dəqiq təhlil etmək imkanımız olur və görünür ki, Ermənistan rəhbərliyi, hakimiyyətə yeni gəlmiş rəhbərlik hansısa hərbi uğurla da öyünmək istəyirdi, hansısa hərbi uğur əldə etmək istəyirdi. Ancaq hesablamaları çox səhv apardılar, çox böyük xəta törətdilər və bunun nəticəsində acı məğlubiyyətə uğradılar.

**- Cənab Prezident, bu savaşın qarşısını almaq olmazdımı? Çox uzun müddət fəaliyyət göstərən Minsk qrupu həmsədrlərinin görüşləri vardı. Minsk qrupunun həmsədrləri və ya başqa amillər bu savaşın qarşısını ala bilərdilərmi? Əslində, qarşısını necə almalı idilər?**

- Təbii, qarşısını ala bilərdilər. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Əgər Minsk qrupu Ermənistana vaxtında ciddi təzyiq göstərsəydi, təbii ki, Ermənistan məcbur olub işğal edilmiş torpaqlardan çıxacaqdı və belə olan halda müharibəyə ehtiyac qalmazdı. Ancaq onlar bu təzyiqi etmədilər. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən üç dövlət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür. Yəni onlar dünya miqyasında ən güclü ölkələr sayılır. Məgər, onların siyasi çəkisi, siyasi imkanları olmayıb ki, Ermənistana bu ciddi mesajları göndərsinlər? Sadəcə olaraq, nə hərb, nə sülh siyasətinə üstünlük verirdilər.

Digər tərəfdən, mən Minsk qrupunun həmsədrlərinə və digər böyük dövlətlərə dəfələrlə müraciət etdim ki, Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bu da savaşın qarşısını ala bilərdi. Çünki bu sanksiyalar Ermənistan üçün böyük çətinliklər yaşadacaqdı və onlar məcbur olub bizim torpağımızdan çıxacaqdılar. Yəni biz bütün imkanlardan istifadə etdik ki, bunu sülh yolu ilə çözək, müharibə olmasın, qan tökülməsin. Ancaq bununla bərabər, mən deyirdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Nəyin bahasına olursa-olsun öz torpağımızı azad edəcəyik və sadəcə olaraq, şans verirdik.

Bilirsiniz, Ermənistanın 2018-ci ildə hakimiyyətə gəlmiş yeni rəhbərliyi bu danışıqlar, yəni, müzakirə prosesinə də çox böyük zərbə vurdu. Çünki onların yersiz və çox məsuliyyətsiz açıqlamaları faktiki olaraq müzakirə prosesini iflic etdi, yəni, danışıqlar iflic vəziyyətinə düşmüşdü. Belə olan halda, Minsk qrupu daha müsbət, daha da cəsarətli addımlar atmalı idi. Onlar isə sadəcə olaraq, müşahidə edirdilər, sadəcə olaraq, buna müşahidəçi kimi yanaşırdılar. Ona görə, İkinci Qarabağ müharibəsinin başlanmasında, əlbəttə ki, ən böyük məsuliyyət Ermənistanın üzərinə düşür, eyni zamanda, Ermənistanı vaxtında dayandırmayan böyük dövlətlərin üzərinə düşür.

**- Həmsədrlərin ölkələri uzun müddət status-kvonu davam etdirmək strategiyasını yürütdü. Ancaq Zəfərdən sonra Minsk qrupunun, həmsədrlərin yenidən prosesə daxil olması, vasitəçilik diplomatiyası yürütməsi gündəmdədir, belə tələblər var. Bununla əlaqədar nə düşünürsünüz? Bu, gələcəkdə bir həll yolu ola bilərmi, bunun bir faydası olacaqmı?**

- Bilirsiniz, Minsk qrupuna sədrlik edən ölkələr, onların prezidentləri işğal dövründə bir neçə dəfə çox müsbət açıqlamalar verdilər, təqribən 7-8 il bundan öncə. Onlardan biri də o idi və açıq bəyan edilmişdi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu çox müsbət qəbul etdik. Şəxsən mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim və demişdim ki, bu, uzun illər ərzində gözlənilən bir açıqlamadır. Status-kvonun dəyişdirilməsi nə deməkdir - işğala son qoyulması. Ancaq bu açıqlamalardan sonra onlar praktiki addımlara keçmədilər. Ondan da əlavə, bir müddət sonra onlar bu ifadədən də geri çəkildilər və həmsədrlər tərəfindən yeni bir ifadə ortalığa atıldı - status-kvo dayanıqlı deyil. Yəni bunların arasında çox böyük fərq var. Biri var ki, qəbuledilməzdir, bir də var ki, dayanıqlı deyil. Mən o zaman da onları tənqid etmişdim və demişdim ki, bu mövqe dəyişikliyi Ermənistanın işğalçılıq siyasətinin dəyirmanına su tökür. Ancaq təəssüf ki, ondan sonrakı dövr də onu göstərdi ki, Minsk qrupu, sadəcə olaraq, bu məsələni həll etmək fikrində deyildi. Biz 44 günlük müharibə zamanı bunu bir daha gördük. Çünki Birləşmiş Millətlər Təşkilatında bizə qarşı məsələni qaldıran Minsk qrupuna həmsədrlik edən bəzi ölkələr idi. Müharibə gedir, biz öz torpağımızda beynəlxalq hüququ bərpa edirik, ədalət savaşına çıxmışıq. Ancaq Birləşmiş Millətlər Təşkilatında bizə qarşı hansısa sanksiya məsələsini ortaya atmaq tamamilə ədalətsizlikdir.

İndiki dövrə gəldikdə, Minsk qrupunun fəaliyyətini biz demək olar ki, görmürük. Adətən onlar danışıqlar prosesi dövründə gəlirdilər, təkliflər verirdilər, prezidentlər səviyyəsində keçirilən görüşlərin gündəliyini təsbit edirdilər, bizə təkliflər edirdilər ki, hansı məsələlər müzakirə oluna bilər. Hər iki tərəf də razılaşma əsasında bu məsələləri müzakirə edirdi. İndi isə müharibənin bitməsindən bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, onlardan hər hansı bir təklif yoxdur. Bir dəfə Azərbaycana gəlmişdilər və mən onlara dedim ki, siz təklif verin. Biz bu məsələni həll etdik, Dağlıq Qarabağ münaqişəsi başa çatdı, “Dağlıq Qarabağ” adlı inzibati ərazi, yəni, qurum mövcud deyil. Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının sessiyasında çıxışımda da mən bütün ölkələrə müraciət etdim və dedim, rica edirəm ki, bundan sonra “Dağlıq Qarabağ” ifadəsi işlədilməsin, Azərbaycan ərazisində belə bir qurum yoxdur. Qarabağ zonası var, Şərqi Zəngəzur var. Belə olan halda Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni məsələlər ortalığa çıxmalıdır. Yeni məsələ - Dağlıq Qarabağ münaqişəsi bitdi. Nə ola bilər? Mənim fikrimcə, yəni, etimad tədbirləri, ondan sonra yolların açılması, dəhlizlərin açılması, sülh prosesinə dəstək vermək, Ermənistan-Azərbaycan əlaqələrini tənzimləmək, çalışmaq ki, Ermənistan-Azərbaycan arasında bizim təklif etdiyimiz sülh müqaviləsi imzalansın. Yəni, məncə, onların fəaliyyət dairəsi bu gündən sonra bundan ibarət olmalıdır. Yoxsa “Dağlıq Qarabağ” - olmayan qurumun statusu ola bilərmi? Əlbəttə ki, yox. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə “Dağlıq Qarabağ”a status vermək istəyirsə, öz ölkəsində bir ərazi versin, orada bir qurum yaratsın, ya cümhuriyyət yaratsın, onların müstəqilliyini tanısın, biz də tanıyaq. Amma Azərbaycan ərazisində yox!

**- Cənab Prezident, sözlərinizdən anladığıma görə Minsk qrupu da hazırkı - 44 günlük müharibədən sonrakı reallığı, bölgədə yaranan reallığı qəbul etməlidir və bununla bağlı addımlar atmalıdır, yeni təkliflər verməlidir. Bunlarımı ifadə edirsiniz?**

- Əslində, bilirsiniz, bir daha demək istəyirəm, İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupundan bu günə qədər bizə hər hansı bir təklif verilmədi. Təklif olmadığı təqdirdə Minsk qrupunun fəaliyyəti haqqında danışmaq yersizdir. Yəni bir il artıq keçir. Nə təklif edirsən? Deyirsən ki, bu münaqişə həll edilməlidir. Mən Azərbaycan olaraq deyirəm ki, bunu həll etmişəm, təkbaşına, bütün təzyiqlərə rəğmən. Ona görə bu təklif olmalıdır. Nə ilə məşğul olmalıdır? Mən öz fikirlərimi ifadə etdim. Qalan şeylər isə onların məsuliyyətidir.

**- Yeni yaranan bu reallıqdan sonra Azərbaycan, Ermənistan, Rusiya arasında bir protokol imzalandı. Orada bəzi maddələr var, xatırladığıma görə 9 maddə idi. Siz bu maddələrin həyata keçirilməsindən məmnunsunuzmu? Ötən bir il ərzində kifayət qədər həyata keçirildimi? Həmin maddələrdən nələr əskikdir?**

- Bütövlükdə məmnunam. Çünki orada olan əsas məsələlər öz həllini tapdı. Bildiyiniz kimi, Ermənistan bu Bəyanata imza atmaqla öz üzərinə öhdəliklər götürmüşdür və bu öhdəlikləri məcbur olub yerinə yetirdi. Bu öhdəliklərin yerinə yetirilməsi müharibədən dərhal sonra baş vermişdir. Yəni, o zaman işğal altında olan bölgələrdən erməni qüvvələrinin çıxarılması orada açıq-aydın göstərilirdi və müharibə bitəndən sonra 20 gün ərzində Ağdam, Kəlbəcər və Laçın rayonları bizə qaytarıldı. O zaman Ermənistan bu məsələyə çox məsuliyyətli yanaşırdı. Nə üçün? Çünki qorxu içində idi. Çünki bilirdi ki, əgər 10 noyabr tarixində bu Bəyanata imza atmasaydı, onların durumu daha pis ola bilərdi. Yəni bizi dayandıracaq bir qüvvə yox idi və savaş dönəmində dəfələrlə mən Azərbaycan xalqına müraciət edərək deyirdim ki, Ermənistan bizə tarix versin, təqvim versin nə zaman bizim torpaqlarımızdan çıxır, biz dərhal müharibəni dayandırmağa hazırıq.

Bu tarix bizə noyabrın 9-da verildi, Ermənistan faktiki olaraq kapitulyasiya, yəni, təslim aktını imzaladı və noyabrın 10-da müharibə dayandı. Ona görə o önəmli məsələlərin həlli Ermənistanın qorxu içində olmasından qaynaqlanır. Amma ondan sonra nə oldu? Sülhməramlı qüvvələr gəldi, bir müddət keçdi və qalan məsələlərin icra edilməsi dayandı. Orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri bizim torpağımızdan tam çıxarılmalıdır. Müharibə başa çatandan təxminən 15-20 gün sonra Ermənistandan sülhməramlı qüvvələrin məsuliyyətində olan ərazidən - Laçın dəhlizindən azad edilmiş torpaqlara 62 nəfərdən ibarət bir təxribat qrupu göndərildi. Bu, 10 noyabr Bəyanatına tam ziddir. Azərbaycan Ordusu onları zərərsizləşdirdi və onlar həbs olundular. İndi onlara hərbi əsir deyirlər. Amma gedin baxın beynəlxalq konvensiyalara, hərbi əsir kim ola bilər. Bunlar hərbi əsir deyil. Müharibə bitdi, noyabrın 10-da Bəyanat imzalandı. Ondan sonra göndərilən hər hansı bir hərbçi təxribat qrupunun üzvü kimi təsbit edilməlidir. Yəni, bu məsələ öz həllini tapmadı. Bu, çox önəmli məsələdir və biz israr edirik ki, bu, öz həllini tapsın, tam həllini tapsın. Ola bilər ki, qismən həllini tapıbdır.

Digər məsələ dəhlizlərin açılmasıdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatda göstərilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantı olmalıdır. Bu bağlantı təmin edildimi? Xeyr. Amma bu bağlantını təmin etmək üçün o qədər də böyük zamana ehtiyac yoxdur. Orada quru yollarla məsafə cəmi 40 kilometrdir. Biz müharibədən sonra keçən bir il ərzində min kilometrdən çox yol çəkdik - həm torpaq yol, həm asfalt yol. İndi orada 40 kilometr yolun açılması böyük problem deyil. Ancaq buna baxmayaraq, - hətta Ermənistan buna razılıq da verib, - aparılan müzakirələr nəticəsiz qalıb. Yəni Ermənistan 10 noyabr Bəyanatını, onun şərtlərini kobudcasına pozur. Biz hələlik səbirli, təmkinli davranırıq. Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış Bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın.

**- Bu xüsusda bunu soruşmaq istəyirəm, cənab Prezident. Bu təxribat qruplarının rahat hərəkət etməsi və Laçın dəhlizinə nəzarət olunması. Həmin bölgələrdə xidmət aparan rus müvəqqəti hərbçiləri var, əsgərləri var. Beş il ərzində orada xidmət etməli olan rus silahlı qüvvələri var. Bu məsələdəki şikayətlərinizi Moskvaya bildirdikdə necə bir cavab alırsınız? Sizə verilən cavabların bölgədə təsiri olurmu, yəni oradakı birliklərin davranışları dəyişirmi?**

- Əlbəttə, biz bütün bu hallarla bağlı Rusiyaya öz haqlı iradlarımızı bildiririk. Ancaq təxribat qrupunun oraya daxil olması o vaxt olub ki, Rusiya sülhməramlı qüvvələri hələ tam yerləşməmişdi. Çünki noyabrın 10-da müharibə başa çatdı, ondan sonra bir müddət lazım idi ki, Rusiya sülhməramlı qüvvələr - iki minə yaxın əsgər oraya yerləşsin və orada boşluqlar çox idi. Yəni burada biz ədalətli olmalıyıq. Onlar o yeri tam mühafizə edə bilməmişdilər və ermənilər də bundan istifadə edib bizim azad edilmiş ərazilərə daxil oldular. Ancaq ümumilikdə, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti müsbət qiymətləndirilə bilər. Əlbəttə ki, bizim narazılığımız da var, iradlarımız da var - ilk növbədə, xarici vətəndaşların ərazimizə qanunsuz olaraq gəlməsi ilə bağlı. Biz dəfələrlə bu məsələni qaldırmışıq. Çünki Qarabağ bizim ərazimizdir və bizim icazəmiz olmadan o bölgələrə heç bir xarici vətəndaş, yaxud da ki, avtomobil daxil ola bilməz, bizdən icazə alınmalıdır. Ancaq deyə bilərəm ki, bu, hələ tam yüz faiz həll olunmayıb. Halbuki onu da deməliyəm ki, xarici vətəndaşların Qarabağa qanunsuz gəlməsi halları çox az saydadır. Onu da bildirməliyəm ki, bizim siyasətimiz və təkidimiz nəticəsində artıq bu prosesə də son qoyulur. Ancaq biz, əlbəttə, istərdik ki, suverenliyimizə, ərazi bütövlüyümüzə tam miqyasda, tam həcmdə sayğı göstərilsin. Zatən, Rusiyanın rəsmi nümayəndələri, yüksəkvəzifəli nümayəndələr deyirlər ki, Qarabağ Azərbaycan torpağıdır və belə olan halda, yerlərdə, orada xidmət göstərən hərbçilər də bu bəyanatlara uyğun şəkildə öz fəaliyyətini aparmalıdırlar.

**- Ötən günlərdə Ermənistan müdafiə naziri ilə Rusiya müdafiə nazirinin görüşü olmuşdu. O görüşdən sonra Ermənistanın silahlandırılması prosesi yenidən başladı deyə bir açıqlama verildi. Yəni bu, bölgəyə nə gətirə bilər? Bu açıqlama barədə Siz nə düşünürsünüz? Əslində, yox olan bir Ermənistan ordusu var idi, 44 gündə Azərbaycan Ordusu onu darmadağın etdi. İndi yenidən rus silahları ilə ayağa qalxmağa çalışacaq. Bu məsələ barədə fikirlərinizi bilmək istərdim, cənab Prezident.**

- Bu məsələdən xəbər tutanda biz dərhal Rusiya tərəfinə sorğu göndərdik və maraqlandıq ki, əcəba bu, nə məsələdir. Biz eyni fikirləri də bölüşürük. Ancaq bizə məlumat gəldi ki, Ermənistan mediasında çıxan bu açıqlama həqiqəti əks etdirmir. Yəni Rusiya müdafiə naziri belə sözlər deməmişdir. Bu, Ermənistan təbliğatının növbəti çirkin əməlidir, belə söz deyilməmişdir. Bizə rəsmi qaydada bildirildi ki, belə planlar yoxdur. Ermənistan ordusunun yenə də pulsuz silahlandırılması ilə bağlı Rusiya tərəfindən yetərincə dəqiq cavab aldıq və biz bu məsələni artıq gündəlikdən çıxartdıq. Bu, onu göstərir ki, Ermənistan öz çirkin əməllərindən əl çəkmir. Bax ortalığa atılan bu yalan, birincisi, çox böyük yanlışlıqdır. Çünki əgər sən Rusiya müdafiə nazirinin demədiyi sözləri yayırsansa, bu, ən azı məsuliyyətsizlikdir və bu, təxribatdır. İkincisi, - bunu biz işğal dövründə və işğaldan sonra dəfələrlə görmüşük, - Ermənistan və Rusiyada fəaliyyət göstərən erməni lobbisi hər gün, müntəzəm olaraq çalışır ki, Rusiya-Azərbaycan münasibətlərində bir çat yaransın. Onların gündəlik peşəsi Azərbaycanı ləkələmək, Rusiya mediasında Azərbaycan haqqında mənfi imic yaratmaq, Rusiya-Azərbaycan münasibətlərinə kölgə salmaqdır. Hesab edirlər ki, belə olan halda, revanşist qüvvələr nə vaxtsa yenə də baş qaldırıb bizə qarşı yeni savaşa çıxa bilərlər. Amma onlar yanılırlar. Birincisi, Rusiya-Azərbaycan münasibətləri kifayət qədər yüksəksəviyyəli münasibətlərdir. Biz bütün məsələləri açıq şəkildə müzakirə edirik - prezidentlər səviyyəsində, müdafiə və xarici işlər nazirləri səviyyəsində. Hansısa tərəfi narahat edən istənilən məsələ ilə bağlı biz dərhal təmasda oluruq və məsələləri həll edirik. Deyə bilərəm ki, bu gün Rusiya-Azərbaycan münasibətlərində hansısa təcili məsələni həll etməklə bağlı bir mövzu da yoxdur. Çünki bu münasibətlər kifayət qədər müsbətdir. Ermənistanın bu təbliğat cəhdləri onlara uğur gətirməyəcək. Ermənistanın yenidən silahlanması ilə bağlı bizim narahatlığımız Rusiya tərəfindən anlayışla qəbul olunur.

**- Zaman-zaman Ermənistan silahlı qüvvələri və siyasətçilər tərəfindən müxtəlif fikirlər, bəyanatlar səsləndirilir. Müdafiə Nazirliyi belə açıqlamalar verərkən, baş nazir Paşinyan Türkiyə ilə görüşmək istədiyinə dair ifadələr səsləndirir. Belə cümlələri var. Ötən həftələrdə bunu bir neçə dəfə təkrarladı. Paşinyanın bu sözlərini Siz necə dəyərləndirirsiniz? Üstəlik, bu düşüncə Türkiyə və Azərbaycan üçün yetərlidirmi? Yəni Ermənistanın görüşlərə başlaya bilməsi üçün etməli olduğu, yerinə yetirməli olduğu öhdəlikləri varmı?**

- Bilirsiniz, müharibədən öncə və müharibə zamanı Ermənistan rəhbərləri tərəfindən o qədər təzadlı, o qədər yanlış və yalan bəyanatlar olmuşdur ki, onların sayı-hesabı yoxdur. İndi belə misalları saatlarla gətirmək olar. Biz şəhərləri, kəndləri azad edərkən onlar bildirirdilər ki, guya bizim şəhərlərimizi yenidən işğal edirlər. Artıq Azərbaycanın azad edilmiş şəhərlərində bayraqlar qaldırılarkən onlar bunu inkar edirdilər. Yəni “ağa qara, qaraya ağ demək” onların xislətidir. Ona görə onlar hər hansı bir açıqlama verəndə, sözün düzü, biz bunu ciddiyə almırıq. Bunu analiz etmək, dəqiqləşdirmək lazımdır. Çünki bu açıqlamalar bir yalanın, gerçəkləşməyən arzuların, xülyaların və təxribatların sintezidir. Bugünkü Ermənistan, bax, budur. Biz deyəndə ki, bu, uğursuz dövlətdir, - yəni bunun beynəlxalq adı da var - “Failed state”, - bunu nəzərdə tuturuq. Hər bir dövlətin dövlətçilik rəmzlərindən biri də məsuliyyətli davranışdır. Biz isə bunu görmürük.

O ki qaldı, Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına, əlbəttə, biz istəyirik ki, bütün bölgədə sülh olsun. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi 3+3 platforması hesab edirəm ki, bunun ən gözəl yolu ola bilər. Ancaq Ermənistan hələ ki, buna razılıq verməyib. İndi bu, Türkiyə Prezidenti tərəfindən səslənir, Ermənistana şans verilir. Azərbaycan bunu dəstəklədi, Rusiya dəstəklədi, İran dəstəklədi, ancaq Ermənistan bunun əleyhinə çıxır. Bunun əleyhinə çıxan Ermənistan indi bəyan edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyir. Əgər normallaşdırmaq istəyirsənsə, sən, ilk növbədə, bu təklifə müsbət cavab ver. Əks təqdirdə, burada yenə təzad yaranır, yəni, anlaşılmazlıq yaranır. Əgər nə vaxtsa Ermənistan tərəfindən səslənən rəsmi açıqlamalar gerçək siyasətlə uzlaşsa, o zaman, əlbəttə ki, təhlil etmək daha asan olacaq. Bir də siz də yaxşı bilirsiniz ki, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı torpaq iddiası var, ondan əl çəkməlidir. Öz konstitusiyasını yenidən işləyib qəbul etməlidir. Ermənistan kimi gücsüz və bu gün tamamilə darmadağın edilmiş ölkə Türkiyə kimi nəhəng ölkəyə qarşı necə torpaq iddiasında ola bilər? Bu, psixi xəstəliyə bənzəyən bir şeydir. Ona görə Türkiyəyə və Azərbaycana qarşı iddialardan əl çəkməlidirlər. Azərbaycanla olan münasibətləri normallaşdırmalıdırlar və mən əminəm ki, Türkiyə tərəfi hər zaman bölgədə sülhün və genişmiqyaslı əməkdaşlığın tərəfdarı olub. Bu gün də belədir və Türkiyədən çox müsbət siqnallar gəlir.

Amma Ermənistanda bunu gərək çox düzgün dəyərləndirsinlər. Təəssüf ki, İkinci Qarabağ müharibəsindən əvvəlki iki il ərzində Azərbaycan tərəfindən verilən müsbət siqnallar orada yanlış anlaşıldı - bir zəiflik kimi, bir gücsüzlük kimi. Biz, sadəcə olaraq, qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı. İndi də hələ gec deyil. Yeni yaranmış reallığı düzgün dərk etsin, bu reallığa görə addımlar atsın, xəritəyə baxıb öz yerini orada tapsın, əgər tapa bilərsə, bir nöqtədir xəritədə və buna uyğun addımlar atsın. Belə olan halda, əlbəttə ki, bölgədə genişmiqyaslı əməkdaşlıq mümkündür.

**- Burada insanın ağlına belə bir şey gəlir. Yəni bölgəsindəki ölkələrin tələblərinə, əlaqələrinə önəm verməyən bir Ermənistanın arxasında necə bir güc ola bilər? Ya da nəyi planlaşdırırlar ki, belə qərarları həyata keçirməyə çalışırlar, cənab Prezident?**

- Bunu mən deyə bilmərəm. Bunu yəqin ki, bu məsələ ilə məşğul olan politoloqlar, təhlilçilər deyə bilər. Amma öz təcrübəmə əsaslanaraq deyə bilərəm ki, onların bir çox addımları irrasional addımlardır, yəni, reallıqdan uzaq, hansısa mifologiyaya, xülyalara və gerçəkləşməmiş arzulara əsaslanmış bir yanaşmadır. Onu da siyasi aləmdə düzgün təhlil etmək çox çətindir. Bu, yəqin ki, tibb aləmində təhlil olunarsa, daha düzgün olar.

**- Aydındır. Bir az əvvəl regional əməkdaşlıqdan bəhs etdiniz. Prezident Ərdoğanla Sizin davamlı ifadə etdiyiniz altılı əməkdaşlıq platformasının yaradılmasından bəhs etdiniz. Bu platformada İranın da adı keçir. Ancaq ötən günlərdə İrandan gələn yük avtomobillərinin Xankəndiyə getməsinə dair görüntülər ortaya çıxdı. Siz də bu mövzuda etirazınızı bildirdiniz. Bundan dərhal sonra İran sərhədində İran əsgərlərinin təlim görüntüləri paylaşıldı. Bu məsələ ilə bağlı bir dəyərləndirmənizi öyrənmək istərdim. Bu, ani bir şey idi, yoxsa planlı, müəyyən bir mesaj verən hərəkətlər idi?**

- Bilirsiniz, İran tırlarının qanunsuz olaraq Qarabağ bölgəsinə getməsi birinci dəfə baş vermir. Bu, işğal dövründə də dəfələrlə olan hadisələrdir. Bu tırlar müntəzəm olaraq oraya gedirdi. Bizim məlumatımız var idi. Ancaq dəqiq məlumat, yəni, indiki qədər dəqiq məlumat, əlbəttə ki, yox idi. Bunu nəzərə alaraq, biz müxtəlif kanallarla İran tərəfinə narazılığımızı ifadə edirdik. Ancaq bu proses davam edirdi.

Müharibə başa çatandan sonra artıq Laçın dəhlizi gözümüzün önündədir və bizim hərbi mövqelərimizdən Xankəndiyə gedən yola məsafə bəlkə də 5-6 metrdir. Biz Laçın dəhlizi boyunca və o cümlədən Şuşa ətrafında və digər yerlərdə kifayət qədər texniki imkanlara malikik. Kameralar var, peykdən istifadə edirik, dronlardan istifadə edirik. Biz yenə gördük ki, bu tırlar müharibədən sonra da oraya getməyə davam edir. Belə olan halda, mən bizim Prezident Administrasiyasının əməkdaşlarına göstəriş verdim ki, İranın Azərbaycandakı səfiri ilə danışsınlar. Biz bunu rəsmiyyətə salmaq istəmirik, dostcasına danışsınlar və söyləsinlər ki, buna son qoyulmalıdır. Bu, bizə qarşı hörmətsizlikdir. Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlikdir, buna son qoyulmalıdır. Bu söhbət səhv etmirəmsə, iyul ayında olmuşdur. Ondan sonra təbii ki, biz bunu izləməyə başladıq və hər ayın başında bizdə məlumat yığılır ki, nə qədər tır girdi, neçə tır çıxdı, nə gətirdi, nə apardı. Onların nömrələrinə qədər bizim bütün bilgilərimiz var və onlar mətbuatda dərc olunub. Amma nə etdilər ondan sonra? İran tırlarının üzərinə erməni nömrələrini yapışdırmağa çalışdılar. Belə bir saxtakarlığa yol verdilər və bizi aldatmağa çalışdılar. Olduqca səriştəsiz bir addım atıldı - o tırın üstündə fars dilində yazılan sistern, altda da erməni nömrələri. Onu da sizə bildirməliyəm ki, eyni nömrələri bir neçə avtomobilin üstünə də yapışdırdılar. Yəni o qədər səliqəsiz görülən bu iş nəyi göstərir? Onu göstərir ki, bu işi davam etdirmək, sadəcə olaraq, bunu pərdələmək istədilər. Təbii ki, belə olan halda, bir ay keçəndən sonra biz artıq rəsmi qaydada diplomatik nota verdik. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edildi, ona iradlar bildirildi və xahiş olundu ki, buna son qoyulsun. Bu, avqust ayının ortalarında olan məsələdir. Biz ümid edirdik ki, buna son qoyulacaq. Ancaq buna baxmayaraq, avqustun 11-dən sentyabrın 11-nə qədər yenə də İrandan gələn 60-a yaxın tır qanunsuz olaraq Qarabağa hərəkət etdi. Bunun qabağını almaq üçün biz artıq praktiki addımlara keçdik. Yəni bizim davranışımız, addımlarımız məsuliyyətlidir, dostluq əlaqələrinə əsaslanandır. Birinci dəfə şifahi xəbərdarlıq, ikinci dəfə rəsmi nota, üçüncü dəfə postlar - gömrük, sərhəd, polis. Beləliklə, biz Azərbaycan ərazisindən keçən yola artıq nəzarət etməyə başladıq və ondan sonra Qarabağa gedən tırların sayı sıfra endi. İndi baxın, buna gətirib çıxarmaq lazım idimi? İndi orada - rus sülhməramlı qüvvələrinin nəzarətində olan Qarabağ bölgəsində cəmi 25 min adam yaşayır. Yəni bu bazar o qədər önəmlidir? O ticarət o qədər önəmlidir ki, dost, qardaş saydığın ölkəyə qarşı belə nümayişkaranə hörmətsizlik edirsən? Əlbəttə, biz beynəlxalq konvensiyalarda, beynəlxalq hüquqda təsbit edilmiş bütün imkanlardan istifadə etdik. Bəziləri deyir ki, indi İran tırlarından rüsum götürülür. Biz xarici ölkəyə gedəndə rüsum ödəyirik? Ödəyirik. Onlar Azərbaycan ərazisindən istifadə edirlər, rüsum ödəməlidirlər?

**- Ödəməlidirlər.**

- Ödəməlidirlər. Bu, məsələnin bir tərəfi. O ki qaldı, bizim sərhədimizin yaxınlığında keçirilən hərbi təlimlərə, bu, çox təəccüb doğuran bir məsələdir. Çünki 30 illik müstəqillik dönəmində belə hadisələr olmamışdır. İlk növbədə, deməliyəm ki, hər bir ölkə öz ərazisində istənilən hərbi təlimi keçirə bilər. Bu, onun suveren hüququdur, söz ola bilməz.

Ardı 3-cü səh.

# “Budur Azərbaycan! Budur Azərbaycan xalqı!”

## Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin 30 illik iztirabından danışdı: “Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular”

Əvvəli 2-ci səh.

Ancaq eyni zamanda bunu bir zaman kəsiyində analiz edərkən görürük ki, bu, heç vaxt olmamışdır.

Nə üçün məhz indi? Nə üçün məhz bizim sərhədimizdə? Bu sualları mən yox, Azərbaycan ictimaiyyəti verir. Bu sualları dünya azərbaycanlıları verir. Bir sual da verilir ki, nə üçün işğal dövründə o bölgədə təlim keçirilmirdi? Ermənilərin Cəbrayılda, Zəngilanda, Füzulidə oturduğu dövrdə nə üçün təlim keçirilmirdi? Nə üçün bu, biz torpaqları azad edəndən sonra, 30 illik əsarətə, işğala son qoyandan sonra keçirilir? Bu suallar legitim suallardır.

Əlbəttə, biz istəyirik ki, bölgədə uzunmüddətli əməkdaşlığa zərbə vuran heç bir hal olmasın. Bir daha demək istəyirəm ki, Azərbaycan burada da özünü çox məsuliyyətlə aparır, təmkinlə aparır. Ümid edirik, bizim legitim addımlarımıza emosional reaksiya, yəqin ki, müvəqqəti xarakter daşıyır.

**- Çox önəmli sualları gündəmə gətirdiniz. Bizim də buna İran tərəfindən cavabların verilməsini gözləməkdən başqa çarəmiz qalmayacaq. Nəqliyyat problemlərindən danışarkən, bu məsələni bir az əvvəlki suala bağlamaq istəyirəm. Məsələn, Zəngəzur dəhlizi Ermənistanın normallaşma əlaqələrinə bağlanması üçün bir şərtdirmi?**

- Əlbəttə, bir şərtdir. Çünki o, noyabrın 10-da imzalanmış Bəyanatda təsbit edilir və Ermənistan öz üzərinə bu öhdəliyi götürüb. Birincisi, əgər o, bu öhdəliyi icra etməyəcəksə, onda hansı normallaşmadan söhbət gedir? İkincisi, Ermənistanda, - yenə də əvvəlki fikirlərimə, - postmüharibə dövrünü çox düzgün təhlil etməlidirlər. Artıq vəziyyət tam fərqlidir. İndiki durum güc nisbətini açıq-aydın göstərir. İşğal dövründə də bilirdik ki, bizim imkanımız nədir, Ermənistan ordusunun imkanı nədir. Biz bilirdik ki, balansı öz xeyrimizə çoxdan dəyişdirmişik. İndi bunu bütün dünya görür. Ona görə indiki şəraitdə mən hesab edirəm ki, Ermənistan Azərbaycanla münasibətləri normallaşdırmaq üçün daha çox səy göstərməlidir. Çünki onlar üçün bu, önəmlidir. Biz bunsuz da yaşaya bilərik, necə ki, yaşamışıq, indi də yaşayırıq. İndi daha yaxşı yaşayacağıq. Çünki o böyük əraziyə yenə də sahib olduq, öz doğma torpağımıza qayıtdıq. Onların durumu daha da pisləşdi. Ona görə daim münaqişədə olmaq, qonşularla əsassız, saxta tarix əsasında gələcək əlaqələri planlaşdırmaq çox yanlış bir addımdır. Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə əlaqələri normallaşdırsın, eyni zamanda, Azərbaycanla münasibətləri normallaşdırsın. Türkiyə və Azərbaycanla öz sərhədlərini müəyyən etsin, delimitasiya, demarkasiya aparılsın. Onlar buna çox maraqlıdır, nəinki biz. Çünki bu olmasa, deməli, sərhəd yoxdur. Bilirsiniz, indi Ermənistanda və bəzi xarici siyasətçilər bizi ittiham edirlər ki, biz Ermənistanı işğal etmişik. Birincisi, bu, yalandır. İkincisi, bəs Ermənistan bizim əraziləri işğal edəndə niyə səsinizi qaldırmırdınız? Niyə gözünüzü yumurdunuz? Otuzillik işğal dövründə bizim bütün tarixi, dini abidələrimiz yerlə bir edildi. Bütün binalar söküldü. Bunu görmürdünüz? Minsk qrupunun həmsədrləri dəfələrlə orada olublar, Ağdamda da olublar, Kəlbəcərdə də olublar, Füzulidə də, Cəbrayılda da, görmürdülərmi?

Otuzillik işğal dövründə, cəmi iki dəfə faktaraşdırıcı missiya göndərildi və məruzə hazırlandı. Ermənilərin bütün cinayətləri məruzədə göstərildi. Sonuncu belə bir missiya təqribən 10 il əvvəl həyata keçirilmişdi. Biz dəfələrlə Minsk qrupuna, onun həmsədrlərinə müraciət etdik ki, yenə də missiya göndərin. Çünki orada qanunsuz məskunlaşma gedir, Suriyadan, Livandan, başqa yerlərdən ermənilər gətirilir, məskunlaşdırılır. Bu, hərbi cinayətdir. Bütün beynəlxalq konvensiyalara görə bu, hərbi cinayət sayılır. Etmədilər onu. Ona görə bu işğalı 30 il ərzində görməyən, indi olmayan işğalı görən, əlbəttə ki, ya kordur, ya nankordur, ya da, sadəcə olaraq, riyakardır. Bu, daha düzgün ifadə ola bilər.

Biz isə öz dədə-baba torpağımıza qayıtmışıq. Biz 30 il orada olmamışıq. Əgər Ermənistan tərəfi deyirsə ki, sərhəd oradan keçir, nə üçün orada heç kim yox idi? Sərhəddirsə, gəl sərhədi qoru. Biz gəldik, o dağlara yerləşdik. Bizim xəritələrə görə biz öz ərazimizdə yerləşmişik. Əgər Ermənistan tərəfi fərqli fikirdədirsə, gəlsin, otursun, bizimlə bərabər bunu müzakirə edək, bir il çəkər, beş il çəkər, otuz il çəkər, kim bilir. Yenə də qayıdıram bu söhbətə. Sərhədlər məsələsində bu gün Ermənistan reallığı dərk etməlidir. O, tezliklə bizim şərtlərimizə əməl edib, onları qəbul edib, bu məsələni həll etməlidir ki, artıq hər kəs bilsin, onun sərhədi harada yerləşir.

**- Problemlər də ortadan qalxsın. Kiçik toqquşmalar da olmasın.**

- Təbii. Əlbəttə.

**- Bəs, bu problemlərin bir daha müzakirə edilməsi, qərarın qəbul olunması üçün Sizin, cənab Putinin, Paşinyanın yaxın zamanda görüşməsi gündəmdədirmi?**

- Biz üçtərəfli görüşü bir dəfə keçirdik. Bu ilin əvvəlində, yanvar ayında Moskvada üçtərəfli görüş keçirildi. O görüşdə daha çox postmüharibə dövrü ilə bağlı məsələlər müzakirə olundu. Çünki müharibədən cəmi 2 ay keçmişdi. Ondan sonra prezidentlər səviyyəsində üçtərəfli görüş olmamışdır. Ancaq bir işçi qrup yaradıldı, Baş nazir müavinləri səviyyəsində. O qrup da, ilk növbədə, Zəngəzur dəhlizinin açılması ilə bağlı işlər görürdü. Ancaq iyunun əvvəlindən Ermənistan bu qrupda öz iştirakını bitmiş hesab etdi. Dedi, bu, seçkilərlə əlaqədardır. Seçkilər orada iyun ayında keçirildi. Ondan sonra avqustun ortasında ilk dəfə yenə də bu qrup yığışdı və yəqin ki, gələn ay yenə də yığışacaq.

Hesab edirəm ki, bu, önəmli formatdır. Çünki hələ ki, nəticə olmasa da, hər halda bir təmas var. İndiki şəraitdə təmas lazım olan vasitədir ki, bu müzakirələr əsnasında bir çox məsələlər həll oluna bilər. Biz Azərbaycanda indi Zəngəzur dəhlizinin yaradılması ilə bağlı genişmiqyaslı işlərə başlamışıq. Zəngilana həm dəmir yolu çəkilir, həm də avtomobil yolu. İndi hava limanları tikilir. Ona görə hesab edirəm ki, biz öz ərazimizdə bütün işləri iki il ərzində görəcəyik. Çünki burada işin həcmi çox böyükdür. Ermənistan ərazisində dəmir yolunun və avtomobil yolunun uzunluğu 40 kilometrdir. Bu, bir ilə, il yarıma çəkilə bilər. Yəni biz bunu gözləyirik.

**- Layihələrdən bəhs etdiniz. Bir il ərzində, əslində, bir il başa çatmadan işğaldan azad edilən ərazilərdə çox böyük layihələr həyata keçirdiniz. Məsələn, Füzuli hava limanı bir il olmadan artıq təyyarələrin enib-qalxdığı bir layihə halına gəldi. Avtomobil yolları da həmçinin. Siz avtomobil yollarının Ermənistan sərhədinə qədər təməlini qoydunuz, o iş davam edir. Bu sahədə çox böyük layihələr reallaşdırırsınız. Həm bu layihələr, həm də o bölgədə yaşayan erməni vətəndaşlar var, onların, necə deyərlər, gələcəyi ilə bağlı nə deyə bilərsiniz? Onlar bu layihələrdən necə faydalanacaqlar? Onlarla bağlı fikirlərinizi almaq istəyirəm, cənab Prezident.**

- Siz tam haqlısınız. Biz müharibə bitər-bitməz vaxt itirmədən dərhal hərəkətə keçdik və bu, dövlətimizin gücünü göstərdi. Çünki bu işləri görmək üçün təkcə pul kifayət etməz. Çünki resurs olmalıdır, kadrlar olmalıdır, heyətlər olmalıdır, texniki imkanlar olmalıdır, səriştə olmalıdır. Biz bütün gücləri səfərbər etdik. Bu və digər məsələləri, məsələn, elektriklə bağlı olan məsələləri bu ilin sonuna qədər bitirəcəyik. Yəni bütün bölgə elektriklə tam təmin ediləcək. Bildiyiniz kimi, yolların inşası da davam edir və sair.

Təbii, biz bunu, ilk növbədə, öz vətəndaşlarımız üçün edirik ki, bu bölgəni yenidən quraq və keçmiş məcburi köçkünlər tezliklə oraya qayıda bilsinlər. Artıq birinci belə pilot kənd layihəsi yəqin ki, bu ilin sonuna, ya gələn ilin əvvəlinə Zəngilan rayonunda hazır olacaqdır. Eyni zamanda Ermənistan əhalisi də, Qarabağda yaşayan ermənilər də bunu görürlər. Çünki bizim televiziyalara baxırlar, bizim radioya qulaq asırlar və görürlər ki, burada nə kimi işlər görülür. Təsadüfi deyil ki, erməni xalqının nümayəndələri artıq bir neçə dəfə bizim Şuşadakı hərbi mövqelərimizə yaxınlaşıb rica etmişdilər ki, onları da bu işlərə cəlb edək. Çünki onlar orada işsiz-gücsüz qalıblar, işsizlik, səfalət və ümidsiz bir vəziyyətdədirlər. Biz buna müsbət baxırıq, ancaq gərək bunun hüquqi tərəfi tam yerinə otursun. Çünki mən demişəm, bir daha demək istəyirəm ki, biz orada yaşayan erməniləri öz vətəndaşlarımız sayırıq. Onlar Azərbaycan torpağında yaşayırlar, Qarabağ hər zaman Azərbaycan olub - istər sovet dönəmində, istər ondan əvvəlki dönəmdə, işğal dönəmində də Azərbaycan olub. Onları biz Azərbaycan vətəndaşları hesab edirik, sadəcə olaraq, onlar bunu qəbul etməlidirlər, onlar öz yaxalarını erməni təbliğatından qurtarmalıdırlar, onlar öz gələcəyini, öz uşaqlarının gələcəyini təmin etməlidirlər. Biz hazır olarıq ki, onları işlərə cəlb edək. Niyə də etməyək?

Biz strateji nöqteyi-nəzərdən gələcəyə barış prizmasından yanaşırıq. Çünki mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa. Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur. Qarabağda 25 min erməni yaşayır, onlar da bu işlərdə iştirak edə bilərlər - həm inşaat işlərində, həm də bərpa işlərində. Eyni zamanda gələcəkdə biz onların yaşadıqları yerlərdə, kəndlərdə onlar üçün şərait yaradarıq. İndi baxın, bizim Qarabağ və Şərqi Zəngəzurla bağlı planlarımız göz önündədir. Ağdam şəhərinin Baş planı təsdiq edildi. Yaxın gələcəkdə Cəbrayıl və Füzuli şəhərlərinin, bütövlükdə rayonların baş planları təsdiq ediləcək. Bu, bizim gücümüzü göstərir və biz ermənilərin indi Qarabağda yaşadıqları kəndlərdə də bunu edə bilərik.

Mən Zəfərdən sonra bölgələrə onlarla səfər etdim və orada bəzi kəndlərdə, ermənilərin yaşadıqları kəndlərdə gördüyüm mənzərə məni dəhşətə gətirdi. Yəni insana yaraşmayan bir vəziyyət. Bəzi kəndlərin evləri indi analiz edilir, evlərin 95 faizi yararsızdır, yəni, orada heç kimsə yaşaya bilməz, onlar sökülməlidir. Yəni 30 il belə rəzil durumda yaşayan bir toplum təbii ki, işıq üzü görmək istəyir və işıq yalnız Azərbaycandan gələcək. Anlamaq lazımdır ki, onlar üçün də bu, o qədər də asan məsələ deyil. Burada psixoloji durum da nəzərə alınmalıdır. Ancaq biz hər halda xoş niyyət göstəririk və ümid edirəm, onlar anlayacaq ki, xoşbəxt gələcəkləri, rifahla dolu gələcək ancaq Azərbaycan dövləti ilə bağlıdır.

**- Cənab Prezident, Türkiyə ilə Azərbaycan əlaqələrinə toxunmaq istəyirəm. Prezident Ərdoğan BMT-də Azərbaycanın haqlı mübarizəsini başa çatdırdığını ifadə etdi, hər platformada buna bənzər açıqlamalar verir. Prezident Ərdoğanın olmadığı yerlərdə Siz Türkiyənin haqlarını müdafiə edirsiniz. Yəni, əslində, tarixdə görünməyən bir dövr yaşayırıq. Soruşmaq istəyirəm ki, Türkiyə ilə Azərbaycanın münasibətlərinin gələcəyi ilə bağlı nə düşünürsünüz?**

- Deyə bilərəm ki, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan əvvəlki illərdə də yüksək platformalardan Azərbaycanın haqq işi haqqında çox geniş məlumatlar verirdi. Hər zaman bu məsələ onun xarici siyasət kursunda bir nömrəli məsələ olub. Bu dəfə artıq savaşdan, Zəfərdən sonra orada bu sözləri deməsi, əlbəttə, bizi çox sevindirir və bir daha onu göstərir ki, Rəcəb Tayyib Ərdoğan hər zaman Azərbaycanın yanındadır. Necə ki, savaşın ilk saatlarında o bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə əlavə güc verdi və mənəvi güc verdi.

Savaşa qədər də, - siz burada uzun illər yaşayan bir insan kimi bilirsiniz, - Türkiyə Azərbaycan üçün nə qədər doğma, nə qədər əziz ölkədir və Azərbaycan da Türkiyə üçün. Bu son illər ərzində biz çox böyük yol keçdik və demək olar ki, münasibətlərimizi ən yüksək zirvəyə qədər qaldırdıq. Mən, - yəqin siz də bunu xatırlayırsınız, - nə qədər demişdim ki, dünya miqyasında buna oxşar əməkdaşlıq, dostluq, qardaşlıq yoxdur. Onu da demişdim, bir çox ölkələr var ki, onların da tarixi birdir, etnik kökləri birdir, dili birdir. Ancaq onların arasında, görün, nə qədər ixtilaf var, nə qədər inamsızlıq var, nə qədər problem var.

Yəni etnik, dini, mədəni köklər hələ o demək deyil ki, bu ölkələr qardaş ölkələrdir. Belə hallar çoxdur, həm Yaxın Şərqdə, eyni zamanda, postsovet məkanında. Ona görə mən hesab edirəm ki, belə çox güclü bir tarixi, mədəni zəmin üzərində bu cür gözəl münasibətlər sarayını tikmək bizim xüsusi xidmətimizdir. Həm hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın, həm də mənim. Burada mən təvazökarlıqdan uzaq olmalıyam və bu, həqiqətdir. İkinci Qarabağ savaşı bunu bir daha göstərdi. Yəni Türkiyə bizim yanımızda olmaqla, bütün dünyaya mesaj göndərdi ki, qarışmayın, müdaxilə etməyin. Azərbaycan haqq yolundadır və əgər qarışsanız, əgər müdaxilə etsəniz, qarşınızda Türkiyəni görəcəksiniz. Bu, əlbəttə, çox böyük bir üstünlük idi.

İkinci Qarabağ savaşından sonra bizim münasibətlərimiz daha da yüksək pilləyə qalxdı. Bilmirəm, siz bilirsiniz, yoxsa yox, Türkiyədə bunu bir çoxları bilir ki, mən savaş bitəndən sonra hörmətli Prezidenti Şuşaya dəvət etdim. O vaxt demişdim ki, O, Şuşaya gəlməyənə qədər oraya heç bir başqa ölkədən heç kim gəlməyəcək. Hətta Türkiyədən gələnlər olmuşdu, oraya getmək istəyənlər olmuşdu. Mən onlara dedim ki, sağ olun, amma gözləyin, Qardaşım gəlsin getsin, ondan sonra yolunuz açıqdır. Şuşa Bəyannaməsinin imzalanması bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırdı. Faktiki olaraq biz Şuşa Bəyannaməsinin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir. Biz bu yolla gedəcəyik. Gündən-günə möhkəmlənən münasibətlər, artan birgə layihələr və bizim həmrəyliyimiz, qardaşlığımız hesab edirəm ki, bu gün bütün qonşu ölkələr üçün bir örnəkdir.

Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.

**- Hörmətli cənab Prezident, çox mühüm məsələlərlə bağlı önəmli açıqlamalar verdiniz. Çox təşəkkür edirik. Son bir sual, çox qısa dəyərləndirmənizi almaq istərdim. İşğaldan azad edilən bölgələrə tez-tez gedirsiniz, görüntülər paylaşılır, biz xəbərləri alırıq. Görüntüləri çəkən və paylaşan da Sizinlə birlikdə bölgədə olan hörmətli Mehriban xanım Əliyevadır. Biz görüntüləri onun vasitəsilə, onun paylaşımları ilə alırıq. Həm Azərbaycanda, həm də Türkiyədə Sizin oradakı dialoqlarınız, hərəkətləriniz çox böyük rəğbətlə qarşılanır. Bununla bağlı nə deyə bilərsiniz?**

- Bu, bilirsiniz, elə öz-özünə yarandı, təbii yarandı. Biz bunu planlaşdırmırdıq. Biz, sadəcə olaraq, ilk dəfə Şuşaya gedəndə Bakıdan səhər çıxmışdıq, çünki o zaman yol çox uzaq idi. Biz Füzulidən Şuşaya “Zəfər yolu” ilə təqribən 3 saata getmişdik, özü də yollar qarlı idi, buz bağlamışdı. Ona görə səhər erkən çıxmışdıq, hələ qaranlıq idi və hava işıqlandıqca çox gözəl mənzərə yarandı. Mehriban xanım onu öz telefonu ilə çəkməyə başladı və məni də çəkdi. Mən də dedim ki, yolumuz Şuşayadır və bundan başladı. Ondan əvvəl təbii ki, Ağdam və digər rayonlar da var idi. Bu, xüsusi bir təşəbbüsdür. Çünki adətən mənim səfərlərimi rəsmi heyət işıqlandırır. Adətən orada çox rəsmi görüşlər, çıxışlar, mərasimlər və sair olur. Bu isə yeni bir yanaşma idi və bilirəm ki, bir çoxlarının xoşuna gəldi. Bizim də xoşumuza gəldi. Bilirsiniz, bu sözləri deyərkən, ilk növbədə, mənim gözlərimin önünə o bölgələrdə yaşamış insanlar gəlirdi. Mən, ilk növbədə, onlar üçün bunu deyirdim. Çünki onlar 30 il həsrət içində idilər və mən gəlmişəm oraya, mən bu evi görürəm, bu binanı görürəm, onlar görmürlər. Onlar bizim gözlərimizlə onu görməlidirlər. Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı! Mən sizi də duyğulandırdım.

**- Təşəkkür edirəm, cənab Prezident.**

- Sağ olun.

**- Allah o günləri bir daha heç kimə yaşatmasın.**

- Amin, sağ olun.

**- Təşəkkür edirəm.**

# Daxili İşlər Nazirliyinin kollektivi Vətən müharibəsi şəhidlərinin xatirəsini ehtiramla yad edib

**Sentyabrın 28-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov, nazirliyin rəhbər vəzifəli digər əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları İkinci Fəxri xiyabanı ziyarət ediblər.**





Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

# Kəlbəcər və Qubadlı hərbi prokurorluqlarının inzibati binalarının açılışı olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında 2021-ci il 1 aprel tarixli sərəncamının icrası ilə əlaqədar Kəlbəcər və Qubadlı rayonlarında müvafiq hərbi prokurorluqların inzibati binalarının inşasına başlanılıb və qısa vaxtda başa çatdırılıb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 26-da və 27-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Respublika Baş Prokurorluğunun və Hərbi Prokurorluğun rəhbər əməkdaşlarından ibarət nümayəndə heyəti Kəlbəcər və Qubadlı rayonlarında səfərdə olub.

Səfər çərçivəsində nümayəndə heyəti Kəlbəcər və Qubadlı hərbi prokurorluqlarının yeni inzibati binalarının açılış mərasimində iştirak edib.

Açılış mərasimlərində çıxış edən baş prokuror Kamran Əliyev Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycanın bütün sahələrdə durmadan inkişaf etdiyini, günbəgün daha da qüdrətləndiyini bildirərək, bunun parlaq nümunəsi kimi 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə xalqın və dövlətin sarsılmaz birliyi nəticəsində rəşadətli ordumuzun torpaqlarımızı düşmən işğalından azad etdiyini vurğulayıb.

Azərbaycan Prezidentinin prokurorluq orqanlarının inkişafına daim diqqət göstərdiyi vurğulanaraq, yeni inzibati binaların istifadəyə verilməsinin də məhz bu qayğının bariz göstəricisi olduğu qeyd edilib.

Prokurorluğun əməkdaşları xidmətlərinin daha səmərəli və peşəkar təşkili üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Baş prokuror hər iki Hərbi Prokurorluğun, eləcə də Kəlbəcər və Qubadlı rayon prokurorluqlarının əməkdaşları ilə görüşüb, onlara fəaliyyətləri ilə bağlı tapşırıq və tövsiyələrini verib. Daha sonra inzibati binaların həyətində ağaclar əkilib və digər abadlıq işləri görülüb.

Respublikanın hərbi prokuroru Xanlar Vəliyev də hərbi prokurorluqlarda yaradılmış iş şəraiti ilə tanış olaraq əməkdaşlarla görüşüb, fəaliyyətlərində uğurlar arzu edib. Səfər çərçivəsində baş prokurorun rəhbərliyi ilə nümayəndə heyəti Kəlbəcər rayonunda yerləşən N saylı hərbi hissədə, eləcə də Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin N saylı hərbi hissəsində xidmətdə olan hərbçilərlə görüşüb, onların xidmət və məişət şəraiti ilə maraqlanıb.

Daha sonra xidmətdə fərqlənən hərbi qulluqçulara baş prokuror tərəfindən qiymətli hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Bundan başqa, heyət səyyar hospitalda müalicə alan hərbçilərlə görüşərək, onların müalicə vəziyyəti ilə maraqlanıb.

# Baş Prokurorluğun nümayəndə heyəti Horadizdəki “Qəhrəmanlar parkı”nda şəhidlərimizin xatirəsini yad edib

Xəbər verdiyimiz kimi, baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti sentyabrın 26-da və 27-də Kəlbəcər və Qubadlı hərbi prokurorluqlarının yeni inzibati binalarının açılış mərasimində iştirak edib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 27-də - Anım Günündə nümayəndə heyəti Füzuli rayonunun Horadiz şəhərindəki “Qəhrəmanlar parkı”nda şəhidlərin xatirəsinə yaradılmış abidəni ziyarət edib. Ziyarət zamanı şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

# Prokurorluq əməkdaşları uşaq evlərini ziyarət ediblər

Sentyabrın 28-də prokurorluq əməkdaşları Azərbaycan Prokurorluğunun yaranmasının 103 illiyi, habelə 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Bakı şəhəri ərazisində yerləşən müxtəlif uşaq evlərini ziyarət ediblər.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ziyarət çərçivəsində prokurorluq əməkdaşları xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum uşaqların problemləri ilə maraqlanıb, onlara hədiyyələr təqdim ediblər.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Əvvəli 1-ci səh.



# "Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır"

## Prezident İlham Əliyev "France-24" televiziya kanalına müsahibə verib

**- Düzdür, dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmısınızmı?**

- Keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub. Bu, yanvar ayında Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada təşkil olunan üçtərəfli görüş zamanı olub. Görüşün məqsədi müharibədən sonra hadisələrin gedişatını planlaşdırmaq idi. Bizim bir-birimizi görmək üçün başqa imkanımız olmayıb. Yəqin ki, bu, pandemiya ilə və ya başqa səbəblərlə əlaqədar olub. Lakin Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib. Əksinə, hesab edirik ki, bu təmaslar hər iki tərəfdə ola bilən sualları cavablandıra bilər və regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq.

**- Siz bunları söyləmək üçün baş nazir Paşinyana zəng etməyə hazırsınızmı?**

- Ola bilsin ki, sizin dediyiniz kimi yox. Adətən iki ölkə rəhbəri arasında təmaslar ATƏT-in Minsk qrupu çərçivəsində təşkil olunurdu. Onlar gündəliyi təklif edirdi, onlar görüşləri təşkil edirdi. Mənim prezidentlik təcrübəmdə heç vaxt Ermənistanın hər hansı bir rəhbəri ilə telefon danışığım olmayıb. Yəqin ki, bu yanaşma bunu etmək üçün doğru yol deyil. Lakin Minsk qrupunun həmsədrləri belə bir görüş təklifi ilə çıxış etsələr, əlbəttə, biz buna qarşı çıxmarıq.

**- Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, - mən Sizdən sitat gətirirəm: "Əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik". Bu, sülh mesajı kimi səslənmir, elə deyilmi?**

- Bilirsiniz, bu, Ermənistandakı vəziyyəti əks etdirən bir fikirdir. Regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm və yəqin siz internetə baxsanız onları tapa bilərsiniz. Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir. Yeri gəlmişkən, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib. Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər. Lakin mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu siyasi istablişmentin bəzi dairələrində revanşizm tendensiyasıdır. Söhbət təkcə müxalifətdən getmir, iqtidardan da gedir. İntiqam almaq üçün ictimai bəyanatlardan və daha önəmlisi praktiki addımlardan, Ermənistanı militarizasiya etmək cəhdlərindən, bir məqsəd xatirinə edilən, müharibəyə yenidən başlamaq üçün yeni müasir avadanlıqlara çıxış əldə etmək cəhdlərindən gedir. Buna görə mənim sözlərim kobud görünə bilər, lakin bu sözlərin əsas məqsədi Ermənistan rəhbərliyi və Ermənistan siyasi istablişmentini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi. Onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi. Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır.

**- Burada bir məsələ var. Siz hesab edirsinizmi ki, bütün əraziləri geri qaytarmısınız? Əvvəllər Sizin bəyanatlarınız olub ki, Ermənistanın paytaxtı İrəvan qədim Azərbaycan torpağıdır. Bəli, Siz ötən il torpaqları geri qaytardınız, ancaq yenə də müəyyən suallar var. Ermənistanın özünün hesab etdiyi ərazilərlə bağlı hər hansı iddianız varmı?**

- Xeyr. Mənim bəyanatlarımda siz heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl. Tarixi torpaqlarımız haqqında danışarkən mən ərazi iddialarından bəhs etmirdim. Siz mənim heç bir çıxışımda buna rast gələ bilməzsiniz. Bununla yanaşı, hər bir ölkə kimi, biz də tariximizi bilməli, gənc nəsil qədim tariximizi bilməli, keçmişdə hansı ərazilərdə yaşadığımızdan xəbərdar olmalı və oralara necə qayıtmalı olduğunu bilməlidir. Əminəm ki, biz oralara qayıdacağıq. Mən artıq bunu demişdim ki, biz ora tanklarla deyil, piyada, avtomaşın və təyyarələrlə gedəcəyik. Vəziyyət normallaşandan sonra sülh müqaviləsinə nail olunacaqsa, niyə də biz geri qayıtmayaq? Bu, bizim legitim hüququmuzdur. Lakin sualınıza cavab verərkən tamaşaçılarınızın diqqətini bir məsələyə cəlb etmək istəyirəm ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var. Onlar hələ də iddia edirlər ki, "Dağlıq Qarabağ" bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, "müstəqil" bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik.

**- Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib.**

- Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər. Niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır? Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunmaması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. "Dağlıq Qarabağ" dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir. Bu o deməkdir ki, onu həll etmək üçün düşmənçilik xarakterli digər hərəkətlərə ehtiyac var. Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır.

**- Yəni onlara muxtariyyət verilməyəcək. Bu, artıq müzakirə mövzusu deyil?**

- Tamamilə doğrudur, bu, artıq müzakirə mövzusu deyil.

**- Sualım Fransanın mövqeyi ilə bağlıdır. Fransa Sizin bəzi hərəkətlərinizi tənqid etdi və bu yaxınlarda Ermənistanla sərhəddən geri çəkilməyə çağırdı. Siz Fransanı dürüst vasitəçi hesab edirsiniz?**

- Bilirsiniz, müstəqilliyimizin bütün illərində biz ikitərəfli əlaqələrimizdə Fransa ilə bu mövzuda və bir çox digər məsələlərdə fəal çalışırdıq. Fransa hər zaman Azərbaycanda dost ölkə hesab olunub. Biz bir çox iqtisadiyyat, ticarət və infrastruktur layihələrini həyata keçirmişik. Münasibətlər uğurla inkişaf edirdi və biz ümid edirik ki, Minsk qrupunun həmsədri və dürüst vasitəçi kimi Fransa bu vəzifəyə sadiq olacaq. Fransa Minsk qrupunun həmsədri olmasaydı, əlbəttə, onun istənilən ölkə ilə münasibət qurması öz işi olardı. Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərimiz var. Ancaq səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Fransa tərəf seçdi - Ermənistanın tərəfini. Özünün hərəkət və bəyanatlarında Azərbaycanı açıq şəkildə ittiham etdi və qərəzli yanaşma nümayiş etdirdi. Təbii ki, bu məsələ narahatlıq doğurdu. Biz bu narahatlığı ifadə etdik, çünki bir daha qeyd etmək istəyirəm ki, istənilən ölkənin seçimləri, dostları və qeyri-dostları ola bilər. Bu, onların öz işidir və burada biz heç nə deyə bilmərik. Lakin bir ölkə vasitəçi olması ilə bağlı ATƏT-in mandatına sahibdirsə, bu halda ölkə bitərəf olmalıdır. Müharibə zamanı və ondan dərhal sonra baş verənlərə qayıtmaq istəmirəm, biz Parisdən gələcək münasibətlərimizlə bağlı müsbət siqnallar aldıq və onlara müsbət cavab verdik. Müxtəlif səviyyələrdə, o cümlədən bu yaxınlarda iki ölkənin xarici işlər nazirləri arasında təmaslar olmuşdur. Azərbaycan hər zaman əməkdaşlığa açıq olub. Fransa dünyada aparıcı dövlətlərdən biridir və biz normal münasibətlərin olmasını istəyirik. Hesab edirəm ki, müharibənin başlanmasından bir ilin keçməsinə baxmayaraq, regionda nəyə nail olmaq istədiyimizə gəldikdə çox realist yanaşmanın tətbiq edilməsi vaxtı yetişib. Əminəm ki, Fransa regionda sülhü, sabitliyi, təhlükəsizliyi arzulayır. Biz də bunu istəyirik. Ümid olunur ki, Ermənistan da istəyir. Biz bunun üzərində işləməliyik, buna diqqətlə yanaşmalıyıq və bir il əvvəl baş verənlərə qayıtmalı deyilik. Bizə gəldikdə, bu çox xoşagəlməz hadisələrdən sui-istifadə etməyəcəyik. Biz səhifəni çevirmək istəyirik.

**- Müsahibənin sonuna yaxınlaşırıq. Cənab Prezident, Sizə əlavə iki sualım da var. Hərbi əsirlərə gəldikdə "Human Rights Watch" Azərbaycanı onları saxlamaqda, onlara işgəncə verilməsində ittiham edir. Buna cavabınız necə olardı? Xoşməramlı jest kimi Ermənistanla onları mübadilə etməyə hazırsınızmı?**

- Biz, əlbəttə, bu ittihamları rədd edirik. Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Ermənistan hökuməti bunu təsdiq edə bilər. Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq. QHT-lərin istinad etdiyi həmin şəxslərə gəldikdə onlar müharibə başa çatdıqdan və noyabr bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib.

**- Ermənistan isə iddia edir ki, siz hələ də hərbi əsirləri saxlayırsınız və həqiqəti söyləmirsiniz.**

- Xeyr. Həmin saxlanılmış şəxslər sinifləşdirməyə, bütün beynəlxalq konvensiyalara uyğun olaraq, hərbi əsir hesab edilə bilməz. Hərbi əsirlər müharibə zamanı əsirliyə düşmüş insanlar hesab edilir. Noyabrın 10-da müharibə dayandırıldı. Dekabrın əvvəlində biz azad etdiyimiz ərazidə erməni təxribat dəstəsinin 62 üzvünü aşkar etdik. Onlar əraziyə noyabrın 26-da göndərilmişdi. Yəni müharibə bitdikdən 16 gün sonra. Onlar hərbi əsir hesab edilə bilməz və biz onların çoxunu xoşməramlı jest kimi artıq qaytarmışıq. Lakin burada qalıb cəzasını çəkən şəxslər cinayət törədib və onlar ədalət mühakiməsi qarşısında cavab verməli idilər və bu, belə də oldu.

**- Cənab Prezident, sonuncu sual: "Sərhədsiz reportyorlar" təşkilatı Sizə müraciət edərək, Azərbaycan blogeri Məhəmməd Mirzəliyə qarşı hədələrə və zorakılığa son qoymağa çağırıb. O, Fransada qaçqın kimi yaşayır. Mart ayında burada ona şiddətli hücum edilib, bıçaq xəsarəti alıb. Sualım belədir: "Sərhədsiz reportyorlar" təşkilatının rəyinə görə, Siz həmin şəxsləri susdurmaq məqsədilə xaricə adamlar göndərirsiniz.**

- Əvvəlcə deyim ki, biz "Sərhədsiz reportyorlar" kimi QHT təşkilatı ilə uzun illər əvvəl hər hansı ünsiyyəti dayandırmışıq. Bu, bəlkə də 15 il əvvəl baş verib və bu, onların Azərbaycanla bağlı çox qərəzli və ədalətsiz mövqeyi ilə əlaqədardır. Bu səbəbdən onların hesabatı mənim üçün və Azərbaycan xalqı üçün heç bir əhəmiyyət daşımır. Avropada, o cümlədən Fransada yüzlərlə insan yaşayır və Azərbaycanda gördüyümüz işlər onların xoşlarına gəlmir. Onlar Fransada, başqa ölkələrdə yaşayırlar və heç kəs onlara toxunmur. Əgər sizin ölkədə yaşayan insanla bağlı hadisə baş verirsə, bunun araşdırılması məhz sizin ölkənizin hüquq mühafizə orqanlarının işidir. Azərbaycanı bu məsələdə günahlandırmaq QHT-nin işi deyil. Sizin istintaqçıların bıçaqla xəsarət yetirmə halı ilə bağlı kifayət qədər sübutları varmı?

**- Siz həmin şəxslə hər hansı əlaqənin olduğunu rədd edirsiniz?**

- Tamamilə belədir. Yüz faiz rədd edirəm. Hər hansı sübut, araşdırma olmadan və kimin hansı cinayəti törətdiyini müəyyən etmədən bütün ittihamlar tamamilə əsassızdır və qərəzlidir.

**- Prezident İlham Əliyev, "France-24" kanalına müsahibə verdiyinizə və kanalımızı seyr etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.**

- Dəvətinizə görə minnətdaram. Sağ olun.

# Müdafiə naziri Rusiya sülhməramlılarının yeni komandanı ilə görüşüb

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin yeni komandanı, general-leytenant Gennadi Anaşkin ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə olunub.

Görüşdə general-leytenant Rüstəm Muradov da iştirak edib.

# Müdafiə Nazirliyi Ermənistan mətbuatında yer alan əsassız iddialara münasibət bildirib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan mətbuatında yer alan əsassız iddialara münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 28-də Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin bölmələri istiqamətində atəş açılması və nəticədə qarşı tərəfin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan mətbuatının yaydığı məlumat həqiqətə uyğun deyil.

# Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi Qrupun növbəti iclası olub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan (PHS) təmizləmə üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, Xarici İşlər, Müdafiə, İqtisadiyyat, Fövqəladə Hallar nazirliklərinin, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Dövlət Sərhəd Xidmətinin nümayəndələri iştirak ediblər.

Azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursatların təmizlənməsi fəaliyyətinin icra olunması işlərinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu İşçi Qrupda işğaldan azad edilmiş ərazilərdə təmizləmə fəaliyyətinə dair hesabatlar dinlənilib. Həmçinin hesabatlarda əksini tapmış məsələlər müzakirə olunub. İşğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən icra edilən humanitar minatəmizləmə fəaliyyətinin gedişi barədə məlumat verilib. Qeyd olunub ki, 2020-ci il noyabrın 10-dan bu günədək 5430 hektar ərazi təmizlənib, 24 min 925 mina və PHS aşkarlanıb. Carı il ərzində isə 4854 hektar ərazi təmizlənib, 14 min 884 mina və PHS aşkarlanaraq zərərsizləşdirilib.

Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən, cari il sentyabrın 1-dən 23-dək nazirliyin mühəndis bölmələri tərəfindən Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd və Qubadlı rayonlarında 1119 hektar ərazi təmizlənib, 91 PHS aşkar edilib. Cəbrayıl, Zəngilan və Füzuli rayonları üzrə çoxillik əkin sahələrinin təmizlənməsi başa çatıb, Qubadlı rayonunda isə 71 hektar ərazinin təmizlənməsi yekunlaşmaq üzrədir. Bu sahələrdən 1628,626 hektar ərazi təmizlənib. Təmizlənməli ərazi isə 427 hektardır. Ümumilikdə 12 min 14 hektar ərazi mina və partlayıcı sursatlardan təmizlənib.

Müdafiə Nazirliyinə verilmiş yeni layihə olan Ağdam rayonunun Xaçınarx-1 və Xaçınarx-2 kanalı, eləcə də subartezian quyularının təmizlənməsi əməliyyatlarına sentyabrın 27-dən başlanılıb.

İşğaldan azad edilmiş ərazilərdə Fövqəladə Hallar Nazirliyi tərəfindən icra olunan əməliyyatlar barədə sentyabrın 13-də məlumatların təqdim olunduğu bildirilib. Şəxsi heyətin müxtəlif ölkələrdə təlim keçməsi səbəbindən ANAMA tərəfindən onların uyğunlaşdırma təliminə cəlb edilməsi, eləcə də FHN-in 38 əməkdaşının agentlik tərəfindən təlimlərdən sonra akkreditasiyadan keçirilməsi bildirilib.

Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən, ümumilikdə 286 hektar ərazi təmizlənib, 2976 mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

İclasda Müdafiə Nazirliyi tərəfindən təmizlənmiş ərazilərin məlumatları və koordinatlarının ANAMA-nın İnformasiya şöbəsinə dolğun və uyğun şəkildə ötürülməsinə dair fikir mübadiləsi aparılıb. Həmçinin süni intellektdən istifadə edərək mina sahələrinin müəyyənləşdirilməsi mövzusu müzakirə olunub. Məlumat verilib ki, xarici şirkət tərəfindən təqdim olunmuş dronlar artıq test edilib, yersəthi və yeraltı həm plastik, həm də metal minaların aşkarlanmasında, minalı və şübhəli sahələrin müəyyənləşdirilməsində təsdiqini tapıb. Gün ərzində hava şəraitindən asılı olaraq 150-200 hektar ərazinin çəkilişi aparılır. Çəkilmiş ərazinin emalı isə 4-5 gündən sonra xəritə üzərində təyin edilir.

Müzakirələrdə əhalinin təmizlənmiş ərazilərə köçəcəyi dövrdə mina və partlayıcı sursatların təhlükəsinə dair yarana biləcək risklərin azaldılması məqsədilə görüləcək işlərə dair təkliflərin hazırlanması vurğulanıb. Bildirilib ki, ilk olaraq Zəngilana, infrastruktur layihələri başa çatdıqca isə digər rayonlara da vətəndaşların köç edilməsi başlayacaq. Bu isə öz növbəsində risklərin daha çox artmasına səbəb ola bilər. Baxmayaraq ki, maarifləndirmə fəaliyyəti həyata keçirilir, lakin köç prosesindən sonra təkcə bu fəaliyyətlə risklərin öhdəsindən gəlmək mümkün olmayacaq. Artıq qarşıda fərqli risklər və öhdəliklər durur. Bu mövzunun daha geniş müzakirəsi, müxtəlif şirkətlərdə çalışan insanların təhlükəsizliyinin təmin edilməsi, onları bu risklərdən qorumaq üçün görülə biləcək tədbirlər ətrafında fikir mübadiləsinin aparılması, eləcə də bu sahədə qurumların birgə kommunikasiya konsepsiyasının hazırlanması məqsədilə aidiyyəti qurumların nümayəndələrinin Zəngilana mümkün səfəri müzakirə olunub.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Milli Məclisin Sədri TÜRK PA-nın Şura iclasında çıxış edib






Qazaxıstan Respublikasında səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 28-də TÜRK PA Şurasının iclasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə açılış nitqi söyləyən TÜRK PA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarova qurumun 2019-cu ildə Bakıda keçirilən 9-cu plenar iclasında təşkilata sədrliyin Türkiyə parlamentindən Azərbaycan parlamentinə keçdiyini bildirib. Ötən dövrdə TÜRK PA-nın işinin səmərəli qurulması və gücləndirilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilib. Bu gün isə Qazaxıstan tərəfi TÜRK PA-ya sədrlik missiyasını öz üzərinə götürür.

Sədrliyi Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulinə təhvil verən Azərbaycan parlamentinin rəhbəri Sahibə Qafarova həmkarına uğurlar arzulayıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova TÜRK PA-nın Şura iclasında Azərbaycanın bu quruma sədrlik etdiyi dövrdə (dekabr 2019-sentyabr 2021) görülmüş işlərə dair məlumat verib.

Çıxışında ötən ilin payızında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsindən söz açan Sahibə Qafarova bildirib ki, nəticədə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü bərpa olunub, regionda tamamilə yeni geosiyasi mənzərə yaranıb.

İkinci Qarabağ müharibəsi dövründə TÜRK PA-nın göstərdiyi fəaliyyəti yüksək qiymətləndirən Azərbaycan parlamentinin rəhbəri cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə və Tərtər şəhərlərinə, Ermənistanın ballistik raketlər və kasetli mərmilərlə atəşə tutduğu digər yaşayış məskənlərimizə TÜRK PA Katibliyi əməkdaşlarının çoxsaylı səfərlər etməsini, gerçəkliyi əks etdirən məlumatların və foto materialların beynəlxalq təşkilatlara göndərilməsini qeyd edib. Bildirib ki, Ermənistan tərəfindən mülki şəxslərə qarşı törədilən terror aktları və hərbi cinayətlər TÜRK PA tərəfindən şiddətlə qınanılıb və müvafiq bəyanatlar verilib, assambleya münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi əsasında həllini dəstəklədiyini qətiyyətlə bəyan edib. Sonra TÜRK PA-dakı həmkarlarına hesabatı təqdim edən Sahibə Qafarova bildirib ki, ötən dövrdə COVID-19 pandemiyası səbəbindən bəzi tədbirlər təxirə salınsa da, əksər tədbirlər, o cümlədən komissiya iclasları onlayn formatda keçirilib. Dayanıqlı iqtisadi bərpanın formalaşdırılmasında regionlararası əməkdaşlığa həsr olunmuş videokonfransda pandemiyanın nəticələrinə qarşı birgə mübarizə aparılması, "Türk dünyasının dünəni, bu günü və gələcəyi" mövzusunda simpoziumda türk əməkdaşlıq təşkilatları çərçivəsində gələcək iş birliyinin perspektivləri müzakirə edilib, İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı böyük zəfərin türk dünyası üçün əhəmiyyətindən bəhs olunub. Şura üzvlərinə məlumat verilib ki, İstanbul sazişinə istinadən, qurumun komissiyalarında üzv ölkələrin qanunvericiliyinin yaxınlaşdırılması diqqətdə saxlanılıb. Bu günədək hazırlanan 6 model qanundan beşini Azərbaycan, birini isə Türkiyə parlamenti təqdim edib. Məruzəçi qurumdakı bütün parlamentləri bu prosesdə fəal iştirak etməyə çağırıb.

S.Qafarova diqqətə çatdırıb ki, Azərbaycan parlamenti TÜRK PA-nın institusional inkişafına da xüsusi diqqət ayırıb. Sədrliyimiz dövründə qurumun hüquqi bazasının cari vəziyyəti, hüquqi sənədlərinin təkmilləşdirilməsi yolları müzakirə edilib. Qadın Parlamentarilər Qrupu, Gənc Parlamentarilər Qrupu və Model qanun haqqında əsasnamələr hazırlanaraq komissiyalarda baxılıb, plenar iclasa təqdim olunub. Azərbaycan Milli Məclisinin TÜRK PA-ya sədrliyi dövründə beynəlxalq əməkdaşlıq əlaqələri xeyli genişlənib.

Azərbaycanın sədrliyi dövründə qurumun fəaliyyəti barədə Şurada ətraflı məlumat verən Sahibə Qafarova yaxın gələcəkdə TÜRK PA-nın genişlənəcəyinə, tam hüquqlu üzvlərin artacağına inamını ifadə edib.

Sonra Şuranın gündəliyində dayanan digər məsələlər, TÜRK PA-nın hüquqi sənəd layihələri, model qanun layihələri, seçkilər və referendumlar haqqında hesabatlar, təşkilati məsələlər, növbəti ildə təşkilatın fəaliyyəti, plenar iclasın gündəliyi və digər sənədlər təsdiq olunub.

Bununla da TÜRK PA-nın Şura iclası başa çatıb.

## *Sahibə QAFAROVA:* "Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın güclənməsi üçün tamamilə yeni perspektivlər açacaq"



**"Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın güclənməsi üçün tamamilə yeni perspektivlər açacaq".**

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 28-də TÜRK PA-nın Qazaxıstanın Türküstan şəhərində keçirilən 10-cu plenar iclasında çıxışı zamanı Zəngəzur dəhlizinin inşasının strateji əhəmiyyətindən danışarkən deyib.

S.Qafarova bildirib ki, ötən ilin sentyabr-noyabr aylarında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində xalqımızın qazandığı zəfər Azərbaycan torpaqlarının 30 ildən bəri davam edən işğalına son qoyaraq, regionda yeni geosiyasi reallıq yaradıb.

Onun sözlərinə görə, bu böyük qələbənin önəmli nəticələrindən biri də türkdilli ölkələr arasında birbaşa əlaqə yaradacaq Zəngəzur dəhlizinin inşası üçün tarixi imkanın yaranmasıdır. İndiyədək bölgədə uğurla həyata keçirilmiş transmilli enerji-nəqliyyat layihələri ilə birlikdə bu dəhliz türk dövlətləri arasında əməkdaşlığın güclənməsi üçün tamamilə yeni perspektivlər açacaq.

# TÜRK PA-ya üzv ölkələrin parlament sədrlərinin iştirakı ilə mətbuat konfransı keçirilib










Sentyabrın 28-də Qazaxıstanın Türküstan şəhərində keçirilmiş TÜRK PA-nın 10-cu plenar iclasının yekunlarına dair mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan parlamentinin sədri Sahibə Qafarova mətbuat konfransında çıxış edib. Təşkilat qarşısında dayanan vəzifələrin icrası baxımından 10-cu plenar iclasın əhəmiyyətini qeyd edən Milli Məclisin Sədri deyib ki, gündəlikdəki bütün məsələlər işgüzar şəraitdə geniş müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Tədbirin Türküstan şəhərində keçirilməsinin böyük önəm daşıdığını deyən S.Qafarova Qazaxıstanın birinci Prezidenti - elbaşı Nursultan Nazarbayevin ölkənin tərəqqisi üçün gördüyü işləri yüksək qiymətləndirib.

Sonda Türküstan Bəyannaməsinin qəbul edildiyini bildirən Sahibə Qafarova deyib ki, sənəddə türk dünyasına aid bir çox önəmli məsələlər, o cümlədən Azərbaycan ərazilərinin işğaldan azad olunması və onun ərazi bütövlüyünü bərpa etməsi kimi mühüm məsələ öz əksini tapıb. Sənəddə həmçinin 2021-ci il iyunun 15-də Azərbaycanla Türkiyə arasında imzalanmış çoxşaxəli əməkdaşlığın daha da genişlənməsinə və bölgədə dayanıqlı sabitliyin təmin edilməsinə yönəlmiş Şuşa Bəyannaməsi təqdirlə qeyd edilib, Zəngəzur dəhlizinin açılmasının türk dünyasının tranzit və ticarət potensialına böyük töhfə verəcəyi vurğulanıb.

Azərbaycan parlamentinin rəhbəri əminliyini bildirib ki, toplantıda qəbul edilən qərarlar türkdilli ölkələrin rifahına xidmət edəcək, dövlətlərarası münasibətləri daha da möhkəmləndirəcək.

Sahibə Qafarova təşkilatın fəaliyyətdə olan sədrinə və həmkarlarına uğurlar arzulayıb.

Sonra jurnalistləri maraqlandıran suallara aydınlıq gətirilib.

# *Milli Məclisin Sədri:* "Türkdilli xalqların birlik nümayiş etdirməsi və birgə hərəkət etməsi zamanın tələbidir"







Sentyabrın 28-də TÜRK PA-nın 10-cu plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasın əvvəlində TÜRK PA-nın fəaliyyətdə olan sədri, Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin açılış nitqi söyləyib.

O, TÜRK PA-nın fəaliyyəti haqqında fikirlərini bölüşəndən sonra sentyabrın 27-də Azərbaycanda Anım Gününün qeyd edildiyini bildirib, Vətən müharibəsində qazanılmış zəfər münasibətilə Azərbaycan xalqını, ölkə rəhbərliyini təbrik edib. Nurlan Niqmatulinin təklifi ilə tədbir iştirakçıları 44 günlük Vətən müharibəsində canlarından keçmiş Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iclasda çıxış edib.

Milli Məclisin Sədri Azərbaycanın 27 Sentyabr - Anım Gününün yad edilməsinə görə təşəkkürünü bildirib.

Türk xalqlarının parlamentlərarası əməkdaşlığının bu günü və perspektivləri barədə danışan Sahibə Qafarova qeyd edib ki, türk əməkdaşlıq təşkilatları arasında öz yeri olan TÜRK PA artıq 12 ildir uğurla fəaliyyət göstərir, ölkələrimiz arasında siyasi, ticarət-iqtisadi və mədəni-humanitar əlaqələrin inkişafında parlament diplomatiyasının zəngin potensialından istifadə edilməsinə yol açır. Müasir dünya siyasətində parlament diplomatiyasının rolunu yüksək qiymətləndirən Sahibə Qafarova bunu nümayəndəli orqanların spesifik siyasi mexanizmlərə malik olması ilə əlaqələndirib.

Qurumun hazırkı sessiyasının əlamətdar tarixlər ərəfəsində keçirildiyini deyən S.Qafarova Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın dövlət müstəqilliklərini 30 il əvvəl bərpa etdiklərini xatırladıb. Bu ölkələrin yerləşdikləri bölgələrdə həyata keçirilən ikitərəfli və çoxtərəfli iqtisadi layihələrdən, qarşılıqlı sərmayə qoyuluşlarından, vahid nəqliyyat-kommunikasiya sisteminin qurulmasından, energetika, maliyyə, kredit-bank infrastrukturunun yaradılmasından və s. söz açıb. Bildirib ki, regional əməkdaşlığın bu kimi nümunələri xalqlarımızın tərəqqisinə, türkdilli ölkələrin bir-birinə daha da yaxınlaşmasına xidmət edir.

Çıxışında 44 günlük Vətən müharibəsində xalqımızın qazandığı zəfəri xüsusi vurğulayan Milli Məclisin Sədri Sahibə Qafarova 30 ildən bəri işğal altında olan torpaqlarımızın ötən ilin sentyabr-noyabr aylarında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edildiyini, ölkəmizin ərazi bütövlüyünün təmin olunduğunu, regionda yeni geosiyasi reallığın formalaşdığını bildirib. Qeyd edib ki, bu böyük qələbənin önəmli nəticələrindən biri türkdilli ölkələr arasında birbaşa əlaqə yaradacaq Zəngəzur dəhlizinin inşası məsələsidir. Bu dəhliz türk dövlətləri arasında əməkdaşlığın güclənməsi üçün tamamilə yeni perspektivlər açacaq.

S.Qafarova bir məqama da diqqət yönəldib ki, TÜRK PA ölkəmizin beynəlxalq miqyasda tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsini və 1 milyondan çox azərbaycanlının ata-baba yurdlarından didərgin salınmasını daim diqqətdə saxlayıb, Azərbaycanın səsinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayıb. Təşkilat həmçinin Azərbaycanın haqlı mövqeyini dəstəkləyən və torpaqlarımızın işğalını pisləyən sənədlər qəbul edib.

Plenar iclasda bütün bunlara görə qardaş Türkiyə Cümhuriyyətinə və digər türkdilli dövlətlərə, TÜRK PA-ya Azərbaycan parlamentinin minnətdarlığını çatdıran Sahibə Qafarova hazırda işğaldan azad edilmiş Azərbaycan torpaqlarında genişmiqyaslı abadlıq-quruculuq işlərinin getdiyi barədə də həmkarlarına məlumat verib. Erməni vandallarının işğal altındakı əraziləri viran qoyduğunu, şəhər və kəndlərimizi, tarixi-mədəni abidələrimizi dağıtdığını, milli sərvətlərimizi talan etdiyini diqqətə çatdırıb.

Müasir dövrdə dünya iqtisadiyyatında və siyasətində türkdilli dövlətlərin rolunun sürətlə artdığını qeyd edən Sahibə Qafarova qarşıya çıxan yeni çağırışlara və problemlərə toxunaraq vurğulayıb ki, türkdilli xalqların birlik nümayiş etdirməsi və birgə hərəkət etməsi zamanın tələbidir.

İclasda çıxış edən Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop və beynəlxalq təşkilatların nümayəndələri Vətən müharibəsində qazandığı qələbə münasibətilə Azərbaycan nümayəndə heyətini və xalqımızı təbrik edib, ölkəmizin uğurlarına sevindiklərini diqqətə çatdırıblar. Çıxış edənlər TÜRK PA-nın fəaliyyətini və bu çərçivədə görülən işləri yüksək qiymətləndiriblər.

Sonra iclasda bir sıra qanun layihələrinə baxılıb, təşkilati məsələlər müzakirə olunub.

TÜRK PA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri, Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov, qurumun Sosial, mədəni və humanitar məsələlər komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Cəfərov təmsil etdikləri komissiyaların hesabat məruzələri ilə çıxış ediblər. İclasda model qanun layihələrinin müzakirəsi zamanı Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Kinematoqrafiya və audiovizual əsərlərin çəkilişinə xarici investisiyaların cəlb edilməsi haqqında" qanun layihəsini təqdim edib. Azərbaycan tərəfinin hazırladığı bu model qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Tədbirə qatılan Türk Şurasının, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Parlament Birliyinin, MDB PA Şurasının, QDİƏT PA-nın, Beynəlxalq Türk Akademiyasının və digər beynəlxalq təşkilatların nümayəndələri müzakirələrdə iştirak ediblər.

Plenar iclasın sonunda Türküstan Bəyannaməsi qəbul olunub.

# Səməd Seyidov Avropada insan haqları üzrə məruzəçi təyin edilib

Son bir ildə Azərbaycanda gedən proseslər və reallıqlar Avropanın ölkəmizə etibar və etimadını daha da artırıb.

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq əlaqələr və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov AŞ PA-nın payız sessiyası çərçivəsində Avropa mühafizəkarlar və demokratik alyans qrupunun tövsiyəsi ilə Avropa Şurasının Siyasi məsələlər üzrə komitəsi tərəfindən "Avropada ultrasağçı ideologiyanın demokratiyaya çağırışları və insan haqları" mövzusu üzrə məruzəçi təyin edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndəsinin belə bir həssas mövzu üzrə məruzəçi təyin edilməsi ölkəmizə olan etibar və etimaddan qaynaqlanır. Son vaxtlar Avropa insan haqları ilə bağlı çoxsaylı problemlərlə üzləşib. Bu baxımdan "qoca qitə"də insan haqları üzrə araşdırma aparılmasına böyük ehtiyac yaranıb.

Azərbaycan nümayəndəsinin yekdil razılıqla belə bir mövzu üzrə məruzəçi təyin edilməsi ölkəmizdə gedən proseslərə, regionda yaranmış reallıqlara verilən yüksək qiymətin nəticəsidir.

"Avropada insan haqları üzrə problemlər çoxdur, onların araşdırılması və gündəmə gətirilməsi vacibdir. Azərbaycan uzun illər insan haqları ilə bağlı ayrı-seçkiliyə məruz qalıb. İnsan haqları ilə bağlı ayrı-seçkilik qəbuledilməzdir. Əminəm ki, ədalətli və obyektiv məruzə hazırlayacağam", - deyə Səməd Seyidov qeyd edib.

# *Səməd SEYİDOV:* "Ermənistanın bir seçimi var - Azərbaycanla sülh bəyanatı imzalamaq, ölkələrimizin ərazi bütövlüyünü qarşılıqlı tanımaq"

"Ermənistandakı seçkilər təkcə bu ölkə üçün deyil, qonşu ölkələr üçün də mühüm hadisədir. Qonşu ölkələrdən birində baş verən hadisə digərində də əks-səda doğurur. Düz bir il əvvəl Ermənistan tərəfinin provokasiyaları nəticəsində əks-hücum əməliyyatına başladıq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Şurası Parlament Assambleyasının payız sessiyasının ilk iş günündə "Ermənistanda erkən parlament seçkilərinin müşahidəsi" ilə bağlı müzakirələr zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

S.Seyidov bildirib: "Həqiqətən də çox maraqlıdır ki, erməni xalqı müharibədə ölkəni kapitulyasiyaya aparan, məğlubiyyətə düçar etmiş bir şəxsə səs verdi. Müharibədə ölkəni məğlubiyyətə aparmasına baxmayaraq, N.Paşinyanın partiyası xalqın səsini aldı. Minlərlə erməni əsgəri həlak oldu, ölkə fəlakətlə üzləşdi. Belə bir vəziyyət başqa ölkədə görünübmü? Xeyr. Amma bunun səbəbi var və bu səbəbi erməni xalqı arasında tapa bilərsiniz. Xalq Sarkisyan, Köçəryan və Ohanyan cinayətkar rejiminin əleyhinə səs verdi.

Üç il əvvəl N.Paşinyanın münaqişənin sülh yolu ilə həlli şansı olmasına baxmayaraq, o, bundan istifadə edə bilmədi və tarixi səhvə yol verdi. Sarkisyanın, Köçəryanın və Ohanyan rejiminin yolunu tutdu. Onun bu səhvi Ermənistanı bugünkü acınacaqlı vəziyyətə yuvarladı. Tarix ermənilərə ikinci şansı verdi. Ancaq nə görürük? Yenə hakimiyyətə gələnlər revanşizm ideyalarına yer verirlər, yenidən müharibədən danışırlar. Üç il əvvəl olan ideyaları yenidən gündəmə gətirirlər. Buna görə erməni həmkarlarıma müraciət edirəm: "Belə davranışı dayandırın. Belə davranışınızın ciddi nəticələrini gördünüz, ölkəni uçuruma apardınız. Bu gün bir seçiminiz var - Azərbaycanla sülh bəyanatı imzalamaq, ölkələrimizin ərazi bütövlüyünü qarşılıqlı tanımaq".







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

*Əvvəli 1-ci səh.*



# Böyük siyasətin möhtəşəm zəfəri

İlham Əliyevin elə ilk addımları o zaman üçün kifayət qədər cəsarətli görünən 600 min yeni iş yerinin yaradılması, 1990-cı illərin acı hadisələrinin yadigarları olan bütün çadır şəhərciklərinin ləğv edilməsi kimi seçki proqramı ölkəyə böyük dəyişikliklər vəd edən yeni liderin gəlməsindən xəbər verirdi. Həyat göstərdi ki, verilən vədlər seçici rəğbətini qazanmaq naminə deyil, ölkənin həyatında sözün həqiqi mənasında yeni mərhələnin başlanması kimi möhtəşəm proqramı həyata keçirmək niyyətlərindən irəli gəlir. Cəmiyyət İlham Əliyevin simasında özünün yeni liderini görür, ona böyük etimadla yanaşırdı. Digər tərəfdən, xalq onun nümunəsində Azərbaycanda Heydər Əliyevin vəsiyyətlərinin etibarlı təminatını tapdığını aydın şəkildə dərk edirdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti müşayiət edən diqqətəlayiq uğurların iki fundamental amilə əsaslandığı iddia edilə bilər. Bunun birincisi onun Heydər Əliyev ideyalarına sədaqəti, bu ideyaların həyata keçirilməsinin etibarlı təminatçısı olması ilə əlaqədardır. Heydər Əliyevin ideyalarına və həmin ideyalara əsaslanan siyasətə dərin inam həmişə ölkəmizdə qərarlaşmış ictimai məfkurənin ayrılmaz tərkib hissəsi sayılıb və bu baxımdan Azərbaycan cəmiyyətinə təqdim edilən yeni konsepsiyanın Ümummilli Liderin ideyalarına sədaqət ruhunda formalaşması sonuncunun uğur amillərindən biri kimi qəbul edilir. İlham Əliyevin Heydər Əliyev siyasətinə həm sadiq olacağını bəyan etməsi, həm də əməli surətdə bunu sübuta yetirməsi onun siyasi kursuna, şəxsiyyətinə hörmət və etimadın formalaşmasında vacib məqam olaraq qiymətləndirilməlidir.

İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurlar qazanmasının digər fundamental əsasının onun yeni tipli, müasir təfəkkürlü siyasətçi olması ilə şərtləndiyi ayrıca qeyd edilməlidir. Ümummilli Liderin titanik səyləri nəticəsində qurulan müstəqil Azərbaycan dövlətinin 2000-ci illərin əvvəllərindən etibarən yeni iqtisadi, sosial, siyasi keyfiyyət halına keçməsi, başqa sözlə ifadə edilsə, yeni transformasiyası aktual problem kimi öz mövcudluğunu getdikcə daha qətiyyətlə ifadə edirdi. Azərbaycan XXI əsrin dövləti olmağa hazırlaşırdı və bu tarixi şansı dəyərləndirərək həyata keçirməli olan yeni lider artıq seçilmişdi. İlham Əliyev Heydər Əliyev ideyalarını yeni dövrün çağırışları və imkanlarına maksimum dərəcədə uyğunlaşdıraraq Ümummilli Liderin qurduğu müstəqil Azərbaycanı XXI əsrin ən uğurlu gənc dövlətlərindən birinə, bəlkə birincisinə çevirməyə müvəffəq oldu. Bu isə artıq xalqın daha ciddi qələbələrə hazır olması demək idi. XXI əsrin ən uğurlu dövlətlərindən birinə çevrilmiş Azərbaycan, onun xalqı və gənc lideri məğlub dövlət statusu ilə heç bir halda razılaşa bilməzdi. Qarabağın azadlığına nail olmadan Azərbaycan bütün digər sahələrdə qazandığı möhtəşəm nailiyyətləri uğurlu siyasətin şəksiz təntənəsinə çevirə bilməzdi. Qarabağ azad edilməli idi ki, Ulu Öndərin vəsiyyətləri tam yerinə yetirilmiş olsun. Yeni lider və onun ölkəsi hədəflərini aydın müəyyən etmiş, şərəfli yolda növbəti əzəmətli və inamlı addımlarını atmağa başlamışdı.

## Zəfərin iqtisadi əsasları

Prezident İlham Əliyevin Qarabağın azadlığına aparan yolda uğurlu addımları hər şeydən əvvəl dövlətin qüdrətinin artırılmasını, onun iqtisadiyyatının gücləndirilməsini nəzərdə tuturdu. Heydər Əliyevin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" şüarının ardıcıl surətdə reallığa çevrilməsi Ümummili Liderin vəsiyyətlərinin həyata keçirilməsi zərurətinin aktuallaşdırdığı çağırış idi. Ulu Öndərin uzaqgörənliyinin nəticəsi olan neft strategiyasının ilk bəhrələrini verməyə başlaması ölkənin həyatında möhtəşəm dəyişikliklərə start verilməsinə əlverişli imkanlar yaratmışdı. Məmnunluq hissi ilə qeyd edilə bilər ki, Prezident İlham Əliyev mövcud imkanları lazımınca dəyərləndirərək Azərbaycanın yeni güc potensialının yaradılması kimi tarixi missiyanı müvəffəqiyyətlə gerçəkləşdirməyə nail oldu. Ölkə hazırlaşdığı böyük sıçrayışı həyata keçirdi, iqtisadi inkişaf templərinə görə dünyada ilk pilləyə yüksəldi. Qısa bir vaxtda Azərbaycanın iqtisadi landşaftı ciddi şəkildə dəyişdi, bu isə öz növbəsində həm ölkə daxilində iqtisadi fəallığın artırılmasını şərtləndirdi, həm də güclü cazibədarlığı sayəsində milyardlarla xarici sərmayənin ölkə iqtisadiyyatına axmasını təmin etdi.

Neft strategiyasının sayəsində ölkəmizə daxil olan böyük maliyyə resurslarının məqsədəuyğun şəkildə idarə edilməsi və ölkə üçün ən faydalı şəkildə istifadəsi iqtisadi və maliyyə idarəetməsi sahəsində dünya miqyasında mühüm yeniliklərdən hesab oluna bilər. 2007-2008-ci illərin dünyanı bürüyən dərin maliyyə böhranının Azərbaycandan demək olar ki, yan ötməsini səsləndirən fikrin əyani təsdiqi hesab etmək olar. Beləliklə, gənc Azərbaycan dövləti dünyaya iqtisadi nəzəriyyə və praktikada böyük maraq yaradan yeni inkişaf modelini təqdim etdi. Sözügedən modelin ən uğurlu təqdimatını isə ölkənin sürətli və hərtərəfli inkişafının nümunəsində nəinki Azərbaycan vətəndaşları, habelə beynəlxalq ekspertlər və maliyyə sahəsində idarəetmə nəhəngləri müşahidə edə bilirdilər.

İqtisadi və maliyyə sahəsində uğurlu idarəetmə bütün digər sahələrin inkişafına və tamamilə yenidən qurulmasına stimul verdi və lazım olan imkanları təmin etdi. Cəmi bir neçə il lazım oldu ki, Azərbaycan beynəlxalq icma tərəfindən dünyanın ən uğurlu gənc dövləti, çiçəklənən ölkə adlandırılmağa layiq görülsün. Hər birimiz Vətənimizin beynəlxalq nüfuzunun, dövlətimizin siyasi hörmətinin və beynəlxalq iştirakçılığının sürətlə atrmasını böyük məmnunluqla və qürur hissi ilə izləyirdik.

Qısa tarixi zaman kəsiyində Azərbaycanın simasının bütünlüklə dəyişməsi həyata keçirilən uğurlu iqtisadi siyasətin və maliyyə idarəetməsinin diqqəti çəkən nəticəsi kimi ayrıca qeyd edilməlidir. Azərbaycan təkcə iqtisadi imkanları ilə deyil, həm də yeni siması, müasirliyi, dünya şəhərsalma praktikasına töhfələri ilə cazibədar olmuşdu. Bu isə öz növbəsində ölkənin qarşısında yeni imkanlar açırdı. Təsadüfi deyildir ki, gənc Azərbaycan dövləti qlobal əhəmiyyət kəsb edən bir sıra təşəbbüs və layihələrin mərkəzinə çevrildi. Regionun iqtisadi landşaftını köklü surətdə yeniləşdirən neft-qaz ixrac layihələri, beynəlxalq kommunikasiya layihələri və s. ölkəmizin qlobal iqtisadi təşəbbüslərinin kiçik bir hissəsidir.

Beləliklə, SSRİ-nin süqutundan sonra müstəqiliyini bərpa edən, ötən əsrin 90-cı illərinin əvvəllərinin ağır hərbi məğlubiyyətini, iqtisadi və siyasi böhranlarını yaşamağa məhkum edilmiş Azərbaycan XXI əsrin ilk onilliklərində əvvəlki mirasından nəinki tamamilə xilas olmuş, habelə böyük iqtisadi qüdrətə malik ölkə kimi özünü dünyaya həm təqdim etməyə, həm də tanıtmağa nail ola bilmişdi. Heç şübhəsiz, bu böyük möcüzə idi. Dahi Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin təfəkkürünün, qətiyyətinin və uzaqgörənliyinin məhsulu olan möcüzə. Azərbaycanın 2020-ci ilin dünyaya təqdim etdiyi və çoxlarını mat qoyan möhtəşəm hərbi möcüzəsinin sirlərini axtarmağa çalışsaq, yuxarıda qeyd etdiyimiz iqtisadi möcüzənin üzərindən sükutla keçmək nə mümkün, nə də ədalətli olardı.

## Zəfərin siyasi-diplomatik əsasları

30 il ərzində donub qalmış və etiraf edək ki, beynəlxalq güclərin inhisarına keçmiş Qarabağ probleminin həlli Azərbaycanin iqtisadi imkanlarından nə qədər asılı idisə, ölkənin siyasi manevrlərindən, diplomatik fəaliyyətindən, dünyanın siyasi nəbzini tuta bilmək qabiliyyətindən, siyasi dostlar və müttəfiqlər qazanmaq bacarığından, siyasi-diplomatik imkanları reallığa çevirmək ustalığından da o dərəcədə asılı idi. Üç onillik kifayət qədər böyük zamandır ki, Qarabağ probleminin düyünə düşməsinin səbəblərini, başlıca faktorların diplomatik ifadələrlə gizlətməyə çalışdığı reallıqları başa düşə biləsən. Deməli, ölkəni arzuladığı qələbəyə çatmaq üçün seçdiyi yolda ona elə mahir lider rəhbərlik etməlidir ki, lazım olanı etməyi, imkanı gerçəyə çevirməyi bacarsın. 30 ilin pas atmış münaqişəsinin cəmi 44 gün ərzində həll edilməsi, heyrətamiz qələbənin qazanılması elə tutarlı sübutdur ki, Azərbaycana bu şərəfli tarixi missiyanın həyata keçirilməsi dövründə liderlik etmiş İlham Əliyevin yuxarıda sadalanan bütün keyfiyyət və bacarıqlara sahib olduğuna bir daha inanasan.

Siyasətçiyə xas olan ən əsas keyfiyyətlərdən biri xalqı öz ətrafında birləşdirərək onu bəyan edilmiş siyasi proqramın icrası naminə səfərbər etməkdən ibarətdir. Bu, eyni zamanda liderin legitimliyinin və ictimai dəstəyinin miqyasının göstəricisi olmaq baxımından xüsusi əhəmiyyətə malikdir. Etiraf etmək yerinə düşər ki, prezidentliyinin elə ilk günlərindən İlham Əliyev cəmiyyəti öz ətrafında birləşdirərək elan etdiyi quruculuq və müasirləşmə proqramının icrası üçün səfərbər etməyə nail ola bildi.

İlham Əliyevin siyasətçi məharətinin mühüm göstəricilərindən biri onun uzaqgörənliyi, hədəflərin dəqiq müəyyənləşdirilməsi, uzunmüddətli dövrü əhatə edən planların işlənib hazırlanması istedadı sayıla bilər. Nümunə qismində aşağıdakıları sadalamaq mümkündür: Azərbaycanın qarşısında duran vəzifələrin həllini təmin etmək üçün dövlətin güc və qüdrətinin səbirlə və məqsədyönlü şəkildə artırılması strategiyası, ölkənin beynəlxalq imicinin yüksəldilməsi yolu ilə milli maraqlarımızın reallaşdırılmasında əhəmiyyətli beynəlxalq dəstəyin əldə edilməsi proqramı, ordunun döyüş qabiliyyətinin ciddi şəkildə yüksəldilməsi vasitəsilə Qarabağın işğaldan azad edilməsi konsepsiyası və s. İlham Əliyevin yüksək liderlik məharəti eyni dərəcədə xarici siyasət sahəsində özünü büruzə verir. Onun xarici siyasət doktrinası beynəlxalq iştirakçılığın gücləndirilməsi, Azərbaycana yeni dostlar qazandırılması, diplomatiyada hücumçu taktikaya üstünlük verilməsi, beynəlxalq təşəbbüskarlığın artırılması və ölkənin imicinin yaxşılaşdırılması kimi bir-birini üzvi sürətdə tamamlayan 5 tərkib hissədən ibarət proqram kimi təqdim edilə bilər. Diplomatiya liderin siyasi məharətini aşkara çıxaran və ölkəyə böyük dividendlər gətirən ən incə fəaliyyət formasıdır. Qlobal meyillərin güclənməsi, ölkələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı əlaqələrinin genişlənməsi xarici siyasəti liderin özünüifadəsinin və siyasi uğurunun ən vacib amili dərəcəsinə yüksəltmişdir. Digər tərəfdən, müasir qloballaşma və informasiya texnologiyaları dövründə milli liderlər mütəmadi şəkildə beynəlxalq icmanın diqqət mərkəzində olur. Necə deyərlər, liderlər milli hüdudlardan çıxır, beynəlxalq birliyə daha intensiv şəkildə təqdim olunur və bu səbəbdən onun həm siyasi baxışları, həm davranışı daha geniş auditoriyanın müzakirə predmetinə çevrilir. Beləliklə, milli lider ölkənin beynəlxalq imicindən tutmuş onun dünya birliyində mövqeyinə qədər çeşidli parametrlərin formalaşmasında əhəmiyyətli, bəzən isə həlledici rol oynayır. Liderə təmsil etdiyi ölkəyə görə hörmət və ehtiram bəslənildiyi kimi, ölkəyə onu təmsil edən liderə görə qiymət verilməsi praktikasının geniş yayıldığı da sirr deyildir.

Sadalanan ümumi konseptual müddəalar Prezident İlham Əliyevin xarici siyasət sahəsində liderlik məharətini və onun əməli nəticələrini dəyərləndirmək baxımından mühüm açar rolunu oynayır. Əvvəla, İlham Əliyevin xarici siyasət doktrinasının yuxarıda sadalanan prinsiplərinin Azərbaycana müstəsna dividendlər gətirdiyi hər kəsə yaxşı məlumdur. Azərbaycanın 2012-ci ildə dünyanın ən mötəbər beynəlxalq təşkilatının - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-cu ildə isə ikinci ən çoxsaylı beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına rəhbərlik etməsi gənc dövlətin beynəlxalq iştirakçılıq sahəsində yüksək fəallığının təkzibedilməz sübutudur. Eləcə də ölkəmizə iqtisadi faydalar vəd edən karbohidrogen və kommunikasiya layihələrinin işlənməsi Azərbaycanın iqtisadi diplomatiyasının, möhtəşəm beynəlxalq forumların keçirilməsi humanitar diplomatiyasının, mədəniyyət sahəsində təşkil olunan tədbirlər mədəni diplomatiyasının, idman yarışları idman diplomatiyasının gözəl nümunələridir. Sadalananların hər biri ayrı-ayrı sahələrdə Azərbaycanın böyük uğurları olub, onun beynəlxalq nüfuz və hörmətinin artmasına birbaşa təsir etməklə ölkəmizin qlobal rolunun yüksəlməsinin əyani göstəriciləridir. Başqa sözlə ifadə etsək, yuxarıda qeyd olunanlar beynəlxalq həyatın ayrı-ayrı sahələrində ən mötəbər tədbirlər olmaqla əslində Azərbaycanın dünyaya yeni keyfiyyətdə təqdimatı nümunələri sayılmalıdır. Bu mənada beynəlxalq birlik İlham Əliyevi gənc, lakin kifayət qədər müasirləşmiş, beynəlxalq birliyin qabaqcıl dəyərlərini qəbul etmiş ölkənin lideri kimi tanımaq və qəbul etmək imkanı qazanmış oldu. İkincisi, İlham Əliyevin mütəmadi olaraq ən mötəbər beynəlxalq tədbirlərdə iştirakı, ən aktual diskussiyalara qoşulması, müasir təfəkkür və dəyərlərə sahib olması onun yeni tipli milli lider imicini formalaşdırmağa əsas yaratdı. Bu isə öz növbəsində Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsində ifadə olunur. Tam məsuliyyət hissi ilə qeyd edilə bilər və qeyd edilməlidir ki, İlham Əliyevin müasir tipli milli lider kimi prezidentliyi Azərbaycanın beynəlxalq aləmdə ən uğurlu təqdimatıdır.

Azərbaycan cəmiyyəti İlham Əliyevin liderliyini sabitliyin, təhlükəsizliyin, ictimai rifahın və dövlətin qüdrətinin ifadəsi və etibarlı təminatı hesab edir. Dövlət başçısı bu gün eyni zamanda milli birliyin və həmrəyliyin təcəssümü missiyasını yerinə yetirir. Bütövlükdə cəmiyyətimiz, ayrı-ayrılıqda isə hər bir vətəndaş həm ölkəmizin, həm də özünün gələcəyi ilə bağlı baxışları və ümidlərini Prezident İlham Əliyevdən, onun düşünülmüş siyasətindən ayrılıqda təsəvvür etmir.

## Zəfərin möhtəşəm sərkərdə amili

Bütün dövrlərdə və bütün sahələrdə ictimai uğurun ən əsas şərti həmişə lider amili ilə əlaqədar olmuşdur. Tarixi təcrübənin dəfələrlə sübuta yetirdiyi həqiqət hərb sahəsində özünü daha aydın şəkildə büruzə verir. 44 günlük Vətən müharibəsi Azərbaycanın möhtəşəm zəfərində İlham Əliyevin şəxsində sərkərdə amilinin nə dərəcədə müstəsna rol oynadığının əyani təsdiqi hesab edilə bilər. Lakin İlham Əliyevin Qarabağın işğaldan azad edilməsində tarixi rolu yalnız 44 gün ərzində Ali Baş Komandan kimi misilsiz xidmətlər göstərməsi ilə bitmir. Müasir dövrün mahiyyətcə tam fərqli döyüşləri sayılan Vətən müharibəsində sərkərdə missiyasına başlamazdan əvvəl Prezident İlham Əliyevin ədalətin bərpası naminə böyük zəhmətlər hesabına başa gələn xüsusi hazırlıq işləri aparması heç zaman unudula bilməz və unudulmamalıdır. Şanlı qələbəni onlarsız təsəvvür etmək mümkün deyil.

2020-ci il noyabr ayının 10-dək müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələr içərisində ən mühümləri erməni təcavüzü nəticəsində işğal edilmiş torpaqların azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası olmuşdur. Son 30 il ərzində dövlətin həyata keçirdiyi vəzifələr konkret şəraitə uyğun olaraq bu və ya digər dərəcədə dəyişikliklərə məruz qalsa da, ərazi bütövlüyünün bərpası həmişə aktuallığını qoruyub saxlamış, milli maraqların təminatının başlıca istiqaməti kimi çıxış etmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması zaman baxımından kifayət qədər çox vaxt apardığı kimi, həm də çoxşaxəli yanaşma, böyük səylər, gündəlik fəaliyyət tələb edirdi. Azərbaycan problemin həllinə nail olmaq üçün siyasi-diplomatik səylər göstərmək, beynəlxalq vasitəçilərin missiyasına hörmətlə yanaşmaqla bərabər, münaqişəsinin nizama salınması, ədalətin bərpa olunmasında hərbi-siyasi vasitələrdən istifadə olunması ehtimalını heç zaman nəzərdən qaçırmırdı. Beynəlxalq vasitəçilərin "Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu yoxdur" tezisinə qarşı Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən "münaqişənin həllinin hərbi-siyasi yolu var" tezisini irəli sürməsi yuxarıda qeyd edilən fikrin ən bariz ifadəsi sayıla bilər. Uzun illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərinin öz missiyasına kifayət qədər məsuliyyətlə yanaşmaması və problemin həllinin diplomatik yolunu tapa bilməməsi hərbi-siyasi yolun qaçılmazlığına inamı artırırdı. Bununla əlaqədar olaraq Azərbaycanın Silahlı Qüvvələrinin gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsi, əsgər və zabitlərin döyüş qabiliyyətinin və vətənpərvərlik ruhunun yüksəldilməsi aktuallığını nəinki saxlayır, həm də daha böyük məna kəsb edirdi. Azərbaycanın artmaqda olan iqtisadiyyatı ordu quruculuğunun qarşısında yeni imkanlar açırdı. Bir neçə il ərzində Azərbaycanın hərbi büdcəsinin Ermənistanın dövlət büdcəsini üstələməsi hər şeydən əvvəl bu iki dövlətin imkan və resurslarının ciddi şəkildə fərqləndiyini göstərirdi. Lakin haqqında söhbət açdığımız mənzərəni yalnız imkanlar arasında fərqin nəticəsi kimi qiymətləndirmək düzgün olmazdı. Bu, daha çox seçilmiş yolun və strategiyanın məntiqi yekunu baxımından nəzərdən keçirilməlidir. Hələ prezidentliyinin ilk illərində İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən böyük olacaq" formasında tezisini səsləndirməsi yeni hərbi strategiyanın əsas səciyyəsini ifadə edirdi.

Əsrlər boyu öz ölkəsinin milli maraqlarını müdafiə etmək kimi məqsədi qarşısına qoyan sərkərdələrin atdığı ilk addım ordunu gücləndirməkdən ibarət olub. Bu xüsusda Prezident İlham Əliyevin ordu quruculuğuna həssas yanaşması tarixdən məlum olan nəhəng sərkərdələrə xas olan strateq düşüncəsinin yeni və uğurlu nümunəsi sayıla bilər və sayılmalıdır. Sərkərdənin gücü onun yenilməz ordusundadır. Ancaq dünya hərb tarixində elə bir hal olmamışdır ki, ordu sərkərdəsiz, onun strateq düşüncəsindən, müdrikliyindən və qətiyyətindən kənarda yaradılsın. Yenilməz ordu sərkərdə müdrikliyinin və qətiyyətinin ifadəsi olduğu qədər də onun nəticəsidir. 44 gün davam edən Vətən müharibəsində qazanılan möhtəşəm zəfər İlham Əliyevin rəhbərliyi altında dünyanın ən müasir və ən yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdi. Vətən müharibəsində əldə edilən tarixi zəfər müzəffər ordunun sərkərdəsi kimi Ali Baş Komandan İlham Əliyevin həm müdrikliyinin, həm qətiyyətinin birbaşa nəticəsi kimi yaddaşlara həkk olunub. Onun hərbi əməliyyatların planlaşdırılması və idarə edilməsindən tutmuş böyük sərkərdə qətiyyəti ilə döyüşçüləri, həm də nəinki döyüşçüləri, bütün xalqı qələbəyə səsləyən çağırışları müharibənin taleyini həll edən əsas amillərdəndir. İnanıram ki, İlham Əliyevin strateji düşüncəsi, sərkərdə müdrikliyi və qətiyyəti dünya hərb tarixinə yeni parlaq səhifə kimi daxil olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Ağdamdan xalqa müraciətində "Mən bu gün burada, Ağdamda dayanmışam. Öz ordumla, qalib kimi" sözləri müzəffər sərkərdənin qələbəsini təsdiq etməsinin tarixdən məlum olan klassik nümunəsi idi. Bəli, İlham Əliyev öz qüdrətli ordusunu yaratdı, qələbə çaldı və işğaldan azad edilmiş ərazilərimizə səfər edərək möhtəşəm zəfərini bütün dünyaya bəyan etdi. Bütün dahi sərkərdələr kimi. Zəfər çaldı və yeni tarixi yaratdı.

## Zəfər və onun tariximizdə yeri

Artıq bir ilə yaxındır ki, yeni tarixi reallıqlar içərisində yaşayırıq. Dəyişən təkcə Azərbaycanın və xalqımızın taleyində baş verənlərlə bitmir. 30 illik münaqişənin sona çatması, Azərbaycanın ərazi bütövlüyünün bərpası, Qarabağın azad edilməsi daha geniş coğrafiyanın reallıqlarının dəyişməsi ilə müşahidə olunmuşdur və olunmaqdadır. Müzəffər Ordumuzun şanlı qələbəsi sayəsində Yer üzərində uzun sürən münaqişələrdən biri öz həllini tapdı. Yenə də bu qələbənin nəticəsi olaraq dünyada qaçqın və məcburi köçkünlərin sayı 1 milyon nəfər azaldı. Digər ölkələrdə təcavüzə, etnik təmizlənməyə məruz qalanların gözlərində ümid parıltısı görünməyə başladı. Azərbaycan haqqa, ədalətə çatmağın yolunu göstərdi.

Müharibələr bəzi ölkələr üçün təcavüz məqsədi güdən təhlükəli seçim, digərlərinə görə isə dövlətin və xalqın milli maraqlarının qorunması naminə məcburi addımdır. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycanın Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş ərazilərinin azad edilməsi kimi zəruri və ədalətli məqsədə xidmət göstərmişdir.

Müharibə cəmiyyətin və dövlətin həyatında ən əhəmiyyətli hadisə olduğundan ölkənin bütün imkanları səfərbər edilir, xüsusi davranış normalarının seçilməsi qaçılmaz olur. Müharibənin uğurla başa çatmasını şərtləndirən əsas amillər dövlətin müharibəyə necə hazırlaşmasından, malik olduğu resurslardan, ordunun döyüş qabiliyyətindən və mənəvi ruhundan asılıdır. Lakin etiraf edilməlidir ki, istənilən hərbi fəaliyyətin başlıca uğuru hərbi strategiya anlayışı ilə əlaqədardır. Bu isə sərkərdə məharəti deməkdir. Bütün dövrlərdə hər bir müharibənin başlıca qəhrəmanı sərkərdələr olub. Ordumuzun sərkərdəsi, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 44 gün davam edən Vətən müharibəsinin əsas və həlledici qəhrəmanı olması təkcə Azərbaycan vətəndaşlarınının deyil, bütün beynəlxalq icmanın yekdil qənaətidir. Məhz onun düzgün strategiyasının sayəsində təxminən 30 il əvvəl Azərbaycanın ərazilərinin 20 faizini işğal etmiş Ermənistan ordusu darmadağın edildi, işğala son qoyuldu, tarixi qələbə əldə edildi. Birmənalı şəkildə qeyd olunmalıdır ki, Vətən müharibəsində əldə edilən hərbi uğur İlham Əliyevin qələbəsi, onun sərkərdə düşüncəsinin və strategiyasının təntənəsidir.

8 Noyabr - Zəfər Günü Azərbaycanın çoxyüzillik tarixinin şanlı səhifələrindən birini təşkil edir. Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaq. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır.

Mən Vətən müharibəsini və Azərbaycanın şanlı zəfərini əslində xeyrin şər üzərində qələbəsi kimi qiymətləndirmək istərdim. Nəzərə alsaq ki, şər qüvvələri təkcə işğalçı Ermənistan deyil, həm də onun havadarları təmsil edirdilər, onda Azərbaycanın qələbəsinin tarixi əhəmiyyəti və mənası daha aydın təsəvvür edilə bilər. Prezident İlham Əliyevin xalqa müraciətlərində, ayrı-ayrı ölkələrin nüfuzlu media orqanlarına müsahibələrində xeyrin şərə qarşı mübarizəsi və onun qələbə ilə nəticələnməsi özünün geniş ifadəsini tapmışdır. Vətən müharibəsində şər üzərində qələbə Azərbaycan xalqının ədalətli mübarizəsinin beynəlxalq əhəmiyyətindən xəbər verir. Xeyirlə şərin mübarizəsi qədim əsatirlərin mövzusu olsa da, etiraf etmək lazım gəlir ki, şər qüvvələr müasir dünyada da mövcuddur və ona qarşı mübarizə qlobal həyatın aktual problemi olaraq qalmaqdadır. Azərbaycan regionumuza və dünyaya təhdid olan şər qüvvələri məğlub etməklə əslində dünya miqyasında sülhə və təhlükəsizliyə özünün əhəmiyyətli töhfəsini vermişdir.

Bir ölkənin Prezidenti, bir xalqın lideri olmaq böyük şərəfdir. Lakin xalqın qəhrəmanı olmaq, ona qalib xalq statusu qazandırmaq daha böyük şərəf, daha böyük bəxtəvərlikdir. İlham Əliyev özünün qeyd etdiyi kimi, xoşbəxt insandır. Xoşbəxtdir ki, həm Prezident, həm siyasi varis, həm də oğul kimi öz üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirdi. Azərbaycanın yeni, şanlı tarixinin müəllifi, xalqımızın bitib tükənmək bilməyən sevinc, qürur və bəxtiyarlığının ilham mənbəyi oldu. Bu elə bir zirvədir ki, ondan yüksəyini təsəvvür etmək mümkün deyil.

*Tarix həmişə dəyişir. Onun yeni-yeni səhifələri yazılır. Lakin tarixin parlaq səhifələri heç zaman unudulmur. Əslində tarix dediyimiz şey bəşəriyyətin, ayrı-ayrı xalqların həyatının ən möhtəşəm, ən yaddaqalan və ictimai inkişafın gedişinə dərindən təsir göstərən hadisələrinin xronikasıdır. Vətən müharibəsindəki zəfər də məhz belə hadisələrdəndir. İnanıram ki, Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə və onun müəllifi Prezident İlham Əliyevin adı xalqımızın tarixinin ən şərəfli səhifəsinə əbədi həkk olunacaqdır.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyasının sədrinin müavini***

## VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Qalib sərkərdə



Əvvəli 1-ci səh.

### Xalqımız ərazi bütövlüyünün pozulması ilə heç vaxt barışmadı

Torpaqlarımız 30 ilə yaxın işğal altında qalsa da, Azərbaycan xalqı heç vaxt ümidlərini itirmədi. Günlərin birində doğma torpaqlarımızın işğaldan azad ediləcəyinə inandı. Bu inamı daha da gücləndirən, əminliyi artıran isə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunan, Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasi kurs idi. Onilliklər boyu üzləşdiyimiz ikili standartlara, dünya erməniliyinin təzyiqlərinə baxmayaraq, Azərbaycan rəhbərliyi heç vaxt prinsipial mövqeyindən geri çəkilmədi, öz ərazilərində ikinci erməni dövlətinin qurulmayacağını daim dünyaya bəyan etdi. Hələ 2004-cü ildə BMT baş məclisi 59-cu sessiyasının ümumi müzakirələrində Prezident İlham Əliyev demişdi: "Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır".

İlham Əliyevin həyata keçirdiyi kompleks inkişaf siyasəti qələbəni sürətlə yaxınlaşdırdı və reallığa çevirdi. Bu siyasət hər bir uğuru ilə torpaqlarımızın azad edilməsi üçün zəruri şəraitin formalaşmasını təmin etdi, ərazi bütövlüyümüzün bərpa olunmasının konturlarını cızdı.

İlham Əliyevin xüsusi nəzarəti, tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlardan, ilk növbədə, ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli və məqsədyönlü iş aparıldı. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan ən əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırması idi. Dövlət başçısı Ali Baş Komandan kimi ordumuz qarşısında dayanan bütün vəzifələri yerinə yetirməyə qadir mükəmməl hərbi gücə çevirdi.

Azərbaycanın Cənubi Qafqazın ən qüdrətli ordusuna malik olmasını yalnız yerli deyil, xarici mütəxəssislər də təsdiqləyirdilər. Reytinq agentliklərinin hesabatlarında Azərbaycan güclü ordulara malik ölkələr sırasında yer alır. Ölkə vətəndaşları və beynəlxalq ictimaiyyət ordumuzda baş verən keyfiyyət dəyişikliklərini hərbi paradlarda, o cümlədən 2016-cı ilin Aprel döyüşlərində görmüşdü. Təsdiq olunmuşdu ki, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu arsenalını modern silah və hərbi texnika ilə zənginləşdirir, müasir döyüş imkanlarını uğurla mənimsəyir.

Ötən illər ərzində Prezident İlham Əliyev davamlı siyasi-diplomatik fəaliyyəti ilə Ermənistanın ifşasına nail oldu. Dövlət başçısının həyata keçirdiyi hücum diplomatiyası dünya erməniliyinin yalanlarının, tarixin saxtalaşdırılmasının qarşısında etibarlı sipərə çevrildi, əsassız erməni iddialarının yayılmasının qarşısını aldı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qətnamələr işğal olunmuş ərazilərimizin azad edilməsi zamanı mühüm beynəlxalq hüquqi baza rolunu oynadı.

### Ermənistanın təxribatları müharibəni qaçılmaz etdi

Cəbhə xəttində aktiv yeni hərbi əməliyyatların başlaması birdən-birə baş vermədi. 2019-cu ilin avqust ayından sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ətrafında cərəyan edən proseslərin məntiqi yekunu hərbi əməliyyatların bərpa olunmasına gətirib çıxardı. Belə ki, hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlara zidd olan açıqlamalar verən, formatın dəyişdirilməsindən, danışıqlara separatçı rejimin cəlb olunmasından dəm vuran Ermənistanın baş naziri Nikol Paşinyan daha sonra tarixin ironiyası nəticəsində tutduğu vəzifənin eyforiyasından ruhlanaraq regional siyasətdə köklü dəyişikliklər etmək eşqinə düşdü. Hakimiyyətini möhkəmləndirdikdən sonra onun verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət ümumiyyətdə danışıqların mahiyyətinə və məzumuna uyğun deyil. "Qarabağ Ermənistandır" bəyanatı, Azərbaycanın qarşısında qoyulan 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi kimi sərsəm addımlar və nəhayət ötən ilin iyulunda Tovuza hücum edilməsi bu ölkə ilə sivil danışıqları tamamilə mənasız hala gətirdi. Bunların davamı kimi avqustda Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin aparılması, Ermənistanda könüllü hərbi birliklərin yaradılması təsdiqlədi ki, işğalçı ölkə problemin həllində bütün konstruktiv yanaşmalardan uzaqdır. Üstəlik, cəbhə xəttinə yeni hərbi qüvvələr cəmləməsi Ermənistanın yeni işğalçılıq niyyətlərindən xəbər verirdi. Paşinyanın sərxoş olub Şuşada yallı getməsi, qondarma rejimin andiçmə mərasiminin Şuşada keçirilməsi, habelə bu rejimin "parlamentinin" Şuşaya köçürülməsi göstərirdi ki, Ermənistan danışıqlar prosesində, sadəcə, imitisiya edir.

Ermənistanın yeni hərbi təxribatları və müharibə planları barədə Prezident İlham Əliyev ötən il BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı beynəlxalq ictimaiyyəti xəbərdar etmişdi. Dövlət başçısı bildirmişdi ki, Ermənistan rəhbərliyinin düşmən, Azərbaycanofob bəyanatları və təxribatları bu ölkənin Azərbaycana qarşı yeni hərbi təcavüzə hazırlaşdığını nümayiş etdirir. Bundan cəmi üç gün sonra - sentyabrın 27-də Ermənistanın Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücuma başlaması cənab İlham Əliyevin nə qədər haqlı olduğunu göstərdi. Bir neçə gün əvvəl Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibə verən Prezident İlham Əliyev bu barədə dedi: "Ermənistanı işğal edilmiş əraziləri könüllü şəkildə tərk etməyə məcbur etmək üçün təsir vasitələrindən istifadə etməyə çalışırdıq. Mənim Ermənistana qarşı sanksiyalar tətbiq edilməsi barədə beynəlxalq qurumlara bütün çağırışlarımın məqsədi bu olub. Çünki əgər belə olsaydı, Ermənistan işğal etdiyi əraziləri tərk etməyə məcbur olar və müharibə baş verməzdi. Lakin təəssüf ki, belə olmadı. Son dövrdə Ermənistan rəhbərliyi açıq təxribatlara əl atdı. Ermənistan rəhbərliyinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatları əslində danışıqlar prosesindən çıxmaq demək idi. Ermənistan müdafiə nazirinin Amerikada Ermənistanın yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşması barədə bəyanatı isə açıq-aşkar hədə və elementar sağlam düşüncə normalarına və beynəlxalq hüquqa hörmətsizlik nümayişi idi. Buna görə hər şey bu istiqamətdə gedirdi".

### İlham ƏLİYEV: "Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar"

Hərbi əməliyyatların başlanması vasitəçilik missiyasını üzərinə götürənlərin Prezident İlham Əliyevin çağırışlarına səssiz qalmasının, beynəlxalq təşkilatların susqunluğunun, Ermənistana qarşı təsirli mexanizmlərin tətbiq olunmamasının nəticəsi idi. Amma Prezident İlham Əliyev başqa bir xəbərdarlığını da etmişdi. Prezident İlham Əliyev döyüşlərin başlanmasından cəmi 2 gün əvvəl, sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən demişdi: "Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar".

Beləliklə, sentybrın 27-də səhər saatlarında düşmənin hərbi təxribatından sonra Azərbaycan Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərinin həyata keçirilməsinə başladı. Elə hərbi əməliyyatların ilk günündən düşmən sözün əsl mənasında peşman edildi.

Vətən müharibəsinin hər günü müasir döyüş imkanlarından istifadə edən Azərbaycan Ordusunun müzəffər yürüşü ilə yadda qaldı. Elə bir cəbhə olmadı ki, əsgərlərimiz hücum əməliyyatında ləngisinlər. Elə bir istiqamət olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın.

Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən başlatdığı hücum əməliyyatları nəticəsində Ermənistanın 30 ilə yaxın idi işğal altında saxladığı rayonlarımızı, şəhər və kəndlərimizi bir-birinin ardınca azad etdi. Əməliyyatlar başlanandan qısa müddət sonra Cəbrayılda, Füzuldə, Zəngilanda, Qubadlıda, xalqımızın milli kimliyinin təsdiqi olan Xudafərin körpüsündə Azərbaycan bayrağı dalğalanmağa başladı. İranla dövlət sərhədinin 132 kilometrlik hissəsinə nəzarət tam təmin olundu. Laçın, Xocavənd və Tərtər rayonlarının kəndləri də daxil olmaqla, 300-ə yaxın yaşayış məntəqəsi işğaldan təmizləndi.

Prezident İlham Əliyev müsahibələrinin birində demişdi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Çünki Şuşa bizim döyünən ürəyimiz, qürur mənbəyimiz, qeyrət qalamızdır. Əgər 1992-ci ildə Azərbaycanda mərkəzi hakimiyyət güclü olsaydı, siyasi çəkişmələr baş verməsəydi, Şuşa heç vaxt işğal olunmazdı. Bu baxımdan Vətən müharibəsində Azərbaycan ictimaiyyəti Şuşanın azad edilməsini böyük səbirsizliklə gözləyirdi.

2020-ci il noyabrın 8-də, Dövlət Bayrağı Günü ərəfəsində qədim Azərbaycan şəhəri, milli mədəniyyətimizin, milli musiqimizin beşiyi, qürur ünvanımız olan Şuşa şəhərinin işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsində bütün Azərbaycan dövlətçiliyinin tarixinə qızıl hərflərlə düşən hadisə oldu. Təsadüfi deyil ki, cənab İlham Əliyevin həmin gün Şəhidlər xiyabanından xalqa müraciətində Şuşanın azad olunduğunu bəyan etməsi Azərbaycanın hər yerində böyük coşqu ilə qarşılandı.

Öz ərazilərini işğaldan təmizləməklə Azərbaycan Ermənistanı, ilk növbədə, BMT-nin qətnamələrini yerinə yetirməyə məcbur etdi. Öz xoşu ilə vaxtilə qətnamələrin tələblərini yerinə yetirməyən işğalçı indi qəhrəman ordumuz tərəfindən cəzalandırılaraq torpaqlarımızdan qovuldu.

### Ermənistana diplomatiya və informasiya cəbhəsində də zərbə vuruldu

Bu qələbənin əsas mühüm tərəfi Prezident İlham Əliyevin 44 gün ərzində nümayiş etdirdiyi yüksək qətiyyət və beynəlxalq təzyiqlərə sinə gərməsi oldu. Haqlı olaraq Azərbaycan ictimaiyyəti İlham Əliyevin qətiyyətini zəfərimizin ən əsas şərtlərindən biri kimi qəbul edir.

Azərbaycanın bu müharibəni qələbə ilə başa vuracağı hərbi əməliyyatların ilk günlərindən aydın idi. Lakin biz həm də beynəlxalq təzyiqlərin qarşısını almalı idik. Döyüşlərin ilk günündən dünya erməniliyi Azərbaycana qarşı təzyiq rıçaqlarını işə saldı. Bu mənada İlham Əliyev Ali Baş Komandan olaraq yalnız döyüş meydanında mübarizə aparmadı. İlham Əliyev dövlət başçısı kimi həm də siyasət meydanında, diplomatiya cəbhəsində erməni təəssübkeşlərinə və dünya erməniliyinə qarşı qətiyyətlə mübarizə apardı. Azərbaycana qarşı döyüşlərin ilk günlərindən başlayan və bu gün də davam edən haqsız reaksiyaların şahidi olduq. Hətta Fransa prezidenti bütün siyasi normaları aşaraq Ermənistanın müdafiəçisinə çevrildi, ölkəsinin neytrallığını unudaraq tamamilə ermənipərəst mövqe tutdu. Amma heç kim Azərbaycan Prezidentini öz yolundan dayandıra bilməzdi.

Fransanın təşəbbüsü ilə BMT-dən Azərbaycana qarşı qətnamənin də qəbuluna cəhd edildi. Lakin İlham Əliyev bütün bu təzyiqlərə sərkərdə qətiyyəti ilə cavab verdi, ermənipərəst siyasətçiləri yerlərində oturtdu, o cümlədən BMT-də məlum qətnamənin qəbulu baş tutmadı. ATƏT-in Minsk qrupunun üzvləri, əsasən də Fransanın hazırladığı bu layihədə Ermənistanın milli maraqları ifadə olunmuş, BMT-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə istinad edilməmişdi. Lakin Azərbaycan Prezidentinin sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv olan dövlətlər həmin layihənin qəbul edilməsinə imkan vermədilər. Bunun da nəticəsində ordumuz uğurlu hərbi əməliyyatlarını inamla davam etdirdi, hər gün yeni yaşayış məntəqələri işğaldan azad edildi.

### Müharibədə iştirak etmiş hər bir şəxs qələbəmizin bir parçasıdır

Azərbaycan Ordusu bu müharibədə qüdrətini nümayiş etdirdi, peşəkarlıq nümunəsi ortaya qoydu. Ermənistanın 30 il ərzində hərbiləşdirdiyi, mürəkkəb müdafiə mövqeləri qurduğu torpaqlarımızın cəmi 44 gün ərzində azad edilməsi dünya hərb tarixinin ən möhtəşəm hadisələrindən birinə çevrildi. Ordumuz böyük şücaət göstərərək, çətin iqlim və ağır relyefdə hər qarış torpağımız uğrunda qəhrəmancasına mübarizə apardı, bütün növ döyüş qabiliyyətinə hazır olduğunu nümayiş etdirdi. Bütün dünya Ali Baş Komandan başda olmaqla, Azərbaycan hərbçilərinin qəhrəmanlıqlarından bəhs etdi.

Bu müharibədə strateji və taktiki hərbi əməliyyatlarımız dünya hərb tarixində yeni bir səhifə açdı. Təsadüfi deyil ki, Silahlı Qüvvələrimizin həyata keçirdiyi hərbi əməliyyatların strategiyası və taktikası tanınmış ekspertlər tərəfindən araşdırılır, dünyanın aparıcı hərbi məktəblərində təhlil və tədris olunur.

Bu şanlı qələbəni Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar. Prezident İlham Əliyevin dediyi kimi, bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir. Onu da qeyd edim ki, İlham Əliyev əks-hücum əməliyyatlarının başladığı ilk günlərdə, şiddətli döyüşlərin getdiyi bir vaxtda - sentyabrın 29-da Mehriban xanım Əliyeva ilə birlikdə yaralanmış hərbçilərlə görüşmüşdü. Döyüşlər bitəndən dərhal sonra da Ali Baş Komandanın Mehriban Əliyeva ilə birlikdə ilk qələbə təbrikini çatdırdığı insanlar hərbçilər oldu. Bu Azərbaycan Prezidentinin hərbçilərə xüsusi münasibətinin, onlara yüksək diqqətinin növbəti təcəssümüdür.

İstər Birinci Qarabağ, istərsə də 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəman oğullarımızın ailələri, valideynləri, yaxınları, həmçinin hər iki müharibədə əlil olmuş şəxslər, veteranlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edim ki, Ulu Öndər Heydər Əliyevin dövlət başçısı olduğu dövrdən bu kateqoriyadan olan şəxslərin sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin əsas siyasi xəttini təşkil edir. Onlara mənzillər və avtomobillər verilir, işlə təmin olunur, digər problemləri aradan qaldırılır. Bu ənənə Ümummilli Liderin müzəffər davamçısı Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Tarixi Qələbəmizin təmin olunduğu Vətən müharibəsi başa çatandan dərhal sonra Azərbaycan Prezidenti şəhid ailələri, qazilər, müharibə iştirakçıları, həmçinin müharibədən ziyan çəkmiş insanlarımız barədə göstərişlər verdi, onlar tamamilə dövlətin qayğısı altına alındı. Ölkə Prezidentinin sərəncamları ilə müharibə iştirakçıları medallarla təltif edildilər, layiq olduqları statusu qazandılar. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin onlara diqqətinin göstəricisidir.

Xalqımız şəhidlərimizi böyük ehtiramla anır, xatirələrini əziz tutur, qazilərimizə hörmətlə yanaşır. Çünki müharibədə iştirak etmiş hər bir şəxs qələbəmizin bir parçasıdır. Bu həm də bizim vətəndaşlıq borcumuzdur. Onlar Vətənimizin birliyi, suverenliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda canlarını belə əsirgəmədilər.

Onu da xüsusilə qeyd etmək istərdim ki, şəhid ailələrinin və müharibə əlillərinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin ardıcıl və planlı şəkildə həyata keçirilməsi cəmiyyət tərəfindən təqdir olunur. Son olaraq avqustun 26-da - hələ müharibənin başa çatmasından bir il keçməmiş şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına dövlət tərəfindən 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olundu. Həmin mərasimdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsən iştirakı onların bu məsələyə nə qədər xüsusi diqqət yetirdiklərinin bariz nümayişidir. Dövlət başçısı şəhid ailələri ilə, qazilərlə şəxsən görüşdü, hərbçilərimizin qəhrəmanlıqlarından bir daha söz açdı. Görünən odur ki, dövlətimiz həmişə onların yanındadır, bütün problemlərinin həlli istiqamətində əlindən gələni edir. 1997-ci ildən bu günə kimi şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim olunub. Dünyanın heç bir yerində Azərbaycanda olduğu kimi bu cür sosial layihələrin icrasına diqqət yetirilmir. Bu, dövlətimizin humanist xarakterli siyasi fəaliyyətinin tərkib hissəsidir. Prezident İlham Əliyevin bu ilin yanvar ayında imzaladığı sərəncamla bu sahədə yeni proqramlar təsdiq edilib. Belə ki, 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi ev veriləcək.

Dövlətimizin diqqət və qayğısı bununla məhdudlaşmır, şəhid ailələri və veteranlar işlə təmin olunur, özünüməşğulluq proqramına, ictimai işlərə cəlb edilir, onlara reabilitasiya xidmətləri göstərilir, həmçinin yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir, yeni nəsil protezlərlə təmin edilir.

### Qarabağ və Şərqi Zəngəzurdakı bərpa işləri ölkəmizin iqtisadi qüdrətindən xəbər verir

Azərbaycan müharibə başa çatandan dərhal sonra işğaldan azad olunmuş ərazilərdə abadlıq və quruculuq işlərinə başlayıb. Yeni avtomobil yolları çəkilir, hava limanları tikilir, müasir kənd və qəsəbələr salınır. Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə şəxsən özü nəzarət edir. Mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, görülən işlərin gedişi ilə maraqlanır, yeni infrastruktur layihələrinin təməlini qoyur. Bu, Azərbaycan Prezidentinin işğaldan azad olunan ərazilərimizə nə qədər önəm verdiyinin təzahürüdür.

Dövlət başçısının hər dəfə işğaldan azad olunan ərazilərimizə səfərləri xalqımız üçün yeni müjdələrdən xəbər verir. Bu səfərlər zamanı açılışı olan və təməli qoyulan layihələr Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin kompleks miqyasından xəbər verir. Çətin keçilən relyefə malik ərazilərimizdə müasir standartlara cavab verən yolların çəkilməsi, tunellərin inşası uzun zaman və böyük məbləğdə maliyyə vəsaiti tələb etsə də, dövlətimiz bunların öhdəsindən uğurla gəlir.

İşğaldan azad olunan ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri ölkəmizin iqtisadi qüdrətini bir daha ortaya qoyur. Bir fakta diqqət çəkmək istəyirəm. Biz hələ də tam sovuşmayan pandemiya şəraitində yaşayırıq. Bilirik ki, pandemiya bütün dövlətlərin iqtisadi əsaslarını laxlatdı, sosial vəziyyəti ağırlaşdırdı. Həm də biz müharibədən çıxmış bir dövlətik. Müharibə aparmaq və bu müharibədə qalib gəlmək böyük iqtisadi güc tələb edir. Azərbaycan iqtisadiyyatı hər iki sınaqdan üzüağ çıxdı. Eyni zamanda müharibədən dərhal sonra işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işlərinə başlanması dediklərimizi bir daha təsdiq edir. Bütün bu uğurların önündə Prezident İlham Əliyevin düzgün qurulmuş iqtisadi siyasəti dayanır.

Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 4 yanvar tarixli fərmanı ilə yaradılmış Qarabağ Dirçəliş Fondu da işğaldan azad olunmuş ərazilərimizin bərpasına verilən çox böyük bir institusional töhfədir. Bu fonda məbləğindən asılı olmayaraq, böyük həvəslə vəsait köçürən hər bir azərbaycanlının işğaldan azad edilmiş ərazilərin bərpasına töhfəsi olacaq. Bu, əlbəttə ki, bizim milli-mənəvi birliyimizi möhkəmləndirir, Vətən, torpaq, yurd sevgisini daha da artırır. Fondun yaradılması ilə ərazilərin bərpa olunmasında dövlət-özəl tərəfdaşlığının əhəmiyyəti özünü daha qabarıq şəkildə göstərir. Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edir, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirir. Bir məqamı da xüsusi olaraq vurğulamaq lazımdır ki, fondun yaradılması dövlətin Qarabağ siyasətinin təzahürüdür. Əminliklə demək olar ki, məhz bu siyasətin məntiqi nəticəsi olaraq, ən qısa zamanda ərazilərimiz tamamilə yenidən qurulacaq, orada infrastruktur yaradılacaq, müasir şəhər, qəsəbə və kəndlər salınacaq, bölgəyə dinc, təhlükəsiz, rahat həyat gələcək.

44 günlük Vətən müharibəsindəki Zəfər tariximizin parlaq səhifəsi olmaqla, Azərbaycan xalqının iftixar və qürur mənbəyidir. Bu Zəfərin memarı Prezident İlham Əliyevdir. Respublikamızın yüksəlişini, inkişafını təmin edən Prezident İlham Əliyev Azərbaycanın yeganə ağrılı probleminə də qətiyyətlə son qoydu. Azərbaycan həm də Ermənistanın boş, utopik işğal planlarını və xülyalarını puç etdi. Əgər erməni faşizmi baş qaldırmağa cəhd etsə, başının üstündə "dəmir yumruğ"u görəcək. Prezident İlham Əliyev sentyabrın 27-də Anım Günü münasibətilə xalqımıza müraciətində dedi: "Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

*Artıq regionda yeni reallıqlar hakimdir. Ermənistanın bu reallıqların tələblərinə əməl etməkdən başqa yolu yoxdur. Çünki əks-təqdirdə Azərbaycanın "dəmir yumruğ"unu hiss edəcək.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Zəfər yolunun başlanğıcı

**27 sentyabr 2020-ci il düşmən üzərində şanlı Qələbəmizin başlanğıcı günü kimi tarixə çevrilmişdir. Bəlkə də çoxları - erməni faşistlərinə havadarlıq edənlər, ilk növbədə, Ermənistanın hərbi-siyasi hakimiyyəti qələbənin belə tez bir müddətdə - 44 gün ərzində qazanılacağını təsəvvür etmirdilər.**

Torpaqlarımızı 30 il işğal altında saxlayan, şəhər və kəndlərimizi xarabazarlığa çevirən, minlərlə soydaşlarımızı qətlə yetirən, şikəst edən, bir milyondan artıq sakini öz ata-baba torpaqlarından didərgin salan və yeni torpaqlar işğal etmək istəyi olan erməni təcavüzkarları zənn edirdilər ki, bu döyüşlər də 2018-ci ilin aprelində olduğu kimi, bir neçə gün çəkəcək, himayədarlarının köməyi, xahişi nəticəsində yenə də dayandırılacaqdır.

Ermənilər belə fikirləşirdilər ki, işğal etdikləri torpaqlar artıq onlara məxsusdur və əlavə torpaqlar zəbt etmək uğrunda mübarizə aparmaq lazımdır. İlk növbədə, havadarlarına arxalanırdılar, çətin gündə onların köməyinə ümid bağlayırdılar və haqlarında heç bir tədbir görülməməsindən ruhlanırdılar. Zənn edirdilər ki, zaman onların xeyrinə işləyir. Havadarlarından bollu silah, maddi yardım alır, istədikləri təcavüzkar bəyanatları verir, beynəlxalq tribunalarda öz çirkin iddialarını səsləndirə bilirlər. Ancaq bu təcavüzkarlıq əməllərinə görə heç kim onları cəzalandırmırdı.

Ermənilər tam əmin idilər ki, artıq müharibə bitib və onlar Qarabağın, işğal etdikləri torpaqların daimi sakinləridirlər. Buna görə də Nikol Paşinyan utanıb çəkinmədən mötəbər tribunadan "Qarabağ Ermənistandır" bəyanatını səsləndirir, Şuşada yallı gedir, kef məclisləri qururdular.

Bu mövqe, tələb və təkidin olmaması, əksinə, ermənilərə göstərilən qayğı və rəğbət təcavüzkarları gündən-günə ruhlandırırdı. Onlar hər gün atəşkəsi pozur, dinc əhalini qətlə yetirir, sərhəddə təxribat törədirdilər. Azərbaycan dövlətinin, ölkəmizin rəhbəri cənab İlham Əliyevin, bəzi beynəlxalq təşkilatların, hökumət başçılarının sülh çağırışlarına, münaqişəni danışıqlar yolu ilə həll etmək bəyanatlarına Ermənistanın hərbi-siyasi rəhbərliyi demək olar ki, heç bir əhəmiyyət vermirdi. Əksinə, ermənilər torpaqlarımızda muzdlu hərbi qruplaşmalar yaradır, təlimlər keçirir, ərazilərimizdə qanunsuz məskunlaşdırma həyata keçirirdilər. "Böyük Ermənistan" şüarlarını tez-tez gündəmə gətirir, ikinci bir erməni dövlətinin yaradılmasını hesab edirdilər.

Əlbəttə, bu dünyaya meydan oxumaq, beynəlxalq hüquq normalarına hörmətsizlik, Azərbaycan xalqının hissiyyatına toxunmaq, əslində isə qudurğanlıq idi. Faşizm ideologiyasını dövlət siyasətinə çevirən, andraniklərə, nijdelərə heykəllər ucaldan, cəlladların şəninə dastanlar yazan, şərəfinə küçələr salan bir dövlətə təsir göstərən, onu yolundan çəkindirən yox idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistanın faşist ideologiyasına xidmət etdiyini, ölkəmizə və xalqımıza qarşı əsl soyqrımı həyata keçirdiyini, torpaqlarımızı uzun müddət işğal altında saxladığını, şəhər və kəndlərimizin viran edildiyini dəfələrlə mötəbər kürsülərdən səsləndirməsinə, erməni millətçilərinin əməllərinin bəşəriyyət üçün təhlükə olduğunu dünyaya bəyan etməsinə baxmayaraq, çoxları susurdu. İkili standartlar, səmərəsiz danışıqlar, hadisələrə laqeyd münasibət, erməni millətçilərinə dəstək öz işini görür, təcavüzkarlara yeni təxribatlar, qətllər törətmək üçün qol-qanad verirdi.

Azərbaycan Prezidenti isə öz mövqeyində, sözündə qətiyyətli idi. Dövlət başçısı "heç vaxt torpaqlarımızda ikinci erməni dövləti yaradılmayacaq", "biz işğal altında olan ərazilərimizi mütləq düşməndən təmizləyəcəyik", "sülh yolu, danışıqlar fayda verməsə, hərb yolu qaçılmazdır", "Qarabağ Azərbaycandır!" deyirdi. Beynəlxalq təşkilatların, Ermənistana havadarlıq edənlərin ATƏT-in Minsk qrupunun ünvanına tənqidi fikirlər söyləyir, dünyanı haqqa, ədalətə səsləyirdi.

Ermənilər 1990-cı illərin ab-havası ilə yaşayırdılar. AXC-Müsavat cütlüyünün idarə etdiyi Azərbaycanın təlatümlü, özbaşınalıq, xəyanətlər, səriştəsizlik, hakimiyyətsizlik dövrünün havasını başlarından hələ də çıxarmamışdılar. O dövrdə qazandıqları qələbələr - əldə etdikləri torpaqlar, törətdikləri faciələr, Xocalı, Qaradağlı kimi soyqırımıları onların gözünü pərdələyib inamlarını, qətiyyətlərini artırmışdı. Hələ də dövlətimizin qüdrətini, Prezidentimizin qətiyyətini, xalqımızın gücünü və vətənpərvərliyini görə bilmirdilər.

Ermənistanın hərbi-siyasi rəhbərliyi cənab İlham Əliyevin düşünülmüş siyasi gedişlərinin gücünü, səmərəsini yalnız 27 sentyabrda anlamağa başladılar. Vətən müharibəsinin ilk günündən ordumuzun yenilməzliyini, əsgər və zabitlərimizin şücaətini, vətənpərvərliyini, xalqımızın birliyini, dönməzliyini, qəhrəmanlığını dərk etdilər.

44 günlük müharibə və qələbə bir həqiqəti ortaya qoydu və rəhbərin hakimiyyətdə olduğu illərdə vətəni, xalqı, torpağı üçün etdiklərini, gördüklərini, həyata keçirdiklərini nəinki azğın düşmənə, bütün dünyaya nümayiş etdirdi.

Xalqın öz Prezidentinə məhəbbəti, ehtiramı, Vətən, torpaq uğrunda mübarizə çağırışına bir nəfər kimi cavab verməsi birliyimizin, həmrəyliyimizin ifadəsi kimi müharibə günlərində özünü daha aydın şəkildə göstərdi. Qarabağın azadlığına gedən yolda hər bir vətəndaş Prezidentin yanında olmağı, ona dəstək verməyi özünün müqəddəs borcu və həyat amalı kimi qiymətləndirir, döyüşlərdəki qəhrəmanlığı ilə sübut edirdi.

Bu çox qürur doğuran, xalqımızın adına şərəf gətirən bir hal kimi qiymətləndirilməli, zaman-zaman xatırlanmalıdır ki, on minlərlə əsgər və zabitin iştirak etdiyi müharibədə bir nəfər də fərarilik etmədi, döyüşlərdən geri çəkilmədi. Əksinə, yaralı-yaralı döyüşə atılanların, yarası ağır olsa da, müalicəyə getməkdən imtina edənlərin, vuruşmağa can atanların sayı çoxaldı.

Gəncə, Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Goranboy hər gün top, raket atəşinə məruz qalsa da, nəinki yaşlılar, kiçik uşaqlar belə qətlə yetirilsə də, bir an olsun belə insanların qələbəyə inamı azalmadı, onlar hər gün ölkə rəhbərinin dilindən kəndlərimizin, yaşayış məntəqələrimizin işğaldan azad olunması xəbərini aldıqca sevindilər, öz övladlarına qəhrəman kimi vuruşmağı, düşmənə bir anda aman verməməyi tapşırdılar.

Azərbaycan Prezidentinin, Ali Baş Komandanın hər gün televiziya ekranına çıxmağını səbirsizliklə gözləyən vətəndaşlarımız bu gün də qalib rəhbərin xarici jurnalistlərə verdiyi müsahibələrin təsiri altındadılar və həmin anları dönə - dönə xatırlayırlar. Çünki dövlət başçısı bizi istəməyən, uğurlarımıza kölgə salmağa çalışan, ermənilərin mövqeyindən çıxış edən xarici ölkələrin jurnalistlərinə müsahibə ilə bərabər, həm də dərs verirdi. Tarixi keçmişimizi yada salır, ermənilərin kimliyini, əməllərini, kimə arxalandıqlarını, dünənini və bu gününü, nəyə qadir olduqlarını və hansı ideologiyaya xidmət etdiklərini real faktlarla dünyaya çatdırırdı.

44 günlük müharibə dövründə Ali Baş Komandan döyüşlərin gedişi ilə əlaqədar vətəndaşlara məlumat verməyi lazım bilir və onları sevindirməyə çalışırdı. Həm də Ermənistanın hərbi arsenalına diqqəti cəlb etməyi vacib sayır və bu qədər silah-sursatın necə əldə olunduğunu gündəmə gətirirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün təsirlərə baxmayaraq, öz mövqeyində qətiyyətli idi və mübarizədən bir an belə geri çəkilmirdi. O tarixi ədalətə, beynəlxalq hüquqa, xalqın istəyinə arxalanırdı. İnsanların torpaq sevgisini, od-ocaq həsrətini, qələbəyə inamını, birliyini yaxşı görürdü. Məhz buna görə də "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkələrin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini əsaslandırır, "torpaqlarımız mütləq işğaldan azad ediləcək" bəyanatları ilə erməniləri sülhə, danışıqlara səsləyirdi.

Müharibə günlərinin hər bir anı Azərbaycanın hərb tarixinə həkk olunan qızıl səhifələrdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son dərəcə düşünülmüş, ölçüb-biçilmiş, zərgər dəqiqliyi ilə hesablanmış siyasi gedişləri, ordumuzun döyüş məharəti, igid oğullarımızın qəhrəmanlığı, xalqımızın birliyi tarixi qələbəmizin rəhni olmaqla yanaşı, həm də dövlətimizin gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi.

Dövlət başçısı bu müharibəni "ədalətli müharibə, haqqın qələbəsi" adlandırmışdı: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını sürətləndirdi. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

Bu qələbənin qısa müddətdə əldə edilməsi də möhtəşəm və unudulmazdır. Bu qələbə həqiqətən də qəhrəmanlıq, şücaət, Vətənə, torpağa hədsiz məhəbbət nümunəsidir.

Ən çox sevinən, xalqı və ordusu ilə qürur duyan, fəxr edən Azərbaycan Prezidentidir. Ölkə rəhbəri müharibənin başa çatdığı ilk gündən döyüşlərdə qəhrəmanlıq göstərmiş hərbçilərimizi Azərbaycanın ən yüksək mükafatları ilə təltif etdi, dəfələrlə yaralı əsgər və zabitlərimizə baş çəkdi, onların sağlamlığı üçün əlindən gələni əsirgəmədi. Şəhid ailələrinə qayğı və diqqətin artırılması üçün mühüm tapşırıqlar verdi, sərəncamlar imzaladı.

Vətən müharibəsində qazanılan tarixi qələbə münasibətilə dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən parad isə dövlətimizin hərbi qüdrətini bir daha dünyaya göstərdi. Paradda Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, ölkəmizə daimi siyasi və mənəvi dəstək vermiş, müharibənin bütün anlarında xalqımızın yanında olduqlarını bəyan edən qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etməsi qardaşlığın və dostluğun əbədiliyinin və sarsılmazlığının təsdiqi idi.

Bu gün torpaqlarımız düşməndən azaddır. Erməni təcavüzkarları öz cavablarını alıblar. Ermənistan hakimiyyəti, ordusu çökdürülmüşdür. Azərbaycan Prezidenti cənab İlham Əliyev tarixi ədaləti bərpa etməklə dünyaya haqqın, hüququn üzünü göstərdi və yeni reallıqlar yaratdı. 30 il ərzində beynəlxalq təşkilatların, sözü keçən dövlətlərin, ATƏT-in Minsk qrupunun həyata keçirə bilmədiklərini ordumuzun, xalqımızın gücü, qüdrəti ilə 44 gündə yerinə yetirdi.

Reallıq - azğın düşmənin susdurulması, təcavüzkarın torpaqlarımızdan çıxarılmasıdır.

Reallıq - ordumuzun güclü və qüdrətli olması, gündən-günə möhkəmlənməsi, peşəkarlığını artırmasıdır.

Reallıq - xalqın birliyi, Vətən, torpaq təəssübkeşliyi, elinə, obasına məhəbbətdir.

Reallıq - iqtisadiyyatımızın davamlı və inkişafda olmasıdır.

Reallıq - bu gün, qələbədən sonra Qarabağın bərpası uğrunda həyata keçirilən böyük tədbirlərdir.

Bütün bunları yaradan, dünyaya təqdim edən, xalqımızın aydın, xoşbəxt sabahına zəmanət verən isə Azərbaycan Prezidenti cənab İlham Əliyevin düşünülmüş, xalqımızın firavan həyatına, dövlətimizin inkişafına hesablanan siyasəti, qətiyyəti və xalqına inamıdır. "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır", - deyən Prezident, Ali Baş Komandan İlham Əliyev bir il bundan əvvəl torpaqlarımızın işğaldan azad olunması üçün gecəsini gündüzünə qatıb düşmənə qalib gəlməyin yolları barədə düşünürdüsə, bu gün Qarabağın bərpası, cənnətə çevrilməsi üçün çalışır, mühüm tədbirlər görür, işğaldan azad edilmiş əraziləri qürurla gəzir və yeni planlar qurur.

Bu gün görülən işlərin miqyası isə çox genişdir. Qısa müddətdə Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi. Şuşa şəhərinə çəkilən maqistral yol tamamlanmaq üzrədir. Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının, "Vaqif Poeziya Günləri"nin keçirilməsi, sərgilərin təşkili, binaların, küçələrin təmiri, şəhərə suyun, işığın çəkilməsi və görülən bir sıra mühüm tədbirlər Şuşanın ölkəmizin mədəniyyət paytaxtına və həm də cənnətə çevriləcəyinə zəmanətdir.

Zəngilan və Laçında tikilən hava limanları, həyata keçirilən "ağıllı kənd", "ağıllı şəhər" layihələri, quraşdırılan elektrik stansiyaları, çəkilən yeni yollar, abadlıq, bərpa işləri iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı ilə əlaqədar görülən tədbirlər 44 günlük müharibənin, tarixi qələbəmizin xalqımıza verdiyi imkanlardır.

Dövlətimizin rəhbəri tərəfindən erməni vəhşiliyinin qurbanı olan şəhər və kəndlərimizdə, ərazilərimizdə mühüm strateji obyektlərin, müəssisələrin təməlinin qoyulması, tikinti işlərinin geniş vüsət alması, mütərəqqi, müasir texnologiyaların tədbiqinə meydan verilməsi gələcək uğurlarımızdan xəbər verir. Bütün bunlar bir ilin nəticələridir, 27 sentyabr 2020-ci ildən başlanan Zəfər yürüşünün, qələbə əzminin uğurlarıdır.

*Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizi və xalqımızı daha böyük qələbələr gözləyir. Döyüşlərdəki qələbələr Qarabağın bərpasında, ölkəmizin sosial-iqtisadi inkişafında, xalqımızın azad, xoşbəxt həyatında təkrarlanır və hər bir vətəndaş bundan qürur duyur, fəxr edir.*

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

## Komandan qətiyyətinin ifadəsi



*"Hazırda Azərbaycan Ordusu düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb.*

*Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*

*Bir il öncə sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti ilə sonu şanlı Zəfərlə bitəcək haqq savaşına başladıq. 30 illik həsrətə son qoyaraq Qarabağı düşmən tapdağından təmizlədik.*

*Tam bir il sonra sentyabrın 27-də İlham Əliyev yenə xalqa müraciət etdi. Bu dəfə isə Müzəffər Komandan, Qalib Sərkərdə kimi daha qürurlu idi. Qətiyyətli, vüqarlı çıxışı ilə şanlı Zəfər yolumuzdan danışdı və sülh müqaviləsi imzalamaqdan yayınan məğlub Ermənistana, onun havadarlarına sərt xəbərdarlıq etdi.*

### Ermənistan İlham Əliyevin şərtlərini qəbul etsəydi...

İki müraciətə nəzər yetirdikdə aydın şəkildə görərik ki, İlham Əliyev Vətən müharibəsi başlayan gündən bugünədək əsl sərkərdə qətiyyəti ilə bütün fikirlərinin üstündə durub və qarşıya qoyulan məqsədlərə nail olub.

Savaş başlayan gündən Prezident İlham Əliyev bəyan etdi ki, erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpaqlarından rədd olub getsin. Sonra da beynəlxalq KİV-ə verdiyi müsahibədə şərtlərini açıqladı. Bəyan etdi ki, Ermənistan tərəfi işğal olunmuş ərazilərin boşaldılmasına dair üzərinə öhdəlik götürəcəyi təqdirdə Azərbaycan istənilən vaxt dayanmağa hazırdı: "Əgər Ermənistanın baş naziri işğal olunmuş əraziləri boşaldacağına dair ictimaiyyət qarşısında üzərinə öhdəlik götürərsə, biz dayanarıq".

Əgər bu ölkənin rəhbərliyi vaxtında torpaqlarımızın boşaldılması ilə bağlı təqvimi hazırlayıb təqdim etsəydi, bu gün tarixinin ən acınacaqlı gününə düşməzdi. Həm də hər iki tərəfdən itkilər çox az olardı. Amma işğalçı ölkə "məğlubedilməz" mifinə güvənib Azərbaycanla savaşa davam etdi. Nəticəsi isə işğalçı üçün ağır oldu.

Müharibə dövründə Ermənistanın rəzil günə düşdüyünü görən havadarları bəzi beynəlxalq təşkilatlar, dövlətlər vasitəsilə Azərbaycana təzyiqlər göstərilməsinə cəhd etdilər. Amma Ali Baş Komandanın qətiyyəti zərrə qədər sarsılmadı. Əksinə, İlham Əliyev həmin qüvvələrə mesaj ünvanladı. Bəyan etdi ki, biz ədalət, milli qürur savaşına başlamışıq və buna görə də heç kim Azərbaycanı dayandıra bilməz. Bu fikirlər hər bir azərbaycanlını daha da qürurlandırdı və xalq əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi.

44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi tarixin arxivinə getdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Kəlbəcər, Ağdam və Laçın rayonları şəhid vermədən, qan tökülmədən geri qaytarıldı.

Prezident İlham Əliyev bir daha sübut etdi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz. İlham Əliyev status-kvonu dəyişdi və bu gün münaqişənin həlli şərtlərini Azərbaycan diktə edir.

### Şərəfli missiya, şanlı tarix

Sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edən Prezident bir daha həqiqətləri səsləndirdi. Bəyan etdi ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa edib. Bu gün Azərbaycan xalqı müzəffər xalq, ölkə isə qalib dövlət kimi yaşayır.

2003-cü ildə Prezident seçilərkən ümummilli məsələmizin həll olunması istiqamətində var gücü ilə çalışacağını söyləyən Prezident İlham Əliyev tarixi missiyasını şərəflə yerinə yetirdi. Düşməni torpaqlarımızdan qovdu, ədaləti, beynəlxalq hüququ bərpa etdi.

Anım günü ilə bağlı müraciətində də dövlət başçısı bir daha müharibə dövründə xalqa etdiyi müraciətlərini xatırladı: "Dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq. Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi".

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsini milli iradənin, milli ruhun, milli ləyaqətin təntənəsi adlandıraraq vurğuladı ki, Azərbaycan Ordusu bu zəfəri döyüş meydanında qan tökərək, şəhid verərək qazanıb və düşməni diz çöküb kapitulyasiya aktına imza atmasına məcbur edib. O düşməni ki, 30 il ərzində bizə meydan oxuyurdu, Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Sonunda isə ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində işğal altında olan bəzi şəhər və kəndlərimiz bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Dövlət başçısı növbəti dəfə Ermənistana və onun havadarlarına mesaj da ünvanlayaraq dedi ki, artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qalıb. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, ancaq Azərbaycanda yox! Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaq.

Əslində Prezident deyir ki, Azərbaycanın Qarabağla bağlı mövqeyi dəyişmir, lakin bu dəfə bir qədər də sərtləşdirilir. Bakının hərbi güc addımı təkcə Ermənistana yox, "Dağlıq Qarabağı" diriltmək istəyən bütün tərəflərə şamil edilə bilər.

Dövlət başçısı daha bir reallığı açıqlayaraq dedi ki, Azərbaycan 44 gün ərzində təkcə ərazi bütövlüyünü bərpa etmədi, təkcə düşməni torpağımızdan qovmadı, milli ləyaqətimizi bərpa etmədi, həm də erməni faşizminin başını əzdi. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın.

Müharibə bitsə də, Ermənistan hələ də sülh danışıqlarını imzalamağa hazır görünmür. Yenə də erməni məkiri özünü göstərməkdədir. Yəni erməni faşizminin təzahürləri görünməkdədir. İlham Əliyev isə həmin qüvvələrə sərt xəbərdarlığını edərək Anım günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha səsləndi: "Əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

### Şəhidlərimizə ehtiramın əbədiliyinin növbəti təzahürü

Sentyabrın 27-də - Anım Günündə Bakıda daha bir tarixi hadisə yaşandı. Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq yürüş təşkil edildi.

Öndə yenə Ali Baş Komandan gedirdi. Yanında isə ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və qüdrətli Azərbaycan Ordusunun 3 mindən çox hərbçisi addımlayırdı. Yürüş iştirakçıları əllərində Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki şəxslərin fotolarından ibarət plakatlar var idi.

Bu yürüş xalqın birliyinin daimi və sarsılmaz olduğunun, Vətənə sevginin, şəhidlərimizə ehtiramın əbədiliyinin növbəti təzahürü idi.

Neftçilər prospektindən başlayan yürüş Prezident İlham Əliyev tərəfindən həmin gün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyinədək davam etdi.

Bu yürüşün rəmzi mənası var idi. Bu, Vətən uğrunda canından keçən şəhidlərimizin təntənəli keçidi idi. Bütün Azərbaycan bu yürüşü ayaqda izlədi. Çünki onlar Vətən üçün canlarından keçib hərəsi bir qəhrəman olan igidlərdir. Bu qəhrəmanlar hər zaman başımızın tacı kimi qəlbimizdə yaşayacaqlar.

### Prezident-xalq-ordu birliyinin təntənəsi

Şanlı Zəfərimizlə bitən Vətən müharibəsindən bir il ötür. Çox qürurluyuq və bu gün də fəxarətlə Müzəffər Azərbaycan Ordusunun böyük qələbəsindən ürəkdolusu danışırıq. Lakin bu, bir həqiqətdir ki, qələbə heç də asan qazanılmadı. Müharibəyə qədər çox böyük hazırlıqlar görüldü.

Prezident İlham Əliyevin 17 il ərzində həyata keçirdiyi uğurlu xarici siyasət, hücum diplomatiyası, Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması istiqamətində gördüyü böyük işlərin hamısı Vətən müharibəsindəki qələbinin birinci fazası idi.

Prosesin ikinci fazası isə savaşa hazırlıq və "Dəmir yumruq" əməliyyatı oldu. Ali Baş Komandan 17 ildə çox qüdrətli və istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan Silahlı Qüvvələr yaratdı. Onun arsenalını dünyanın müasir hərbi texnika və silah-sursatı ilə zənginləşdirdi.

2020-ci ilin iyul ayında Tovuzda baş verən düşmən təxribatı Vətən müharibəsinin başlanmasına rəvac verən qığılcım oldu. Məhz Prezident İlham Əliyevin sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Ali Baş Komandan bu savaşda təkcə sərkərdə məharətini deyil, diplomatik bacarığını da dünyaya nümayiş etdirdi. Suqovuşanı, Cəbrayılı, Zəngilanı, Füzulini, Qubadlını, Hadrutu, Şuşanı savaşaraq, Ağdamı, Kəlbəcəri, Laçını bir güllə atmadan belə düşməndən geri aldıq. Bu, bəlkə də çoxlarına adi məsələ kimi gələ bilər. Amma İlham Əliyev mümkün olmayanı reallaşdırdı.

Bu savaşda xalq öz liderinin ətrafında sıx birləşməklə dünyaya sübut etdi ki, Qarabağ millətimizin milli ləyaqət rəmzidi və Azərbaycan xalqı Qarabağ arzusundan bir addım da geri çəkilməyib.

Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi siyasət ona gətirib çıxardı ki, Prezident-xalq-ordu birliyi qalib gəldi, düşmən 30 il işğal altında saxladığı torpaqlarımızdan qovuldu.

Azərbaycan ancaq torpaqlarını azad etmədi, həm də dövlət sərhədlərini bərpa etdi. Hələ sovet illərindən öz təsərrüfat sistemini Azərbaycan sərhədlərini pozaraq formalaşdıran Ermənistan sərhədlərin o biri tayına çəkilməyə məcbur olundu.

Vətən müharibəsində Azərbaycan xalqı da, dövləti də Qarabağın işğaldan azad olunması ilə bağlı var-qüvvəsini ortaya qoydu. İllərdi qurulan güclü ordu, yetişən vətənpərvər nəsil düşmən çəpərinə çevrildi. Əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirdi.

İkinci Qarabağ müharibəsi regionda vəziyyəti kökündən dəyişərək tamamilə yeni reallıqlar yaratdı. Regionda yeni iqtisadi əməkdaşlıq imkanlarının yaranması, Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin başlanılması da bu reallığın əsas göstəriciləridir.

Bu gün regionda yeni reallıqlar yaranıb. Hər zaman qlobal miqyaslı təşəbbüslərlə çıxış edən Prezident İlham Əliyev yenə də dost və qonşu dövlətlərin iqtisadiyyatının inkişafını şərtləndirən təklif irəli sürür. Dövlət başçımızın təklif etdiyi "3+3" birgə əməkdaşlıq platformasının yaradılması istiqamətində danışıqlar davam edir. Bütün bunlar göstərir ki, Qarabağın iqtisadi potensialı Azərbaycana böyük dividendlər qazandıracaq.

*Əminliklə söyləmək olar ki, Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, uzaqgörən, prinsipial siyasəti nəticəsində Azərbaycan daxili və xarici siyasətdə böyük uğurlar əldə edəcək.*

***Zahid CƏFƏROV,***
***Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Haqqın Zəfər yürüşü

Əvvəli 1-ci səh.

Şanlı ordumuz bütün dünyanın müstəqil Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün haqq mübarizəsinə atıldı, hünər meydanında düşmənin dərsini verməyə şığıdı.

## Qətiyyətli bəyanat: “Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır”

Prezident İlham Əliyev 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin elə ilk saatlarında Azərbaycan xalqına müraciət edərək cəbhədə yaranmış vəziyyətlə bağlı birbaşa məlumat verdi, Ermənistanın növbəti dəfə Azərbaycana hərbi təcavüz aktına əl atdığını rəsmən bəyan etdi: “Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür”.

Dövlət başçısının Azərbaycan xalqına ilk müraciəti həm informasiya xarakterli bir çox məqamlarla zəngin idi, həm də Vətənin müdafiəsinə qalxdığımız, ərazi bütövlüyümüzü bərpa etmək üçün çıxdığımız bu savaşda hər bir ölkə vətəndaşının nə etməli olduğunu göstərmək üçün yol xəritəsi idi. Bu, dövlət, xalq, ordu birliyinin “dəmir yumruğa” çevrilib düşmənin başını əzməsinə çağırış idi...

İlham Əliyev qətiyyətlə bildirirdi ki, Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır.

Eyni zamanda Ali Baş Komandan bəyan edirdi ki, biz öz torpağımızda vuruşuruq: “Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır”.

## “Dəmir yumruq” Ermənistanı təslimçilik bəyanatına imza atmağa məcbur etdi

Prezident İlham Əliyevin ötən ilin 27 sentyabrında xalqa etdiyi o tarixi müraciətin üzərindən heç iki ay keçməmiş, biz artıq bir qərinəyə yaxın idi ki, davam edən Qarabağ münaqişəsinin bitməsindən qürurla bəhs edirdik. Cəmi 44 gün çəkən haqq müharibəmizin, ədalət mübarizəmizin Qələbə ilə başa çatmasını coşqu ilə qeyd edirdik.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun düşmən tapdağında qalan doğma torpaqlarımızı işğaldan azad etməsinin, “dəmir yumruq” sayəsində Ermənistanı təslimçilik bəyanatına, kapitulyasiya aktına imza atmağa məcbur etməsinin qürurunu yaşayırdıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyev eyni ilə bir il əvvəlin 27 sentyabrında olduğu kimi, bu ilin 27 sentyabrında da xalqa müraciət etdi...

Amma builki müraciəti ötənilki müraciətdən fərqləndirən xeyli məqamlar var idi...

44 günlük Vətən müharibəsində torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən müqəddəs şəhidlərimizin anımı münasibətilə Prezident tərəfindən edilən bu müraciət, Müzəffər Ali Baş Komandanın, xalqa ötənilki müraciət zamanı səsləndirilən və qarşıya qoyulan məqsədlərin fəxarətlə yerinə yetirilməsi ilə bağlı sanki bir qürur hesabatı idi...

Vətən uğrunda canından keçən əziz şəhidlərimizin qisasının alınması, onların ruhu qarşısında müqəddəs borcumuzun ödənilməsinin fəxarətli bəyanı idi...

## “Müharibənin və Qələbənin rəmzi olan “dəmir yumruq” yerindədir”

“Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu”, - deyə 2021-ci ilin 27 sentyabrında İlham Əliyev səsləndirdi.

Ölkə rəhbəri xüsusilə vurğuladı ki, müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - “öldü var, döndü yoxdur”. Azərbaycan xalqı Silahlı Qüvvələrimizin arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi: “Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq”.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı qətiyyətli şəkildə qondarma “Dağlıq Qarabağ” məsələsinə də son nidasını qoydu: “Azərbaycanda “Dağlıq Qarabağ” adlı inzibati ərazi mövcud deyil və əgər kimsə “Dağlıq Qarabağ” adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində “Dağlıq Qarabağ” adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox!”

Ali Baş Komandan qeyd etdi ki, erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün: “Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan “dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın!”

## Xalqın sarsılmaz birliyi, Vətənə sevgi, şəhidlərimizə əbədi ehtiramın nümayişi

Şanlı qələbənin qazanılmasında canlarını bu torpağa qurban verən müqəddəs şəhidlərimizin payı böyükdür.

“İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik”, - söyləyən Prezident İlham Əliyev anım günü ilə bağlı müraciətində söylədi ki, biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq.

Anım Günündə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində yürüş təşkil edildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgini, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdirdilər.

Dövlət başçısı yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı ilə, Birinci xanım Mehriban Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləyirdi.

27 sentyabr Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində də iştirak etdilər.

Yaxın gələcəkdə isə Bakıda, paytaxtımızın ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaq.

Qanları yerdə qalmadığı, qisasları alındığı üçün indi bütün şəhidlərimizin ruhu şaddır. Eyni zamanda Azərbaycan xalqı çox qürurludur ki, qəhrəman oğulları, qızları var və məhz bu şanlı qələbəni həmin igidlərin şücaəti, fədakarlığı sayəsində qazanmışıq.

Prezident İlham Əliyevin də söylədiyi kimi, bundan sonra dünya durduqca qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, prinsipial və uzaqgörən siyasəti, dövlət və xalqın sarsılmaz birliyi, qəhrəman ordumuzun gücü sayəsində Qələbə coşqusu yaşayan Azərbaycanın azad edilmiş torpaqlarında indi sürətli quruculuq, bərpa işləri aparılır. Artıq o torpaqlara həyat qayıdır, illər əvvəl dədə-baba yurdlarından didərgin salınan insanlar öz yurdlarına qayıdır.

Bəli, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!!!

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# ZƏFƏR gündəliyi

## 29 sentyabr

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərir.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını alır.

Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilir.

Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilir.

Gərgin döyüşlər davam edir. Düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilir.



❖❖❖

Səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edir.

Səhər saat 07:00-08:00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilir.

❖❖❖

Ermənistan növbəti provokasiyaya əl atır. Səhər saat 07:30-dan etibarən Ermənistanın Vardenis rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulur.

❖❖❖

Bütün cəbhəboyu döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənə məxsus növbəti iki tank dəqiq atəşlə məhv edilir. Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirir.

İşğal edilmiş ərazilərimizdə gedən döyüşlərə cəlb edilmiş Ermənistan ordusunun Eçmiədzin rayonunda dislokasiya olunan 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri Spartak Köçəryan məhv edilir.

❖❖❖



Almaniya Kansleri Angela Merkel Prezident İlham Əliyevə telefonla zəng edir.

Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edən Angela Merkel hadisələrin gedişi ilə maraqlanıb.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədib, ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutub. Nəticədə iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb. Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.

İlham Əliyev vurğulayıb ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət bu ölkənin siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

❖❖❖



“Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!”

Bu fikir Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsindəki paylaşımında yer alır. Paylaşımda daha sonra deyilir: “Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir”.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edən Mehriban xanım vurğulayır ki, bu gün xalq niyyəti, hərəkət və duaları ilə misligörülməmiş birlik göstərir: “Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!”

❖❖❖




Rusiyanın “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedir. Verilişdə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırırlar.

İlham Əliyev hər zaman olduğu kimi yenə də qətiyyətli və prinsipial mövqeyini nümayiş etdirərək bildirir ki, artıq üçüncü gündür şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

Dövlətimizin başçısı Ermənistanın bu savaşda Türkiyənin iştirakı ilə bağlı uydurmalarına da aydınlıq gətirərək deyir ki, Türkiyə Azərbaycana yalnız mənəvi dəstək göstərir. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfinin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət də yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan növbəti dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



# Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri İkinci Fəxri xiyabanı ziyarət ediblər



Sentyabrın 28-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə müsəlman din xadimləri və Azərbaycanda fəaliyyət göstərən pravoslav, katolik, yəhudi dini konfessiyalarının rəhbərləri Vətən müharibəsi şəhidlərinin Anım Günü ilə əlaqədar İkinci Fəxri xiyabanı ziyarət ediblər.

İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin, Silahlı Qüvvələrimizin şəhid zabit və əsgərlərinin xatirəsi dini konfessiya rəhbərləri tərəfindən ehtiramla yad edilib. Onların şərəfinə "Qurani-Kərim" tilavət edilib, ruhlarına dualar oxunub, məzarları önünə gül dəstələri düzülüb.

Tədbirdə ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələrindən Dağ yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi protoierey Konstantin Pominov və başqaları iştirak ediblər.

# YAP Gənclər Birliyi Gəncədə erməni terroru nəticəsində həlak olan şəhər sakinlərinin xatirəsini anıb



Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin (GB) təşkilatçılığı ilə partiyanın ətraf bölgələri təmsil edən fəal gəncləri Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət yerini ziyarət edib, həlak olan şəhər sakinlərinin xatirəsini anıblar.

Tədbirdə YAP GB sədri Bəxtiyar İslamov, Milli Məclisin deputatları Naqif Həmzəyev, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri və YAP Gənclər Birliyinin üzvləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, partiya üzvləri ötən ilin oktyabrında Gəncədə erməni terroru nəticəsində çoxlu sayda mülki şəxsin öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

YAP GB-nin sədri Bəxtiyar İslamov AZƏRTAC-a müsahibəsində 11 rayonu təmsil edən gənclərlə birlikdə bu əraziləri ziyarət edib, şəhidlərin xatirəsini anmağı özlərinə borc bildiklərini deyib. Bildirib ki, ermənilər tərəfindən törədilən bu vandalizm aktı heç vaxt unudulmayacaq.

Gənclər Birliyinin üzvləri erməni terroru nəticəsində yerlə-bir olmuş yaşayış binasının ətrafına həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq gül dəstələri düzüblər.

# Memorial.az saytı - "yaddaş kitabı"nın təqdimatı keçirilib

## Saytın yaradılmasında əsas məqsədlərdən biri tarixi yaddaşın formalaşdırılmasına sistemli yanaşma tətbiq etməkdir

**Sentyabrın 28-də Bakıda Memorial.az saytı - "yaddaş kitabı"nın təqdimatı keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, ictimaiyyət və media nümayəndələri iştirak ediblər. Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, 44 günlük Vətən müharibəsi tamamilə yeni Azərbaycan dövlətinin və yeni Azərbaycan xalqının qanla və torpaqla yoğrulduğu epoxal bir andır. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, 44 günlük Vətən müharibəsi milli iradə, milli ruh və milli ləyaqətin təntənəsidir.

Səadət Yusifova qeyd edib ki, ötən bir il ərzində biz yenilənmiş Azərbaycana daxildən və xaricdən baxışın fundamental dəyişməsinin, ölkəmizə və xalqımıza qarşı oturuşmuş stereotiplərin dağılmasının, dünyanın tamamilə yeni bir Azərbaycanı kəşf etməsinin şahidi olduq. Prezident İlham Əliyevin BMT-nin 76-cı sessiyasındakı tarixi çıxışı XXI əsrin əsas paradiqmasına çevriləcək ümumbəşəri prinsip kimi ədalətə çağırışdır, hər bir azərbaycanlının düşündüyü və bütün dünyaya çatdırmaq istədiyi mesajdır.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etdi. Bu, yəqin ki, BMT-nin yarandığı vaxtdan bu günə qədər dünyada ilk belə haldır. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasında ikili standartlara və selektiv yanaşmaya yol verilməməsi üçün qurumun qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var. Beynəlxalq hüquq və BMT-nin Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır.

Prezident Administrasiyası rəsmisi deyib: "Biz 44 günlük müharibənin və zəfərimizin doğurduğu yeni reallığın yalnız Cənubi Qafqaza deyil, bütövlükdə regiona yaxın və orta müddətli perspektivdə təsirini görsək də, uzunmüddətli perspektivdə onun doğurduğu nəticələrin yeni dünya nizamı üçün qlobal əhəmiyyətini bəlkə də hələlik sona qədər dərk etmirik. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycan xalqı müzəffər xalq kimi öz adını dünya tarixinə yazdı. Zəfərimizin əks-sədasını biz hələ uzun müddət duyacaq və eşidəcəyik. Bu zəfərin əsasında Azərbaycan Prezidentinin uzunmüddətli hədəflərə hesablanmış çoxşaxəli strategiyası, ölkəmizin iqtisadi, siyasi, hərbi, diplomatik, informasiya istiqamətlərində güclənməsi və möhkəmlənməsi məqsədilə uzun illər ərzində böyük əzmlə gördüyü işlər və Prezident - ordu - xalq birliyi dayanır.

Dünən Azərbaycan xalqı Vətən müharibəsinin başlanmasının birinci ildönümünü, birinci Anım və milli qürur gününü qeyd edirdi və biz bu gün burada Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda şəhid olmuş qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsinə həsr edilmiş yeni layihənin - memorial.az saytının - "xalqın yaddaş kitabı"nın təqdimatında iştirak edirik".

Qeyd olunub ki, hər bir azərbaycanlı üçün "yaddaş kitabı" yalnız Vətəni uğrunda şəhid olmuş qəhrəmanların fədakarlıqlarının xatırlanması deyil, həm də onların əmanəti olan bu Vətənin daha da güclənməsi üçün bizim üzərimizə düşən məsuliyyətin dərk edilməsidir. Bu, ərazi bütövlüyünün, istiqlalın və zəfərin asanlıqla əldə olunmadığının bir xatırlatmasıdır, Azərbaycan xalqının həmrəyliyinin və dövlətimizin qüdrətinin daha bir nişanəsidir. Şəhidlərimizin fədakarlığının bu mahiyyəti xalq olaraq kollektiv idrakımızda daim əks olunacaq, çünki Azərbaycanın ərazi bütövlüyü onların canları hesabına inşa edilmiş abidədir. Memorial.az saytı da məhz həmin "yaddaş kitabı"dır.

Memorial.az saytının yaradılmasının məqsədindən danışan Səadət Yusifova vurğulayıb ki, şəhidlər mövzusu Azərbaycan xalqı üçün həmişə həssas və müqəddəs mövzudur. Vətən müharibəsinin gedişində və müharibədən sonra müxtəlif informasiya resurslarında, media orqanlarında şəhidlərimiz haqqında müxtəlif məlumatlar paylaşılır. Bu məlumatlar cəmiyyətdə böyük maraqla qarşılansa da, informasiyanın yayılması pərakəndə və sistemsiz xarakter daşıyır. Memorial.az saytının yaradılmasında da əsas məqsədlərdən biri bu pərakəndəliyi aradan qaldıraraq, tarixi yaddaşın formalaşdırılmasına sistemli yanaşmanı tətbiq etmək, hər bir qəhrəmanımız haqqında müfəssəl məlumatları vahid elektron resursda cəmləşdirmək, onları Azərbaycan xalqına daha yaxşı tanıtmaqdır. Perspektivdə saytın funksionallığının və əhatəsinin daha da artırılması nəzərdə tutulur. Bununla bağlı 2016-cı il Aprel döyüşləri şəhidləri, atəşkəs dövrünün şəhidləri, Birinci Qarabağ müharibəsi şəhidləri və ümumilikdə münaqişənin gedişində həlak olmuş hərbi qulluqçular və mülki şəxslər haqqında da məlumatların sistemləşdirilməsi nəzərdə tutulur.

"Vurğulamaq istərdim ki, şəhidlərimizin xatirəsi daim əziz tutulur, onların ailə üzvlərinin, doğmalarının hər zaman qayğı ilə əhatə olunması dövlətimizin əsas vəzifələrindən biridir. Həm şəhidlərin ailə üzvləri, həm sağlamlığını itirən qazilərimizin sosial müdafiəsi Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzindədir", - deyə Administrasiya rəsmisi qeyd edib.

Daha sonra çıxış edən memorial.az saytının baş redaktoru Vüsal Məmmədov bildirib ki, indiyə qədər istər sosial şəbəkələrdə, istərsə də kütləvi informasiya vasitələrində şəhidlərimizlə bağlı çoxlu sayda məlumatlar dərc edilib. Məlumatlar geniş şəkildə yayılsa da, pərakəndəlik var idi. Şəhidlərimizlə bağlı məlumatların davamlı olmasını istəyirik. Saytda daha geniş məlumatlar üçün şəhid ailələri ilə sıx əlaqədə olacağıq. Bəzi şəhidlərin övladları məktəbə getdi, onlar barədə məlumat yerləşdirmişik, bəzi şəhidlərin övladlarını onların dostları məktəbə apardı. Bundan sonra onların virtual həyatlarını davam etdirəcəyik.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc deyib ki, memorial.az saytının - "yaddaş kitabı"nın yaradılması şəhidlərimizin müqəddəs əməllərini tarixiləşdirmək və gələcək nəsillərə ötürmək baxımından mühüm hadisədir. 2907 şəhidin və itkin düşən 7 nəfərin sırasında polkovnikdən mükəlləfiyyətli əsgərə qədər xalqımızın seçilmiş övladları var.

"Ötən il bu vaxt arxa və ön cəbhə birləşdi. Millətin düşmənə qarşı səngəri vahid oldu - tikəsini əsgərlə bölüşən hər bir insan, yaralıya qanını verən istənilən soydaşımız, evini və isti ocağını paylaşan hər bir ailə ordumuzla eyni sırada döyüşdü. Müharibə başlayanda onun nə qədər sürəcəyi bəlli deyildi. Ona görə də savaş təkcə gənclərimizi deyil, həmçinin onların quracağı yeni ailələri, doğulacaq sabahkı övladları da əlimizdən alıb. Lakin qanını torpağa verən oğulların əvəzinə Vətən və azadlıq, sevinc və bütövlük doğulub", - deyə Zahid Oruc vurğulayıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, postmüharibə dövründə 30 mindən çox şəxsə sosial müdafiə dəstəyi göstərilib, 7900-dən çox şəhid ailəsi üzvlərinə 15700-dən artıq sosial ödəniş həyata keçirilib. Bu il Prezident İlham Əliyevin sərəncam və fərmanları ilə sosial ödənişlərdə ciddi artımlar müşahidə olunub. Bunun nəticəsində Vətən Müharibəsi Qəhrəmanı olan şəxslərə aylıq 2000 manat ayrılıb, müharibə əlillərinin təqaüdləri artırılıb. 2021-ci ildə mənzil və fərdi ev təminatı 5 dəfə artırılıb, növbəti illərdə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulur. Bu il isə 3000 mənzil və fərdi ev veriləcək ki, artıq onlardan 1600-ü təqdim olunub.

Nazir müavini diqqətə çatdırıb ki, hərbi əməliyyatlardan sonra bütün şəhid ailələri ziyarət olunub, ehtiyacları öyrənilib. Mühüm tədbirlərdən biri odur ki, 142 hərbçi son nəsil yüksək texnologiyalı protezlə təmin edilib, 1500 qaziyə reabilitasiya xidmətləri göstərilib. 8000 vətəndaş aktiv məşğulluq tədbirlərinə cəlb olunub, "Məşğulluq marafonu" ilə 765 şəhid ailəsi üzvü işlə təmin edilib. Şəhid ailəsi üzvlərinin sosial xidmətlərə və digər hərbi, tibbi xidmətlərə çıxışı üçün Vahid Əlaqələndirmə Mərkəzindən 1000-ə yaxın bu təbəqəyə aid şəxslər istifadə ediblər. Sosial Xidmətlər Agentliyi tərəfindən "Unudulmaz" mobil tətbiqi hazırlanır. İyun ayında bu tətbiqin ilkin təqdimatı olub, bu, şəhid və qazilərimizin döyüş yolu, təltifləri, cəmiyyətə daha yaxından tanıdılması məqsədi daşıyır.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi, general-mayor Bəkir Orucov bildirib ki, ordumuz 44 gündə hər gün irəli gedib. Vətən müharibəsində qələbə qazanmağımızın bir neçə əsas səbəbi var. Onlardan biri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu müharibəyə rəhbərlik etməsi idi. Müharibə başlayan ilk gündən etibarən Ali Baş Komandan cəbhədəki vəziyyətə birbaşa nəzarət edirdi. Hər gün döyüş planı təsdiqlənir, tapşırıqlar verilir, müzakirələr aparılırdı. Bu qələbədə xalq-ordu birliyinin xüsusi rolu var. Qələbənin əldə edilməsinin digər bir amili də əsası 1971-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş hərbi liseyin yaradılmasıdır. Bunun sayəsində Azərbaycanda peşəkar milli hərbçilərin yetişdirilməsi mümkün oldu.

Aprel döyüşlərinin şəhidi Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə qəhrəman şəhidin həyatından, keçdiyi döyüş yolundan danışıb və memorial.az saytının əhəmiyyətini vurğulayıb.

# Azərbaycan ilə Bolqarıstan arasında vətəndaşların hüquqlarının təmini sahəsində qarşılıqlı məlumat mübadiləsi gücləndirilir



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti Bolqarıstanın Ayrı-seçkiliyə qarşı müdafiə üzrə Komissiyasının rəhbəri Ana Cumaliyevanın rəsmi dəvəti ilə Sofiya şəhərində işgüzar səfərdədir.

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi ayrı-seçkiliyə qarşı mübarizə ilə bağlı təcrübə mübadiləsi aparılması və iki qurum arasında əməkdaşlığın gücləndirilməsidir. Bu məqsədlə iki qurum arasında anlaşma memorandumu imzalanıb.

Memorandumda ombudsmanlar arasında iki ölkə vətəndaşlarının hüquqlarının təmini məqsədilə qarşılıqlı məlumat mübadiləsinin gücləndirilməsi, insan hüquqlarının müdafiəsi sahəsində elmi konfranslar, seminarlar və təlimlərin təşkili ilə bağlı məsələlər əks olunub.

Səfər çərçivəsində ombudsmanın görüşləri davam edir.

# Lənkəranda anım mərasimi keçirilib





Sentyabrın 27-də ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da 44 günlük Vətən müharibəsinin başlanmasının birinci ildönümünə və şəhidlərin əziz xatirəsinə həsr olunmuş kütləvi anım mərasimləri keçirilib.

Anım mərasimləri əsaslı tikinti-bərpa işlərindən sonra həmin gün yenidən açılan Şəhidlər Xatirə Kompleksinin önündən başladı. Səhər saatlarından başlayaraq həzin musiqi sədaları altında Lənkəran ŞİH başçısı Taleh Qaraşov, Milli Məclisin depudatı Ziyafət Əsgərov, icra aparatının rəsmi şəxsləri, hüquq mühafizə orqanlarının, müxtəlif idarə və təşkilatların rəhbər işçiləri, əmək kollektivləri, ictimaiyyət nümayəndələri Şəhidlər Xatirə Kompleksi abidəsini ziyarət edib şəhid qəbirləri üzərinə tər çiçəklər düzərək xatirələrini ehtiramla yad etdilər.

Sonra rəsmi hissə başladı. Natiqlər çıxışlarında qeyd etdilər ki, müharibə günlərində vətənpərvərlik ruhu Lənkəranda da çox yüksək idi. Döyüşlərin başladığı gündən hər bir lənkəranlının müsəlləh əsgərə çevrilərək Vətən uğrunda şəhidlik zirvəsinə qalxmağa hazır olduğunu xüsusi vurğulayan natiqlər qeyd etdilər ki, müharibənin elə ilk saatlarında yüzlərlə lənkəranlı gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə gəlib könüllü olaraq döyüş bölgəsinə göndərilmələrini təkidlə tələb edirdilər. Döyüşə gedən gənclərdən 66 nəfərin qəhrəmancasına həlak olduğunu, bir çoxlarının yaralandığını bildirən natiqlər onların şücaətinin hər bir gənc üçün misilsiz vətənsevərlik nümunəsi olduğunu önə çəkərək torpaqların azadlığı uğrunda həlak olmuş şəhidlərin xatirəsinin həmişə ehtiramla yad ediləcəyini söylədilər.

Şəhid ataları Kamran Kazımov, Layim Veysəlov, şəhid həyat yoldaşı Rəna Bayramova, şəhid övladları Qurbanova Emiliya Emil qızı, Quliyeva Rüqəyya Vüsal qızı və digərləri çıxış edib Vətən müharibəsində qəhrəmancasına həlak olan əzizləri ilə və bütün digər şəhdilərlə qürur duyduqlarını, fəxr etdiklərini bildirdilər.

Sonra iştirakçılar rayon ərazisində dəfn olunmuş şəhidlərin məzarlarını ziyarət etdilər. Məscid və ibadətgahlarda şəhidlərin ruhuna dualar və Quran ayələri oxundu, Şəhidlər xiyabanının genişləndirilmiş ərazisində və Heydər Əliyev prospektində 1000-ə yaxın həmişəyaşıl ağac əkildi.

# Qarabağ dirçəliş yolundadır

## İşğaldan azad edilən ərazilərimizin bərpası üçün dövlətin resursları ilə yanaşı, cəmiyyətin və diasporun səyləri də birləşdirilməlidir

**Prezidentin Ağdamdakı xüsusi nümayəndəliyinin, Qarabağ Dirçəliş Fondunun əməkdaşlarının və ölkəmizdəki Amerika Ticarət Palatası (AMCHAM) üzvlərinin iştirakı ilə "Ağdam rayonunun iqtisadi inkişaf potensialı" mövzusunda müzakirələr keçirilib.**




İştirakçılar tədbirdən öncə Ağdam şəhərində İmarət kompleksinin, Çörək muzeyinin, Dövlət Dram Teatrının dağıdılmış binalarını, Cümə məscidini, Qiyaslı məscidini, Şahbulaq kompleksini ziyarət ediblər. Xanəndələr Dövlət Dram Teatrının qarşısında qonaqlar üçün milli musiqilərimizdən nümunələr ifa ediblər..

Tədbirdə çıxış edən Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov iştirakçılara rayonun ümumi planı, şəhərin baş planı, infrastrukturu və bölgənin iqtisadi potensialı haqqında məlumat verib.

Daha sonra Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev tədbir iştirakçılarını fondun yaradılması, missiyası, dəyərləri, hazırkı fəaliyyət istiqamətləri, məqsəd və vəzifələri barədə məlumatlandırıb.

Erməni işğalı nəticəsində ərazilərimizə dəyən zərərin miqyasından danışan Rəhman Hacıyev bərpa prosesinin irimiqyaslı və mürəkkəb bir proses olduğuna diqqət çəkib. O, iştirakçılara işğaldan azad olunan ərazilərimizə dəyən zərərlə bağlı dolğun məlumatların yer aldığı, ideya müəllifi Birinci vitse-prezident Mehriban xanım Əliyeva olan və Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılan "Karabakh.Center" internet resursu haqqında ətraflı məlumat verib.

Rəhman Hacıyev Qarabağda bərpa işlərinin daha sürətli aparılması üçün dövlətin resursları ilə yanaşı, cəmiyyətin və diasporun səylərinin birləşdirilməsinin vacib olduğunu xüsusi vurğulayıb. Belə səfərlərin böyük əhəmiyyətə malik olduğunu deyən R.Hacıyev "İnsan yalnız bu vəhşiliyi, bu xarabalıqları öz gözü ilə gördükdən sonra bu ərazilərdə bərpa prosesinin necə mürəkkəb, necə miqyaslı olduğunu təsəvvür edə bilər", - deyə əlavə edib.

Azərbaycanda Amerika Ticarət Palatasının prezidenti Nuran Kərimov çıxışı zamanı belə səfərlərin təşkil olunmasının əhəmiyyətini vurğulayıb.

Görüşdə qonaqlara fondun "Karabakh Challenge" kampaniyası haqqında məlumat verilib, kitabçalar təqdim olunub.

Qeyd edilib ki, məbləğindən asılı olmayaraq, hər bir soydaşımız Qarabağ üçün ianə edib işğaldan azad olunan ərazilərimizin dirçəlişinə öz töhfəsini verə bilər.

İanələr Azərbaycanın işğaldan azad edilən Qarabağ bölgəsinin ərazilərinin bərpası və yenidənqurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi, ekoloji tarazlığın bərpa olunması istiqamətində həyata keçirilən tədbirlərə yönəldilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Fövqəladə Hallar Nazirliyinin Şimal Regional Mərkəzi xilasedicilərin iştirakı ilə təlim keçirib

Fövqəladə Hallar Nazirliyinin (FHN) Şimal Regional Mərkəzi mərkəzin xüsusi xilasetmə hissəsinin xilasediciləri və Quba, Xaçmaz, Qusar, Şabran və Siyəzən rayon Dövlət Yanğından Mühafizə hissələrinin tərkibində fəaliyyət göstərən xilasedicilərin iştirakı ilə təlim təşkil edib.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin keçirilməsində məqsəd xilasetmə əməliyyatlarına cəlb olunan qüvvələrin nəzəri və praktiki biliklərinin artırılması, ekstremal hallarda xilasetmə işinin daha keyfiyyətlə aparılması üçün təcrübənin yüksəldilməsi olub.

Təlim zamanı şərti qəza baş vermiş binada kəşfiyyatın aparılması, alpinist ləvazimatlarından istifadə etməklə yüksəklikdən zərərçəkmişlərin xilas edilməsi və təxliyəsi ssenarisi üzrə keçirilib. Təlimdə xilasedicilər təhlükəsizlik qaydalarına riayət etməklə xüsusi alət və avadanlıqlar vasitəsilə şərti qəza zamanı qarşıya qoyulmuş tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gəliblər.

Sonda təlimin təhlili aparılıb, müvafiq tövsiyələr verilib.

## "Azercell Telekom" MMC-nin korporativ abunəçilərinin nəzərinə

29 sentyabr 2021-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Gigamax", "Gigamax Plus" və "Gigamax Pro" internet paketlərində daha əlverişli istifadə şərtləri təqdim ediləcək. Belə ki, internet xidmətindən müvafiq paket çərçivəsində təqdim edilmiş həcm hesabına digər cihazlar ilə bölüşməklə istifadə (AP - Access Point, Mobil giriş nöqtəsi və s.), əsas təyinatı digər cihazlar ilə bölüşmək olan cihazlarda istifadə, o cümlədən smartfon və planşetlərdən fərqli cihazlarda istifadə hallarının məhdudlaşdırılması və abunəçinin məhdudiyyətin səbəbi qeyd edilmiş xüsusi internet səhifəsinə yönləndirilməsi qaydası tətbiq ediləcək. Bu da abunəçilər üçün həm müvafiq paketlərdən istifadəni asanlaşdıracaq, həm də onlara şərtlərə riayət olunmasını daha rahat nəzarətdə saxlamaq imkanı verəcək. Bir daha xatırladırıq ki, müvafiq paketlər çərçivəsində təqdim olunan imkanlar yalnız fərdi istifadə üçün nəzərdə tutulur. Müvafiq paketlər çərçivəsində təqdim edilmiş internet həcminin digər cihazlar arasında bölüşməklə istifadəsi (AP - Access Point, Mobil giriş nöqtəsi və s.) qadağandır, bu formada istifadə müşahidə edildikdə yuxarıda göstərilən məhdudiyyət tətbiq ediləcək və bu dəyişiklikdən əvvəl nəzərdə tutulan şərt (mövcud olmuş paketə abunənin avtomatik olaraq ləğv edilməsi) isə tətbiq edilməyəcək. Abunəçi göstərilən səbəbdən məhdudiyyət tətbiq edilmiş cihazı dəyişməklə müvafiq paketlərdən istifadəni davam etdirə və ya həmin paketlərdən imtina edə bilər.

**Qeyd:** *Abunəçilər edilən dəyişikliklər, "Gigamax", "Gigamax Plus" və "Gigamax Pro" internet paketlərinin sifarişi, başqası ilə əvəz etmək və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlər, tariflər və keçirilən kampaniyalar haqqında ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, 24/7 fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri işlərinin satın alınması üçün *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) **etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 150 (bir yüz əlli) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 19 oktyabr 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 27 oktyabr 2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 28 oktyabr 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti "G.Ə.Şıxlınski" gəmisinə polad burazların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 oktyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

# "Məşğulluq marafonu"na qoşulan işəgötürənlərin sayı 518-ə, təqdim etdikləri vakansiya sayı 2646-ya çatıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan "Məşğulluq marafonu"nda iştirak edən işəgötürənlərin sayı artaraq 518-ə çatıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Vətən müharibəsində yaralanmış qazilərimizin və şəhid ailəsi üzvlərinin məşğulluğuna dəstək məqsədi daşıyan marafona qoşulan işəgötürənlərin 272-si dövlət, 246-sı özəl müəssisələrdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Onlar tərəfindən marafona 2646 vakansiya təqdim edilib.

Vakansiyalar üzrə verilən göndərişlər əsasında 773 nəfər (o cümlədən 133 şəhid ailəsi üzvü və 640 qazi) işlə təmin olunub. Hazırda da bu kateqoriyalardan olanlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

"Məşğulluq marafonu"na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları **https://dma.gov.az/layiheler/mesgulluq-marafonu** linkinə daxil olmaqla qeyd edə bilərlər.

# Xəzər dənizində köməksiz vəziyyətdə qalan üç nəfər xilas edilib






Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin olunması, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi və xilasetmə tədbirlərinin həyata keçirilməsi fəaliyyətləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 25-də saat 05:25 radələrində Fövqəladə Hallar Nazirliyinin böhran vəziyyətində idarəetmə mərkəzindən DSX Sahil Mühafizəsinin Baş Komanda-Nəzarət Mərkəzinə Zirə istiqamətindən dənizə çıxmış və sahildən 10 kilometr məsafədə köməksiz vəziyyətdə qalmış qayığın üç nəfərlik heyətinin xilas edilməsi üçün müraciət edildiyi barədə məlumat daxil olub.

Qısa müddətdə həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində Xəzər dənizinin mərkəzi hissəsində dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi tərəfindən "Şah dili" burnu istiqamətində sahildən təxminən yeddi kilometr məsafədə üç nəfər heyət üzvü olan taxta qayıq aşkarlanıb.

Üzmə vasitəsinin heyəti gəminin göyərtəsinə təxliyə olunub və həmin şəxslərə ilkin tibbi yardım göstərilib. Qayıq isə yedəyə alınaraq sahilə çıxarılıb. Xilas edilmiş şəxslərin Bakı şəhər sakinləri 1996-cı il təvəllüdlü Elnur Sürəddin oğlu Zeynalov, 1989-cu il təvəllüdlü Rəşid Fikrət oğlu Məhərrəmov və 1992-ci il təvəllüdlü Rüfət Rauf oğlu Fətullayev olmaları müəyyənləşdirilib.

***"Azərbaycan"***

# Son sutkada koronavirusdan 2114 nəfər sağalıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 885 yoluxma faktı qeydə alınıb, 2114 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 22 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 482 min 286 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 455 min 82 nəfər müalicə olunaraq sağalıb, 6 min 498 nəfər vəfat edib. Aktiv xəstə sayı 20 min 706 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 min 525, dünənə qədər isə ümumilikdə 4 milyon 839 min 863 test icra olunub.

# Dünən COVID-19 əleyhinə 67 min dozadan çox peyvənd vurulub

**Sentyabrın 28-də Azərbaycanda 67 min 400 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 16 min 357, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 51 min 43 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 8 milyon 417 min 975, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 730 min 132, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 687 min 843 nəfər təşkil edir.




## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və komitənin kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Professor Şəmsəddin Hacıyev Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Eldar Əzizov Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi

**ÇİNGİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5015
Sifariş 1785
Qiyməti 40 qəpik